www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 oktyabr 2014-cü il Çərşənbə axşamı № 253 (5962) Qiyməti 40 qəpik

**Xəbər**

## Azərbaycanlı zəvvarlar qəzaya düşdü; 3 ölü, 10 yaralı

yazısı səh.2-də

**Gündəm**

## Rusiya və Azərbaycan ortaq hərbi qurum yaradır



Bu barədə müdafiə naziri Sergey Şoyqunun Bakı səfəri zamanı məlum olub; ölkə prezidenti səviyyəsində qəbul edilən qonaq ölkəmizə İŞİD təhlükəsindən danışıb, Azərbaycanı "strateji tərəfdaş" adlandırıb...

yazısı səh.9-da

## Milli Şuranın mitinqi yeni qalmaqalın əsasını qoydu

Azərbaycana rəhbərlik etmiş şəxslərə sayğısızlıq etirazlara səbəb oldu

yazısı səh.6-da

## Müsavatda narazılıqlar səngimir; istefalar başladı

yazısı səh.4-də

## Deputat əfv gözləntisindən danışdı

yazısı səh.3-də

## İŞİD-in internet xətası ona baha başa gəldi

Türkiyə hərbi bazalarını İŞİD-ə qarşı savaşa açdı - ABŞ məmnundur

yazısı səh.13-də

## Müsavatdan istefa verən Əhliman Abbasın seçkidəki rəqibi danışdı

yazısı səh.10-da

*Minsk sammitinin pərdəarxası:*

## Qarabağla bağlı sensasion açıqlamalar

yazısı səh.9-da

## Ərdoğanın korteji qəzaya uğradı; ölən və yaralananlar var

yazısı səh.2-də

## Ölkədən çıxmağa hansı halda qadağa qoyula bilər?

yazısı səh.3-də

## Bakı metrosu necə qorunur?

yazısı səh.14-də

## "Yeni Müsavat" 25 illik yubileyinə hazırlaşır

yazısı səh.3-də

## İkinci dəfə yanan "Karvan"ın sahibi yoxa çıxıb

yazısı səh.12-də

# Abbas Abbasov nəqliyyat nazirini hara aparır?

# MƏMMƏDOVLAR KLANININ SUSQUNLUĞUNUN SENSASİON SƏBƏBLƏRİ

Ziya Məmmədov yolayrıcında; nazirin qardaşı biznesini Çeçenistana köçürür; onları Ramzan və Ramazanla birləşdirən nədir?



yazısı səh.8-də

# Xaləddin İsgəndərov torpaqları yenidən köhnə sahibinə satır

Binəqədinin icra başçısı rayonun özündən əvvəlki rəhbərlərinin dövründə satılan torpaqların təftişinə göstəriş verib; sabiq vergi işçisi olan yeni başçı iş adamlarından müxtəlif adlar altında xərac yığmaqla məşğuldur

yazısı səh.12-də



*Hikmət Hacızadə:*

## "Çox narahatam, ümummilli qapalı diskussiya təklif edirəm"

yazısı səh.5-də



## Aygün Kazımovanın qardaşına 12 il iş verildi

yazısı səh.2-də



*Vidadi Mirkamal:*

## "Mitinqdə kütləviliyi təmin edə bilmədik"

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014



## Azərbaycanlı zəvvarlar qəzaya düşdü; 3 ölü, 10 yaralı

**Fövqəladə Hallar Nazirliyi Azərbaycandan İranın Məşhəd şəhərinə gedərkən aşan zəvvar avtobusu ilə bağlı məlumat yayıb. ANS PRESS-in nazirliyə istinadla verdiyi məlumata görə, Bakı-Astara yolunun 91-ci kilometrliyində, Biləsuvar rayonu ərazisində sərnişin avtobusu idarəetməni itirərək yol kənarına aşıb. Dərhal hadisə yerinə FHN-in müvafiq xilasetmə qüvvələri cəlb olunub.**

Yanğınsöndürən-xilasedicilər təhlükəsizlik qaydalarına riayət etməklə xüsusi alət və avadanlıqlar vasitəsilə avtomobildə olan 33 nəfər sərnişindən 3 nəfəri (kişi) aldıqları ağır bədən xəsarətlərindən hadisə yerində vəfat edib, 10 nəfəri isə müxtəlif bədən xəsarətləri alıb.

Meyitlər və xəsarət alanlar yanğınsöndürən-xilasedicilər tərəfindən müxtəlif alət və avadanlıqlardan istifadə olunmaqla avtobusdan çıxarılaraq aidiyyəti üzrə təhvil veriliblər.

İlkin ehtimala görə, hadisənin baş verməsinə səbəb kimi sürücünün sükan arxasında yuxulaması göstərilir.

## Niderland XİN mükafat səsverməsinin nəticələrini açıqladı

**Niderland Xarici İşlər Nazirliyi "Human Rights Tulip" mükafatına 30 namizəd arasında aparılmış internet səsvermənin nəticəsini elan edib. İndi münsiflər heyəti öz seçimini etməli, yekun qərarı Niderland Xarici İşlər Nazirliyi çıxarmalıdır.**

Mükafat hər il insan haqları uğrunda mübarizə aparan hüquq müdafiəçilərinə və ya təşkilatlara verilir.

"Media forum" saytının məlumatına görə, Azərbaycandan namizəd olan məhbus hüquq müdafiəçisi Rəsul Cəfərov internet səsvermədə 2032 səs toplayıb və 7-ci yeri tutub. Digər azərbaycanlı namizəd, məhbus hüquq müdafiəçisi Leyla Yunus 392 səs alaraq 20-ci olub.

İnternet səsvermədə 50593 səs qeydə alınıb (ttp://www.humanrightstulip.nl/interim-ranking). Ən çox səs alan İranda İnsan Hüquqları Uğrunda Beynəlxalq Kampaniyadır: 7246 səs.

İkinci yerdə 7148 səslə nigeriyalı hüquq müdafiəçisi Çidi Odinkalu qərarlaşıb.

Üçüncü yeri Ukraynanın "Euromaidan SOS" təşkilatı tutub. Bu qurum 6862 səs qazanıb.

## Üç yeni seçki dairəsi yaradıldı

**Azərbaycanda yeni seçki dairələri yaradılıb. APA-nın məlumatına görə, Mərkəzi Seçki Komissiyasının bu gün keçirilən iclasında seçki dairələrinin sxemi, qrafik təsviri və hüdudlarına dəyişiklik zərurəti yaradan normativ-hüquqi aktların icrası və seçki dairələrinə aid tələblərin Seçki Məcəlləsinə uyğunlaşdırılması məsələsi müzakirəyə çıxarılıb.**

Məsələ barədə məlumat verən MSK sədrinin müavini Natiq Məmmədov deyib ki, 6 seçki dairəsində dəyişiklik etməyə ehtiyac yaranıb. O, 4 dairədə seçicilərin sayı azaldığını, 2 dairədə seçicilərin sayının artdığını xatırladıb. Sumqayıt, Abşeron və Xızı rayonlarını əhatə edən seçki dairələrinin yenidən təşkili və 3 yeni seçki dairəsinin (41, 44 və 50 saylı) yaradılması təklif edilib.

Qərar səsverməyə çıxarılaraq qəbul edilib.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# İntiqam Əliyevin səhhətində problemlər yaranıb

### Hüquq müdafiəçisi iki aydır mətbuatdan xəbərsizdir; Fərəc Kərimlinin həbs müddəti iki ay uzadılıb...

**İctimai-siyasi fəallığına görə həbs edilən məhbuslarımızın bəzilərinin məhkəmələri yekunlaşmaq üzrədir. Onların arasında hökm oxunan, istintaqları davam edənlər də var.**

**Müsavat başqanının müavini, vicdan məhbusu Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah onun saxlanma şəraitinin ağır olduğunu bildirdi:** "Yadigar bəy iki gün öncə ailəsi ilə görüşüb. Vəziyyəti normaldır. Saxlanma şəraitində dəyişiklik yoxdur. Müəssisənin şəraiti nəinki dünya və Azərbaycan standartlarına, heç Afrika standartlarına uyğun deyil. Başqan müavini hər gün partiyanın idarə edilməsində də fəaliyyətini davam etdirir. Onun təklifləri də dinlənilir".

**Müsavat başqanının digər müavini Fərəc Kərimlinin vəkili Nemət Kərimli onun barəsində həbs müddətinin iki ay uzadıldığını söylədi:** "Bununla bağlı apelyasiya şikayəti təqdim edəcəyəm. Ev dustaqlığına buraxılması ilə bağlı da vəsatət ləğv edilib. Hazırda heç nədən şikayəti yoxdur. Yeganə narazılığı qanunsuz həbsi ilə bağlıdır".

**Hüquq müdafiəçisi İntiqam Əliyevin qızı Nərmin Kamilsoy atasının təcridxanada ciddi problemlərlə üzləşdiyini qeyd etdi:** "Ümumi olaraq vəziyyətinin normal olduğunu və saxlanma səraiti ilə bağlı probleminin olmadığını deyir. Səhhətində artıq problemlər yaranmağa başlasa da, bunu ictimailəşdirmək istəmir. 2 aydan çoxdur ona qəzet çatdırılmır".



**Arif Yunusun vəkili Xalid Bağırov onun həbsdə olan həyat yoldaşı Leyla Yunusdan nigaran qaldığını bildirdi:** "Həftədə bir dəfə onunla görüşürəm. Heç bir təzyiq olmur. Sadəcə, həyat yoldaşı Leyla Yunusdan çox narahatdır. Arif bəyin istintaqı ilə bağlı hələ də heç bir istintaq hərəkəti yoxdur".

**Gənc siyasi məhbus Orxan Əyyubzadənin anası Rəhimə Məmmədova oktyabrın 13-də təcridxanada onunla görüşüb:** "Orxan hər şeyin normal olduğunu söylədi. Ona dəstək olan bütün insanlara, mətbuat orqanlarına təşəkkür edir. Oxunacaq hökmə hazır olduğunu bildirdi. Oktyabrın 15-də məhkəməsidir".

**Gənc blogger Ömər Məmmədovun vəkili Əlayif Həsənov isə onun işinin Ali Məhkəməyə göndərildiyini bildirdi:** "Kasasiya şikayəti vermişik. Müntəzəm olaraq görüşürəm. Elə bir şikayəti yoxdur. Əfv ərizəsi yazmasını ondan tez-tez soruşurlar. O isə birmənalı imtina edir".

❑ **Cavanşir ABBASLI**

## Ərdoğanın korteji qəzaya düşdü; ölən və yaralananlar var

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın korteji yol-nəqliyyat qəzasına düşüb. Musavat.com-un məlumatına görə, bu barədə "Cümhuriyet" qəzeti xəbər yayıb.**

Bildirilir ki, Ərdoğanın Gümüşhane şəhərinə səfərindən sonra korteji müşayiət edən çevik polis alayının avtobusu Malatiyaya geri qayıdarkən Sivas əyalətinin İmranlı qəsəbəsində aşıb. Məlumata görə, hadisə yaşığlı hava üzündən baş verib. Polis əməkdaşları arasında ölən və yaralananlar var.

Malatiyanın qubernatorunun sözlərinə görə, 3 polis həlak olub, daha 3 nəfər isə olduqca ağır vəziyyətdədir. Yaralıların sayı 35 nəfərə çatır. Öz növbəsində Sivas qubernatoru qəza nəticəsində 17 nəfərin yaralandığını, onlardan 9-nun durumunun ağır olduğunu söyləyib.


Kazım Kazımov

## Aygün Kazımovanın qardaşına 12 il iş verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Əsgəroğlu-K" MMC-nin dələduzluqda təqsirləndirilən direktoru Kazım Kazımov, şirkətin satış meneceri Yaqub Kiyasov və mühasib Olqa Polkovanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın məlumatına görə, prosesdə hökm oxunub. Hökmə əsasən, K.Kazımov 12 il, Y.Kiyasov 10 il, O.Polkova isə 9 il müddətinə azadlıqdan məhrum edilib.

Kazım Ələsgər oğlu Kazımov Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə) və 178.2.4-cü (dələduzluq - xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə təqsirli bilinib. Bakı şəhərində tikinti işləri ilə məşğul olan K.Kazımov vətəndaşlara külli miqdarda ziyan vurmaqda, bir mənzili bir neçə nəfərə sataraq, dələduzluq əməlləri törətməkdə ittiham olunub.

Qeyd edək ki, təqsirləndirilən şəxslərin barəsində bundan əvvəl digər cinayət işi də mövcud olub. Həmin cinayət işi üzrə K.Kazımov 10 il, Y.Kiyasov 9 il müddətinə azadlıqdan məhrum edilib. Azadlıqda olan O.Polkova isə məhkəmə zalında həbs olunaraq 7 il müddətinə azadlıqdan məhrum edilib. Bu gün hökm oxunan zaman onların azadlıqdan məhrumetmə illəri toplanılaraq barələrində yeni hökm çıxarılıb.

K.Kazımov xalq artisti Aygün Kazımovanın qardaşıdır.

## Tanınmış jurnalist-ekspert sayt açdı

### Qadir İbrahimli: "Bütün siyasi qüvvələrə açıq saytıq"

**Azərbaycanda yeni xəbər portalı - istiqlal.az saytı fəaliyyətə başlayıb. Saytı tanınmış iqtisadçı ekspert Qadir İbrahimli təsis edib. "Yeni Müsavat"a açıqlamasında Q.İbrahimli bildirib ki, istiqlal.az sözün bütün mənalarında müstəqil media quruluşu olacaq: "Saytımız formaca yox, məzmunca müstəqil olacaq. Yönümündən asılı olmayaraq bütün siyasi qüvvələrə informasiya dəstəyi vermək, ölkənin sosial-ictimai sektorunda baş verən hadisələri obyektiv şəkildə işıqlandırmaq niyyətindəyik. Hesab edirik ki, internet istifadəçiləri çox qısa müddət ərzində istiqlal.az saytının daimi izləyicilərinə çevriləcəklər".**

Müsahibimiz saytın domenini iyul ayında aldıqlarını, oktyabrın 12-də fəaliyyətə başladıqlarını dedi. Q.İbrahimli saytın həm rəhbəri, həm də baş redaktoru olduğunu bildirdi: "Heç bir siyasi bağlılığımız yoxdur. Bütün siyasi qüvvələrə açıq saytıq. İstənilən informasiyanı saytımızda yerləşdirəcəyik. Fərqli metod seçmişik. İctimai əhəmiyyət kəsb etməyən informasiyaları sayta yerləşdirməyəcəyik. Ölkənin ictimai həyatında ictimai əhəmiyyət kəsb edən önəmli hadisələri, real informasiyaları dərc edəcəyik. Bəzən informasiyaları real informasiyaları ört-basdır etmək üçün verirlər. Biz özümüzü ciddi sayt olaraq təsdiq edəcəyik".

**Q.İbrahimli bildirdi ki, fəaliyyətə kiçik qüvvə ilə başlayıblar. Müsahibimizin fikrincə, başlanğıcda kiçik və mobil qüvvə ilə yola çıxmaq lazımdır:** "Sonradan işçiləri cəlb etmək olar. Hazırda heyətimizdə 4 nəfər var. Yaxın bir ay, 10-20 günə fərqimizin nədən ibarət olduğunu izləyənlər görəcək. Biz ictimai rəyə təsir edə biləcək, ictimai rəyin formalaşmasında iştirak edəcək bir sayt ortaya qoymaq fikrindəyik".

Müsahibimizin sözlərinə görə, saytın hər hansı sponsoru yoxdur. Q.İbrahimli ona yaxın olan iş adamlarının maliyyə dəstəyi ilə istiqlal.az-ın fəaliyyət göstərdiyini vurğuladı. Baş redaktor rəhbəri olduğu sayt özünə media sektorunda yer edən kimi öz hesablarına fəaliyyət göstərəcəklərini dedi. "Sponsoru qəbul etmək saytın öz müstəqilliyini itirməsi deməkdir" deyən Q.İbrahimli istiqlal.az-ın Aydınlar Partiyası və onun sədri Qulamhüseyn Əlibəyli ilə yaxınlığı məsələsinə də toxundu: "Mən Aydınlar Partiyasının sədr müaviniyəm. Yaxınlıq bir o qədərdir. Amma bu, partiyanın saytı deyil. Bununla belə, təşkilatın da informasiyaları sayta yerləşdiriləcək".

❑ **Sevinc TELMANQIZI**

## Müsavat da mitinq keçirə bilər

**Ölkədə uzun müddət davam edən durğunluqdan sonra yenidən mitinqlərə start verilib. Oktyabrın 12-də Milli Şura paytaxtda mitinq təşkil edib. Mitinqdə AXCP-dən başqa partiyalar təşkilatçı olmasalar da, iştirak ediblər. Siyasi məhbuslara azadlıq tələbi ilə keçirilən mitinqdə Müsavat Partiyası rəhbərliyi, həmçinin sıravi müsavatçılar qatılıblar. Maraqlıdır, bəs Müsavat Partiyası sözügedən mitinqdən sonra belə bir mitinq, aksiya keçirməyi planlaşdırırmı?**

Müsavat Partiyasının funksioneri Gülağa Aslanlı musavat.com-a bununla bağlı danışıb və aksiya məsələsini istisna etməyib. O bildirib ki, Müsavat da tezliklə aksiya keçirə bilər. Ancaq hələlik partiyanın strukturlarının formalaşdırılması məsələsi gündəmdədir.

"Müsavat Partiyasının ümumiyyətlə kütləvi aksiyalarla bağlı müzakirələrə başlamaq haqqında qərarı var. Yaxın zamanlarda, xüsusən də oktyabrın 25-də partiya strukturlarının yaranması məsələsi başa çatma ərəfəsində müzakirələr daha intensiv şəkil alacaq. Yaxın zamanda kütləvi aksiyalar məsələsi müzakirə edib qərar verəcəyik".

❑ **RÖYA**

## Mitinqə Avropa İttifaqının bayrağı niyə gətirilmişdi?

### Yeganə Hacıyeva: "Bu qurumun Avrointeqrasiya yolunu tutmasının sübutudur"

**Milli Şuranın oktyabrın 12-də keçirdiyi mitinqdə diqqətçəkən bir məqam var idi. Vicdan və siyasi məhbuslara azadlıq tələbi ilə baş tutan aksiyada Avropa İttifaqının bayrağı qaldırılmışdı. Ukraynadakı "Maydan hərəkatı"nda etirazçıların tez-tez meydanda qaldırılan Aİ-nın bayrağı bu dəfə "Məhsul" stadionunda dalğalanırdı.**

Halbuki Milli Şuranın təsis olunarkən ilk günlərdə proqramında Avroatlantik məkana inteqrasiya ilə bağlı hər hansı müddəa yer almamışdı. Hətta bu məsələ üzərində ikitirəlik yaranmışdı. MŞ-nin lideri Rüstəm İbrahimbəyov Avrointeqrasiya xəttini gərəksiz görürdü. Yalnız Müsavat Partiyasının təkidindən sonra Avrointeqrasiya təşkilatın sənədlərində yer aldı.

MŞ-nin Aparat üzvü Yeganə Hacıyeva "Yeni Müsavat"a mitinqdə Aİ bayrağının qaldırılması ilə bağlı danışarkən qeyd etdi ki, bu, xüsusi olaraq edilməyib: "Mitinqə gələn iştirakçılar özləri ilə gətirmişdilər. Bu da cəmiyyətdən gələn sifariş kimi qəbul edilməlidir. Deməli, Azərbaycan vətəndaşı da gələcəyini Avropa İttifaqı ilə görür".

**Y.Hacıyevanın sözlərinə görə, mitinqdə Aİ bayrağının olması Milli Şuranın Avrointeqrasiya yolunu tutmasının sübutudur:** "Mitinqdə bu bayrağın olması Milli Şuranın Avrointeqrasiya yolunu tutduğunun və ölkənin demokratik, təhlükəsiz gələcəyini məhz Avropa Birliyi ilə gördüyünün, bu yolda fəaliyyətinin təsdiqidir".

❑ **E.SALAMOĞLU**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# "Mitinqdə kütləviliyi təmin edə bilmədik"

## Vidadi Mirkamal: "Müsavatdan heç bir məlumat verilməmişdi ki, iştirak edəcəklər"

**"Bu mitinq prezident seçkilərindən sonra cəmiyyətdə yaranmış passivliyə bir pozitiv not qatdı. Seçkilərdən sonra keçirilən ilk mitinq olduğu üçün bu hadisəni müsbət dəyərləndirmək lazımdır. Sadəcə, aksiyanın məqsədi repressiya qurbanlarına azadlıq tələb etmək olduğuna görə kütləviliyi təmin edə bilmədik. Hesab edirəm ki, məram və məqsədi daha geniş götürmək lazımdır. Bu halda mitinqin izdihamını təşkil etmək mümkün olacaq".**

**Bu sözləri Milli Şuranın Koordinasiya Şurasının üzvü, hüquqşünas Vidadi Mirkamal** "Yeni Müsavat"a qurumun keçirdiyi 12 oktyabr mitinqi haqda danışarkən bildirdi. V.Mirkamal ümid edir ki, növbəti mitinqlərə digər partiyalar da dəstək verəcək. MŞ üzvü aksiyada iştirak edən Müsavat rəhbərliyinin meydanda olduğunun niyə qeyd edilməməsindən də danışdı: "Oktyabrın 12-də Milli Şuranın Koordinasiya Şurasının toplantısı oldu. Bu iclasa qədər Müsavat Partiyasından heç bir məlumat verilmədi ki, mitinqdə iştirak edəcəklər. Bu mənada bir az gecikmə oldu. Amma ümid edirəm ki, gələn mitinqdə digər təşkilatlar da olacaq. Milli Şura bu mitinqi dəyərləndirib, növbəti aksiyalarla bağlı qərarın verilməsini müzakirə edəcək".

**V.Mirkamal mitinqdə nə üçün çıxış etməməsindən də danışdı:** "Mən mitinqdə iştirak edirdim. Rafiq Manaflı, Ədalət Yusibov, Fuad Ağayev və mən arxa tərəfdə dayanmışdıq. Fikrimcə, tribunada yeni simalar olmalıdır. Sadəcə, arxada dayanmışdıq deyə jurnalistlərin diqqətindən yayınıb".

Xatırladaq ki, oktyabrın 12-də Milli Şuranın "Məhsul" stadionunda təşkil etdiyi icazəli mitinqdə vicdan və siyasi məhbuslara azadlıq tələb olunub.

❑ **EMİL**



# Deputat əfv gözləntisindən danışdı

## Çingiz Qənizadə: "Əfv ona görə verilmir ki, beynəlxalq təşkilatlar sakitləşsin"

**"Mən hüquq müdafiəçisi kimi həmişə əfvin tərəfdarı olmuşam. Ancaq əfv ona görə verilmir və verilməyəcək ki, beynəlxalq təşkilatlar sakitləşsin".**

Bunu Prezident yanında Əfv Məsələləri Komissiyasının üzvü, deputat Çingiz Qənizadə beynəlxalq təşkilatların siyasi məhbuslarla bağlı çağırışından sonra əfv gözləntilərinin olmasına münasibət bildirərkən söylədi. Musavat.com-a açıqlamasında hüquq müdafiəçisi bildirdi ki, əslində beynəlxalq təşkilatların fəaliyyətinin məğzində Azərbaycana təzyiq məsələləri dayanır: "Cənab prezident humanizm nöqteyi - nəzərindən əfv verir. Mən də arzu edirəm ki, növbəti əfv fərmanı - bu, dekabrda olacaq, ya başqa vaxtda - daha geniş əfv olsun, burada NİDA-nın, digər siyasi təşkilatların təmsilçiləri olsun. Biz Tofiq Yaqublu, İlqar Məmmədov və digər bütün şəxslərin azadlığa buraxılmasının tərəfdarıyıq, bu istiqamətdə də iş aparırıq. Mən hüquq müdafiəçisi olaraq cəzasının müəyyən hissəsini çəkmiş, ilk dəfə cinayət törətmiş, xarakteri o qədər təhlükəli olmayan insanların azadlığa buraxılmasının tərəfdarıyam". **Ç.Qənizadə əfvin imzalanacağını güman edir:** "Ümid edirəm ki, cənab prezident növbəti əfv fərmanında hüquq müdafiəçisi olaraq bizlərin də ona müraciətini nəzərə alacaq, humanist insan kimi humanizmini bir daha nümayiş etdirəcək. Biz başqalarından fərqli olaraq harasa bir kağız yazan kimi bunu mətbuata çıxarıb elan etmirik ki, "filankəs gedib filan dustaqla görüşdü", "filankəs filan müraciəti etdi". QHT-çilər var ki, dustaqla görüşür, istintaqda iş ola-ola deyir prezidentə müraciət etmişəm ki, onu əfv eləsin. O hüquq müdafiəçisi bilmir ki, əfv hökm qanuni qüvvəyə mindikdən sonra tətbiq olunur. Bizim bu gün şoulardan uzaq Hüquq Müdafiə Təşkilatlarının Monitorinq Qrupu var, Novella xanım, Səidə xanım, Səadət xanım, mən - biz işlərimizi aparırıq. Amma bu istiqamətdə işlərimiz bəyanatla deyil, xahişlə, müraciətlə həllini tapır və tapacaq".

❑ **ELŞAD**

# Milli Şura Etibar Hüseynovu iqnor edir

## Eldəniz Quliyev: "Hər ekzotik səs çıxarana görə karvan yoldan çıxsaydı..."

### "Onun kimi mənasız bir adamın statusuna fikir bildirmək həvəsimiz yoxdur"

**Xəbər verdiyimiz kimi, Milli Şuranın "Məhsul" stadionunda keçirilən aksiyasına qatılanlar deputat Etibar Hüseynov tərəfindən təhqir olunub. E. Hüseynov srağagün "İnşaatçılar" metrosunun yaxınlığında yerləşən "Məhsul" stadionunda mitinq keçirən Milli Şuranı məsxərəyə qoyan bir status paylaşaraq, qoyun şəkillərinin altında "Məhsul stadionuna getməyi unutma" yazıb. Dünən isə E. Hüseynov həmin statusu pozub.**

Amma statusun paylaşıldığı ilk gün bu məsələ ciddi etiraza səbəb oldu. YAP-çı deputat Aydın Mirzəzadə həmkarı E. Hüseynovun azərbaycanlıları təhqir etməsini müsbət bildirib. A.Mirzəzadə facebook səhifəsində yazıb ki, E.Hüseynovun sözlərinə etiraz edirlər: "Kimin hansı siyasi əqidədə olmasından asılı olmayaraq, onun şəxsiyyətinə toxunmaq, onu aşağılamaq olmaz. Mən mitinqçilərin fikri və şüarları ilə razı deyiləm və həmişə onlarla siyasi polemikada olacağam. Ancaq Azərbaycan hüquqi, demokratik ölkədir və hər kəsin sərbəst düşünmə və qanunla qadağan edilməyən siyasi mövqe tutmaq hüququ var. Dövlətimiz bu hüquqların təminatçısıdır, məhz belə aksiyada hər kəsin həm hüququ qorunur, həm də hər bir iddialı siyasi qüvvənin gücü görünür".

**Bu statusa isə cavab gecikməyib. E.Hüseynov YAP funksioneri A. Mirzəzadəyə xəbərdarlıq edib:** "Artıq nəçənci dəfədir ki, jurnalistlər arasında "HƏRŞEYŞÜNAS" kimi tanınan Aydın Mirzəzadə mənim çıxışlarımı şərh edir, ağıl verir, yol göstərir. Bu adam hələ də anlamır ki, Etibar Hüseynov YAP üzvü deyil, müstəqil deputatdır və onun da öz fikrini müstəqil şəkildə ifadə etmək hüququ var. Elə isə bu adamın hansı haqla mənə təkidlə ağıl verməyə cürət etməsini anlaya bilmirəm. İndiyə qədər bir dəfə də olsun Aydın Mirzəzadənin hansısa YAP üzvünün barəsində bir tənqidi çıxışının və ya iradının şahidi olmamışam. Baxmayaraq ki, YAP üzvləri arasında da müxalifət düşərgəsini məndən də sərt şəkildə tənqid edənlər var.

Əksinə, bu adam əksər hallarda bir çox vəzifə sahiblərinin, deputatların nəinki özlərini, hətta onların ərköyün, dəymədüşər balalarının bir çox xoşagəlməz əməllərini belə riyakar və yaltaqcasına müdafiə eləyib. Ona görə də dərinə getmək istəmirəm. Sadəcə, yerinizi və həddinizi bilin, Aydın Mirzəzadə".



Eldəniz Quliyev

**Milli Şuranın və EL hərəkatının üzvü, kinorejissor Eldəniz Quliyev isə hesab edir ki, təhqirin səviyyəsi yox, tərbiyəsizi olur. Onun fikrincə, haqqında danışdığımız hadisə bir tərbiyəsiz adamın fikirləridir:** "Bu adam ailə tərbiyəsini büruzə verdi. Milli Şuranın bu cür məsələlərə, Etibar kimi mənasız bir adamın statusuna fikir bildirmək həvəsi də yoxdur. Təəssüf ki, bu cür adamlar Milli Məclisdə təmsil olunurlar. Hətta hakim partiyanın funksionerləri də onu qınayırlar".

E.Quliyev E.Hüseynovun bu təhqirinə hüquqi müstəvidə cavab verilməyəcəyini dedi: "Hər ekzoik səs çıxarana görə karvan yoldan çıxsaydı, mənzil başına çatmazdı".

❑ **Sevinc TELMANQIZI**

# "Yeni Müsavat" yubileyə hazırlaşır

## Rauf Arifoğlu: "Biz bu təqvimi dostlarla qeyd etməyi düşünmüşük"



**Noyabrın 10-da "Yeni Müsavat" qəzetinin ilk nömrəsinin çapdan çıxmasının 25 illiyi tamam olacaq. Bu, əsrin dörddə birinə bərabər bir tarixdir. Həmin dövrdə "Yeni Müsavat" qəzetinin təxminən 6 min sayı çapdan çıxmış olacaq. Bu da qəzetin 6 min gün, 20 il dayanmadan nəşri deməkdir. Belə bir əlamətdar tarixi "Yeni Müsavat" qəzetinin rəhbərliyinin keçirib-keçirməyəcəyini dəqiqləşdirdik.**

**Baş redaktor Rauf Arifoğlu** dedi ki, 25 illik bizim üçün böyük bir tarixdir. Onun sözlərinə görə, bu, təkcə bizim üçün yox, Azərbaycan və onun mediası üçün önəmli tarixdir: "Biz bu təqvimi dostlarla qeyd etməyi düşünmüşük. Həm cəmiyyətin, həm də oxucuların yadına salmaq istəyirik ki, oxuduqları qəzetin, 25 illik tarixi var. "Yeni Müsavat" sovet irticası dövründə qurulub. Çox şərəfli və çətin bir yol keçib. Bu günlərə gəlib çıxması heç də asan olmayıb. Baxmayaraq ki, heç bu günü də asan deyil. Biz bunu həm yazılarımızla, həm də bir tədbir şəklində qeyd edəcəyik. İmkanımız olsa, çatdıra bilsək, 25 illiyimizlə bağlı sənədli bir videorolik də hazırlayacağıq. Dostlarımız, oxucularımızla bu tarixi qeyd edəcəyik".

Sözügedən tarixə qədər bu barədə əlavə və detallı məlumat veriləcək.

❑ **Sevinc TELMANQIZI**

# Ölkədən çıxmağa hansı halda qadağa qoyula bilər?

## Ekspert deyir ki, cinayət məsuliyyətinə cəlb edilməyən, şərti məhkumluğu, öhdəliyi olmayan şəxsləri xaricə buraxmamaq siyasi qərardır...



**Son 3 ayda tanınmış simaların ölkədən çıxışına qadağa qoyulması adi hal alıb. Bu qərar əsasən ictimai-siyasi fəallara, barələrində cinayət işi açılan, yaxud bank hesabları dondurulan QHT rəhbərlərinə qarşı tətbiq olunur. Ekspertlər hesab edirlər ki, belə qərarlar gələcəkdə olacaq həbslərin bünövrəsini qoyur.**

Jurnalist Xədicə İsmayılın da ölkədən çıxışına qadağa qoyulub. Bu barədə məlumatı onun özü yayıb. Jurnalist ölkədən çıxışına qadağanın səbəblərindən xəbərsiz olduğunu bildirib.

Hüquqşünas Müzəffər Baxış hansı halda bu qərarın verilə biləcəyindən danışdı: "Xədicə İsmayıla qarşı qoyulan qadağa qanunsuzdur. O, cinayət məsuliyyətinə cəlb edilməyib. Qanuna görə, şəxs barəsində cinayət işi başlananda ölkədən çıxışına qadağa qoyula bilər. Əgər şəxsin hər hansı bir öhdəlikləri varsa, belə hallarda da qadağa qoyula bilər. Xədicə xanım barəsində heç bir iddia , öhdəlik yoxdur. Bu baxımdan bu qadağa sırf qanunsuzdur. Düşünürəm ki, hakimiyyət tərəfindən ona qarşı tətbiq edilən hüquq vasitəsidir. Bundan əlavə, «Miqrasiya haqqında» Qanunun tələblərinə görə, şəxs həbs edildikdə, barəsində həbs-qətimkan tədbiri seçildikdə, əsas cəzasını məhkum çəkənə qədər bu qərar qüvvədə saxlanılır. Müddətli hərbi xidmətdə də belə qərar nəzərdə tutulur. Bu halların heç biri Xədicə xanımda yoxdur. Bu hallar olmadığına görə Xədicə xanımın hüquqları pozulub".

**Hüquqşünas belə qərarların verilməsinin səbəblərini də qeyd etdi:** "Məqsəd insanları sındırmaqdır. İnsanların hüquqlarını məhdudlaşdırmaq sırf qanunsuzdur. "Hakimiyyət mənim əlimdədir, istədiyimi edə bilərəm" prinsipi tətbiq olunur. Əsas prinsip bundan ibarətdir. İnsanları sındırmaq və itaətə cəlb etmək siyasəti aparılır. Xədicə İsmayıl Azərbaycan və dünya ictimaiyyəti tərəfindən tanınan bir şəxsdir. Sadəcə onu sındırmaq istəyirlər. Ona görə də belə qanunsuz üsullardan istifadə etməklə, onun hüquqlarını məhdudlaşdırmağa çalışırlar".

**Müzəffər Baxış onu da qeyd etdi ki, bu qərarlar gələcəkdə həyata keçiriləcək həbslərə yol açır:** "Təcrübə göstərir ki, gələcəkdə olacaq həbslərə hazırlıq başlayıb. Belə qadağalar onu göstərir. Lakin Xədicə xanıma qarşı bunu tətbiq edə bilmirlər. Çünki o, heç bir qanunsuz hallara yol vermir, sadəcə ona qarşı qərəz var".

❑ **Cavanşir ABBASLI**

# Müsavatda narazılıqlar səngimir; istefalar başladı

## Partiyadan 10-a yaxın şəxs istefa verib, gənclər təşkilatının sədri də bu sıradadır, rəhbərlik isə rəsmi ərizələrin olmadığını bildirir...

**Müsavat Partiyasında qurultaydan sonrakı gərginlik səngimir. Partiyadan istefaların sayı da artmaqdadır. Artıq istefa verən müsavatçıların sayının 10-dan artıq olduğu bildirilir. Partiya rəhbərliyi isə baş verənlərə münasibət bildirməyə tələsmir. Son olaraq partiyanın gənclər təşkilatının sədri Əhliman Abbas istefa verib. O, bu barədə özünün facebook hesabında yazıb. 2011-ci ilin yanvarında partiyaya gəldiyini xatırladan Ə.Abbas bildirib ki, məqsədi ölkədə hökmranlıq edən korrupsioner-avtoritar rejimə qarşı mübarizəyə əlindən gələcək töhfəni vermək idi:**

"2013-cü ilin noyabrından isə Müsavat Gənclər Təşkilatının sədrliyini edirəm. Bildirmək istəyirəm ki, partiyadan ayrılmaqla bağlı qərarım var və qarşıdakı həftənin ortasına kimi ayrılmaqla bağlı rəsmi prosedurları yekunlaşdıracağam". O deyib ki, Müsavatdan ayrılaraq ictimai-siyasi, demokratik dəyişikliklər naminə fəaliyyətini davam etdirməyə vadar edən səbəblər var: "Partiya içində siyasi səviyyəsiz, qaragüruh qanadın hegemonluq qazanması nəticəsində Müsavatda hər hansı normal siyasi fəaliyyətin davam etdirilməsi praktik olaraq mümkünsüz vəziyyətə düşüb. Bu qanadın böhtançı, mədəniyyətdən, insanlıqdan kənar, intriqaya, səmərəsiz gərginliklərə meylli davranışlarının nəticəsi olaraq vaxtilə nəhəng bir partiya olan Müsavat bir xeyli ziyalı, nüfuzlu insanın partiyadan ayrılması ilə siyasi ömrünün qaranlıq vaxtlarını yaşayır. Mənim ölkəmdə görmək istədiyim, bunun üçün çalışdığım azadlıq, azad söz, fərqli fikir, yeniliklərə açıq, seçimlərə dözümlü olmaq kimi inkişafın əsasını təşkil edən dəyərlərə bu siyasi qaragüruh qanadın yanaşması heç də ölkədəki avtoritar rejimə yarınanların yanaşmasından fərqlənmir. Və bu qanadın əxlaq və insani dəyərləri unutmasının pik nöqtəsi partiyanın 8-ci qurultayı ərəfəsində baş verdi".

**O, həmçinin bildirib ki, bu gün Müsavatın idarəçiliyini aparan şəxslərin partiyanın prinsipial müxalifətçilik mövqeyindən sapdığı aydındır:** "Despot rejimlərlə mübarizədə prinsipial və qətiyyətli olmaq uğurun əsas şərtidir. Bu gün Müsavat Partiyasını Əli Əliyevin, Əhməd Orucun və sairə hökumətin oyuncağı olan siyasi partiyaların tərəfinə dartılıb aparılır və artıq bizim buna qarşı durmaq imkanımız yoxdur".

Ə.Abbas qeyd edib ki, partiyadan ayrıldıqdan sonra əvvəlki hədəfləri və dəyərləri uğrunda mübarizəsini davam etdirəcək...

**Müsavatın Məclis üzvü Səxavət Soltanlı Müsavat Partiyasından üzr istəyib. O deyib ki, üzrxahlığa səbəb Əhliman Abbaslını Müsavat Gənclər Təşkilatının sədri kimi gənclərə tövsiyə etməsi olub:** "Səhvimi xeyli əvvəl, Əhliman seçildikdən bir qədər sonra görürdüm, son ana qədər çalışırdım ki, düzəlsin, yetişsin və sair. Alınmadı. Nə o işləməyi bacardı, nə də mən ona düz yolu izah edə bilmədim. Buna görə hər birinizdən üzr istəyirəm". O bildirib ki, Ə.Abbas 11 ay müddətində heç bir uğurlu fəaliyyət göstərməyib, əksinə, zərərli fəaliyyət göstərməyə başlayıb. O, Ə.Abbasın istefa qərarını Müsavat Gənclər Təşkilatının sədri olduqdan sonra partiya üçün atdığı ən düzgün addım kimi qiymətləndirib. Həmçinin bildirib ki, onun istefasına gətirdiyi əsaslar kökündən yalan, böhtan, şərdir.

**Oktyabrın 13-də isə Gənclər Təşkilatının şura üzvü Tural Mustafa istefa verdiyini bəyan edib. Müsavat funksioneri Gülağa Aslanlı isə baş verənlərə bu cür münasibət bildirib:** "Əhliman Abbas qaragüruhçu deyəndə kimləri nəzərdə tutur, bunu deyə bilmərəm. Bəlkə də onun nəzərdə tutduğu qaragüruhçu öz ətrafında olan adamlardır. Arif Hacılının komandasında qaragüruhçu və Müsavat Partiyasının inkişafına




mane olan adam yoxdur". O, APA-ya açıqlamasında qeyd edib ki, qurultaydan sonra partiyada yaranmış vəziyyət faciə sayılmamalıdır.

**G.Aslanlı deyib ki, partiya rəhbərliyinə istefa verən şəxslər tərəfindən imzalanmış hər hansı müraciət daxil olmayıb:** "Müsavat Partiyası demokratik partiyadır və keçirilən qurultayın nəticələrini kimlərinsə şübhə altına alması uduzan tərəfin kiçik bir cığallığı kimi qiymətləndirilə bilər. Ancaq istefa haqqında bəyanatların arxasında heç bir rəsmi sənəd durmadığı üçün bu barədə əvvəlcədən fikir söyləmək çətindir. Müsavat Partiyasına daxil olmaq da, partiyadan azad olmaq da sərbəstdir. Amma bunun üçün ərizə ilə müraciət etmək lazımdır".

**Ə.Abbasın Müsavatın mövqeyini dəyişməsi ilə bağlı fikrinə də münasibət bildirən G.Aslanlı bunun həqiqətə uyğun olmadığını söyləyib:** "Gənclər Təşkilatı sədrinin belə bir ifadə işlətməsini qəbul etmirəm. Müsavat xəttini dəyişməyib. Biz digər partiyalarla siyasi məhbusların dəstəklənməsi məsələsində funksional əməkdaşlıq edirik. Siyasətlə məşğul olan adamlar bunu bilməlidirlər. Bəzi məsələlərdə fikirlərimizin üst-üstə düşdüyü partiyalarla əməkdaşlığımızı başa düşməmək siyasətçi üçün müsbət hal deyil. Bunu kimsə Müsavatın xəttini dəyişməsi kimi qəbul edirsə, bu, siyasətdə yeni olmaq deməkdir".

**Müsavat Partiyası başqanlığa sabiq namizəd Qubad İbadoğlu da Ə.Abbasın istefasına münasibət bildirib. Q.İbadoğlu qeyd edib ki, Əhliman Abbasın Müsavata gəlməsində onun rolu olsa da, partiyadan getməsini heç vaxt arzulamayıb:** "2011-ci ildə Əhliman bəy öz arzusu ilə Müsavat Partiyasını seçdi, onu mənim təqdimatımla Divanda qəbul elədik. Qəbulla bağlı təqdimatdan bəlli oldu ki, onu partiyaya gətirən müsavatçılıq ideologiyası və Azərbaycan amalıdır...

O, xaricdə təhsil alıb vətənə qayıdanda digər seçimlərə malik olsa da karyera və mənafe ardınca getmədi, başqalarından fərqli olaraq yenə də Müsavata gələrək, yoluna davam elədi. Debütü də pis olmadı, ilk dəfə qoşulduğu seçkilərdə gənclərin böyük əksəriyyətinin səsini qazandı və üzərinə böyük məsuliyyət götürdü".

**Q.İbadoğlu bildirib ki, Ə.Abbas həmin məsuliyyəti üzərinə götürdüyü üçün hazırda belə qərar verib:** "Çünki onun məlum qərarı üzərindəki məsuliyyətdən, yalnız özünün yox, daha çox ətrafında olan gənclərin qarşısında götürdüyü öhdəlikləri indiki şərtlər daxilində yerinə yetirə bilməyəcəyi narahatçılığından irəli gəlir. Onlar yeni dönəmdə partiyanın idarəçiliyində təmsil olunmaq və potensiallarını daha yaxşı reallaşdırmaq əzmində idilər. Məhz ona görə də gənclərin son qurultaydan gözləntiləri çox idi". Qeyd edək ki, Ə.Abbas başqanlıq seçkilərində Qubad İbadoğlunu dəstəkləyib.

**Müsavat Məclisinin üzvü Vurğun Əyyub isə narazılıqların baş verməsində sabiq başqan İsa Qəmbəri günahlandırıb:** "Müsavat Partiyasının qurultayının gedişi ilə bağlı konkret narazılıqlar var və bununla əlaqədar partiyanın uyğun qurumlarına müraciət edilib. Bu müraciəti araşdırıb, konkret cavab vermək əvəzinə, söz oyunu oynamaqla, müxtəlif bəhanələr göstərməklə məşğuldurlar. Təbii ki, partiyada bu cür münasibətdən narazı qalıb, istefa verənlər olur". **O bildirib ki, partiyada istefa verənlərə münasibət də adekvat deyil və bu, əlavə narazılıq, gərginlik yaradır. V.Əyyub hesab edir ki, sabiq başqan, hazırda Məclis üzvü olan İsa Qəmbərin partiya Məclisinin keçən həftənin şənbə günü keçirilən iclasındakı çıxışı qurultayda baş verənləri ört-basdır etmək cəhdidir:** "Hər halda, İsa Qəmbər də həmin şikayətlərə konkret qurumların cavabını gözləyib, münasibət bildirə bilərdi. Əvvəlcədən bu cür münasibət sərgiləmək əslində o şikayətlərin əhəmiyyətsiz bir şey olduğunu nəzərə çatdırmaq, yaxud, o qüsurları ört-basdır etmək cəhdidir".

**V.Əyyub qeyd edib ki, ortada konkret müraciətlər var və o müraciətlər diqqətlə, ədalətli bir şəkildə araşdırılmalı, partiya üzvlərinə bu barədə cavab və məlumat verilməlidir. Müsavat Partiyasından istefa verib-verməyəcəyinə gəlincə, V.Əyyub zamanı qabaqlamaq niyyətində olmadığını vurğulayıb:** "Vurğun Əyyub Müsavat Partiyasının Bərpa Mərkəzinin üzvlərindəndir, partiyanın qurulmasına illərini vermiş adamdır. Partiyadan ayrılmaq o qədər də asan məsələ deyil".

❑ **Röya RƏFİYEVA**

# "Əhliman Abbasın istefası haqlı olduğumuzu sübut etdi"

## **Tural Abbaslı:** "Bundan sonrakı uğur və uğursuzluq Arif bəyin ayağına yazılacaq"

**Müsavat Partiyası Gənclər Təşkilatının keçmiş sədri Tural Abbaslı "Yeni Müsavat"ın suallarını cavablandırıb. T.Abbaslı GT-nin yeni sədri Əhliman Abbasın istefasından danışıb, ümumilikdə partiyadakı istefalara münasibət bildirib.**

***- Tural bəy, Əhliman Abbasın gedişini necə qiymətləndirirsiz?***

- Mən partiyadan istefaları böyük ağrı ilə izləyirəm. Hər bir müsavatçının gedişini partiya üçün itki sayıram. İndiki dövrdə müxalifət partiyasına yeni üzv cəlb etmək olduqca çətindir. Belə şəraitdə partiyadan istefalar Müsavatın cibindən gedir.

Gənclər təşkilatına seçkilərdən sonra da bir qrup gənc çıxarıldı. Mən bu yanaşmanı qəbul etmirəm. Nə səbəb olursa-olsun, Əhliman Abbasın istefasını xoş qarşılamıram. Bir təşkilatın sədri postuna iddialı şəxs hər bir addımını ölçüb-biçməli, hesablamalı, soyuq başla qərar verməli, analiz qabiliyyəti olmalı, emosiyalarla hərəkət etməməlidir. Bu mənada Əhliman Abbasın gedişini qınayıram.

***- Əhliman Abbasın sədr seçilməsinə o dövrdə etirazınız da olmuşdu, bəlkə yaranmış mühit ona işləməyə imkan vermədi?***

- Mən bunu səbəb görmürəm. Çünki Əhliman Abbas başqan seçkilərindən sonra istefa verdi. Qurultay ərəfəsində öz namizədini açıq şəkildə təbliğ edirdi və onun istefaya getməsinə də namizədinin təsiri oldu. Amma mən gənclər təşkilatının sədri postunda başqa namizəd görmək istəyirdim.

Biz o zaman Rüfət Hacıbəyli kimi fəal, mübariz gənci bu yerə layiq bilirdik. Amma partiya daxilində olan resurslara gücümüz çatmadı, Əhliman seçildi. Bu gün onun istefası bizim haqlı olduğumuzu sübut etdi. Heç zaman belə olmasını istəməzdim.

Kim gedirsə, Müsavatın kisəsindən gedir. Sadəcə, irəliyə baxmaq lazımdır və yeni başqan bu mərhələni ağrı-acısız keçməyin yollarını tapmalıdır. Arif Hacılı təcrübəli siyasətçidir və ona hansısa məsləhət vermək fikrimiz də yoxdur. Ümid edirik ki, bu yaranmış situasiya bir mərhələ olaraq geridə qoyulacaq.

***- Bəs bundan sonra gənclər təşkilatının sədri postuna rəhbərlik uğrunda gedəcək mübarizəyə qoşulmaq fikriniz varmı?***

- Gənclər təşkilatı mübarizədə mühüm rolu olan bir qüvvədir. Biz doğru bildiyimizi etməyə çalışırıq. Bu posta da seçkilər keçirilərsə, qərarlara təsir etməyə çalışacağıq ki, partiya adına müsbət nəticə olsun. Gənclər təşkilatının sədri postuna mübarizliyini sübut etmiş müsavatçı gəncin seçilməsi məqsədəuyğundur. Mən bu posta Əhliman Abbas seçiləndən sonra hansı müzakirələrin getdiyini yada salıb yenidən məsələni alovlandırmaq istəmirəm.

Özüm də sədr seçiləndə qısamüddətli o problemi yaşamışam. Partiyada məni bu posta layiq görməyənlər var idi, antidemokratik şəraitdə seçki keçirildiyi söylənirdi. Qalib gələnin şəxsi keyfiyyətlərindən asılıdır ki, özünü təsdiqləyə bilsin, onu qəbul etsinlər.



**"İstefaların qarşısı alınmasa, sunami dalğası kimi davamı gələ bilər"**

Mən qısa vaxtda o çətin dövrü keçə bildim. Yenə deyirəm ki, ən əsas vəzifə rəhbərliyin üzərinə düşür. Arif bəy partiyanı bu vəziyyətdən çıxara biləcək, təcrübəli siyasətçidir. Rəhbərliyin ilk işi partiya daxilində barışıq yaratmaqdır, narazıları partiyaya qazandırmaqdır, onları bir çətir altına yığmaq bacarmaqdır, şəxsi ambisiyalardan imtina etməkdir. Bundan sonra partiyadakı uğur və uğursuzluq Arif bəyin ayağına yazılacaq.

***- Amma qurultaydan sonra artıq 10 nəfər istefa verib, bunun davamı gələ bilər?***

- Partiyadan istefalar emosional addımdır. Onlar firqədən getsələr də, müxalifətdən getmirlər, iqtidarda bir vəzifə almırlar. Bunun qarşısı alınmalıdır və əks halda, sunami dalğası kimi gələ bilər. Çünki istefa verən şəxsi nümunə yaradır və təhlükəli tendensiyaya çevrilir.

Partiyada narazı olan üzvlər də ondan nümunə götürüb oxşar addımı atırlar. Partiya rəhbərliyi təcili addım atmalıdır, təkbətək söhbət aparmalıdır, domino effektinə çevrilməsinə imkan verməməlidir. Mən istefaların bir mərkəzdən idarə olunduğunu düşünmürəm. Müsavat 103 ilin partiyasıdır və tezliklə barışıq əldə olunmalıdır.

❑ **E.SALAMOĞLU**

Yeni MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014

**Müsavat Partiyasının qurultay öncəsi və sonrası situasiyada öz təmkini ilə seçilən tək-tük adamlardan biri oldu Hikmət Hacızadə. Ən gərgin situasiyalarda belə xoşməramlı çağırışları ilə diqqət çəkdi, gərginliyin azalması naminə moratorium və "atəşkəs"lə bağlı xitab elədi. Partiyanın yeni Məclisinə üzv seçilən Hikmət bəylə həm partiyadaxili məsələlər, həm də Azərbaycanı təhdid edən məsələlərdən danışdıq.**

# "Çox narahatam, ümummilli qapalı diskussiya təklif edirəm"

## Hikmət Hacızadə: "Heç kəs küsməsin, getməsin, heç bir faciə baş verməyib, hələ göy yerə düşməyib, dağlar dağılmayıb"

### "Onsuz da 3-5 nəfər qalmışıq, biz də bir-birimizdən küsək, onda nə olacaq?"

***- Hikmət bəy, sizin bir neçə dəfə müsavatçılara "qardaşlar, əl saxlayın" məzmunlu çağırışlarınız oldu, müsavatçıları moratoriuma səslədiniz. Sözünüz eşidildimi? Nəticə sizi qane edirmi?***

- Yəqin ki, kimsə toxtayır. Şəxsən mən bu çağırışları davam etdirəcəyəm. Mənə dedilər ki, Qubad bəyin şikayəti gedib ünvanına - komissiyaya, Mirbaba bəyə, Sevinc xanıma çatıb və məsələni araşdıracaqlar. Odur ki, elə böyük faciə baş verməyib, hələ atəş üçün heç bir bəhanə yoxdur.

***- Bir qrup gəncin istefa qərarına münasibətiniz necədir?***

- Mən çox təəssüf hissi ilə qarşıladım. Emosiyaya qapılıblar da. Niyə tələsiblər, nə olub? Nə böyük bir şey baş verib? Nədənsə narazıdırlarsa, şikayət yazsınlar və prosedur qaydasında bu məsələni həll eləsinlər. Yox, əgər onlar prosedurla gedən yolda ədalətsizliklə qarşılaşsalar, onları başa düşərik. Yoxsa ay-haray, emosiya düzgün deyil.

***- Siz bu prosesdə nümunə sayılacaq mövqedən çıxış etdiniz. Qubad İbadoğlunun tərəfdarı olsanız da, səbirli, dözümlü olmaq çağırışları elədiniz, həmçinin araşdırma aparılmasını zəruri saydınız. Ola bilərmi ki, siz narazı tərəfdarlarla bir görüş keçirəsiniz?***

- Bəli, böyük məmnuniyyətlə görüşərəm. Onları emosiyaya qapılmamağa çağıraram. Mən hazıram. Heç kəs küsməsin, getməsin. Heç bir faciə baş verməyib. Hələ göy yerə düşməyib, dağlar dağılmayıb. Ay faciə baş verdi, qan təzyiqim qalxdı, mən getdim. Mən əvvəldən belə olacağını bilirdim. Ona görə də plakatlar yayırdım ki, məni seçməsəniz, küsməyəcəyəm, təmkinli olacağam. Seçkidə belə şeylər ən demokratik ölkələrdə də olur. Buna öyrəşmək lazımdır. Hələ ki bizim vərdişlərimiz azdır. İntəhası yavaş-yavaş olacaq.

***- Həm də 4 ildən sonra yeni başqan seçiləcək?***

- Bəli, onda da yeni başqan seçiləcək.

***- Qubad bəyin tərəfdarları ilə görüşündə siz də iştirak etdiniz. Toplantının ardınca konkret təkliflər verildi və Müsavatın yeni rəhbərliyinin "bizə heç kim vaxt qoya bilməz" cavabı oldu...***

- Elə emosiyalı şeylər olur. Amma nizamnamədə nəsə vaxtfason bir şey göstərilib. Mən o məqamı dəqiq bilmirəm. Bu fikir Qubad bəy tərəfdən nizamnaməyə uyğun olaraq deyilib. Yəni orda heç bir təzyiq və ya mənəmlik, ultimatum yoxdur. Hər halda, Qubad bəy mənə belə deyib.

***- Necə bilirsiniz, təklif olunan zaman çərçivəsində iddiaçı tərəfi razı salan araşdırmalar aparılacaqmı?***

- Mən hesab edirəm ki, aparılacaq. Orda komissiyada ləyaqətli adamlar tanıyıram. Mirbaba bəy kristal adamdır, digərləri seçilmiş, ləyaqətli insanlardır. Niyə də araşdırma aparılmasın? Aparılmasa, onda etiraz edərik.

***- Yeni Məclisin ilk iclasında iştirak etməməyinizin səbəbi nə idi?***

- Mənim fiziki gücüm yoxdur. Bu, bir etiraz əlaməti deyildi. Ondan əvvəl də çox gedib-gəlmirdim. Həm də ki, ortada şikayətlər var, onlara da baxsınlar. Hər dəfə ora getmək, oturmaq mənə fiziki cəhətdən ağırdır. Hərə bir söz deyir, başım şişir. Amma eyni zamanda araşdırmaların nəticələrini gözləyirəm.

***- 25 oktyabr Məclisinə necə, qatılacaqsınız?***

- Hələ onu bilmirəm. Bu, baxır mənim qan təzyiqimə, temperaturuma.

***- Sizdə də elə hallar olur?***

- Əlbəttə olur, mən daha qocalmışam.

***- Biz sizi daha gümrah, nikbin...***

- Bəli, mən nikbin qocayam. (gülüşmə)

***- Milli Şuranın siyasi məhbuslarla bağlı aksiyasında Müsavatın keçmiş və indiki başqanının tribunaya dəvət olunmaması fərqli yozumlara səbəb oldu. Siz bu səhnə ilə bağlı nə deyirdiniz?***

- Mən istərdim ki, İsa bəy də, Arif bəy də yuxarıda duraydı. Ancaq təşkilatçılar hansı protokolu qəbul ediblər, bunu bilmirəm. Bəlkə elan ediblər ki, bu, təkcə bizim mitinqimizdir, başqalarının yox. Ancaq tribunada bir olsaydılar, yaxşı olardı. Buna baxmayaraq, yenə də qaşınmayan yerdən qan çıxartmaq lazım deyil. Böyük bir şey olmayıb. Hələ qabaqda min dənə mitinq olacaq. Odur ki, dərhal bu məsələləri manşetə çıxartmağa ehtiyac görmürəm. Bir olun, barışığa gedin. Onsuz da 3-5 nəfər qalmışıq, biz də bir-birimizdən küsək, onda nə olacaq?

***- Aksiyanın gedişində İŞİD-in bayrağının qaldırılması, sizcə, nə idi?***

- Mən çox təəssüfləndim. O kimdir, onu araşdırdılarmı? Yəqin o, anormal adamdır. Əgər həqiqətən İŞİD-çi olsaydı, ora çıxmazdı. Çünki bilir ki, bu, təhlükəli məsələdir. Ya bu, hansısa qüvvələrin təxribatıdır, ya da bu adam özündə deyil.

***- Azərbaycanı təhdid edən məsələlər barədə nə deyə bilərsiniz? İndiki situasiyada çıxış yolunu nədə görürsünüz?***

- Vəziyyət xeyli qarışıb. Gündə ortaya bir təhlükəli qüvvə çıxır. Suriya ordan qarışıb, "əl-Qaidə" bu yandan. Sonra içindən "əl-Nüsrə" çıxdı. İndi də İŞİD baş kəsir, öldürür. Müsəlman aləmində, mentalitetində böyük bir böhran görürəm. Bilmirəm nədəndir, nə olub. Bəziləri başlayacaq ki, bunu masonlar edir, Qərb hazırlayıb. Yox, elə deyil. Nəsə çox təhlükəli bir proses gedir. Mən hər şeydə qlobal böhran görürəm - həm siyasətdə, həm insan haqlarında, həm mədəniyyətdə.



**"Rusiya 7 rayonu qaytaranda Dağlıq Qarabağ tamamilə əldən gedəcək..."**

***- Ermənistanın Avrasiya İttifaqına qoşulmasından sonra Azərbaycanın hansı qərar verəcəyini gözləyirsiniz?***

- Çox təhlükəli vəziyyət yaranıb. Bir, oturub düşünmək lazımdır. İkincisi, ictimaiyyətdə böyük diskussiya getməlidir ki, biz niyə təzədən Rusiyanın əsarətinə düşək? Rusiya dünənki gündür. Heç bir yolda Rusiya qabaqda deyil ki, biz onun dalınca düşək. Burda fikirlər yayılır ki, biz Avrasiya İttifaqına girsək, bizə 7 rayon verəcəklər. Amma Rusiya 7 rayonu qaytaranda konkret olaraq Dağlıq Qarabağ tamamilə əldən gedəcək, Xankəndi, Şuşa... Həmçinin ermənilər, ruslar tələb edəcək ki, orda sülhməramlı qüvvələr olsun. Təbii ki, o qüvvələr rusların olacaq. Putin o qədər əziyyət çəkəndən sonra avropalıları içəri buraxmayacaq ki. Deməli, 7 rayonu geri alsaq da, Qarabağ əbədi əldən gedə bilər. Götür-qoy etmək lazımdır. Əvəzində də dünyanın aparıcı inkişaf etmiş ölkələrindən, elmdən, mədəniyyətdən, siyasətdən özümüzü təcrid edirik. Gedib Belarusa, Qazaxıstana birləşirik. Bu, millətimiz üçün yoldurmu? Biz bunumu istəyirdik?

***- Adətən Qərbin Ukraynanı meydanda yalqız qoyması nümunə gətirilir. Hazırda Bakı ilə Qərb dairələri arasında konfliktli münasibətlər mövcuddur. Bu situasiyada Azərbaycanın harada yer alması itkilərdən sığortalanmağa aparar?***

- Mən ümummilli diskussiya təklif edirəm. Bu barədə qəzetlər yazsın, analitiklər danışsın, dəyirmi masalar keçirilsin. Hökumətlə müxalifətin analitikləri, ziyalıları, zəkalıları oturub danışsınlar. Millətin taleyini bu cür pərdəarxası həll etmək olmaz. İkincisi, bəlkə Ukrayna çox sərt davrandı, ona görə başına belə oyun açdılar. Biz yavaş-yavaş tərpənək. Ümumən bizə heç tərpənmək də lazım deyil, özümüz islahatlar keçirək. Bir də gərəcəyik ki, inkişaf etmiş ölkəyik, heç kimlə birləşməyimiz lazım deyil. Özümüz islahatlar aparmalıyıq. Digər tərəfdən, hələ bura NATO qüvvələrini çağırmaq çox tezdir. Görünür, bu, Rusiyanı qıcıqlandırır, ona görə də bizə təzyiq edir, Qərb isə heç bir kömək etmir. Ona görə də "tələsməyək" fikri ilə razıyam. Amma onda bu tərəfə - Belarus tərəfə də tələsməyin, Qarabağı verməyə də tələsməyin. İçəridə barışıq yaratmaq, islahatlar aparmaq lazımdır. Qapalı dəyirmi masalar keçirilsin, bir baxaq görək hökumət nə fikirləşir, nə edir. Mən çox narahatam. İndi biz Avrasiya İttifaqına girək-girməyək, 7 rayonu alıb Qarabağı verək-verməyək, bunları ciddi şəkildə müzakirə etməliyik. Rusiyanın təzyiqinə qarşı duruş gətirmək üçün əlbəttə ki, cəmiyyətdə barışıq və islahatlar lazımdır...

❑ **Elşad PAŞASOY**

# Görünən dağın dibindəki uçurum



**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru

**Həyəcan təbili çalındı. Ən azından dörd ölkə üçün. MDB-yə üzv ölkələrin son toplantısında artıq yeni qurumun - Avrasiya Birliyinin fəaliyyətə başlayacağı elan edildi. Belə bir birliyin yaradılması ilə bağlı Rusiya, Belorus və Qazaxıstan bir araya gələndə vəziyyət xeyli fərqli idi. Ən azından Rusiyanın üstünü bu qədər qatı qara bulud bürüməmişdi. İndi artıq hiss olunur ki, məhz bu birlikdə dominantlıq iddiasında olan Rusiya düşdüyü qaranlıqdan əl havasına yol axtarır...**

Əslində Ukrayna ilə dərinləşən ədavətin özək səbəbi elə bu birlik ideyası idi. Elə güman etmək olardı ki, indən sonra Putinin yenidən imperiya yaratmaq istəyi dalana dirənəcək. Amma o, yeni birliyin gələcəyinin dumana büründüyünü görsə də, geri çəkilmədi. O, elə təsəvvür yaratmaq istəyir ki, guya onun ölkəsinə yönələn sanksiyalar Rusiyanı seçdiyi yoldan geri döndərə bilməyəcək. Amma o da bəllidir ki, elə indidən yeni birliyə üzv olacaq ölkələr arasında Ukrayna ilə bağlı fikir ayrılığı var. Belorusun prezidenti Lukaşenko da, Qazaxıstan prezidenti Nazarbayev də fərli mövqedə olduqlarını gizlətməyiblər. Aydındır ki, heç kim Rusiyanın atdığı yanlış addımı bölüşmək, onunla birlikdə sanksiya yükünü çəkmək istəmir. Birlik fəaliyyətə başlamayıb, amma onun mövcudluğunu təhdid edən səbəblərin hamısı üzdədir...

Ukrayna ilə açıq ədavətə qədər Rusiya az da olsa, cəlbedici görünürdü. Məhz bu təcavüzdən sonra onun imici olduqca qatı rənglərə büründü. İndi bu ölkə təkcə Avropaya deyil, bütün dünyaya qarşı potensial təhlükə mənbəyidir. Faktiki olaraq ölkə sərt diktatura rejimi kimi idarə olunur. Bir nəfər hakim-mütləq, qalanlar isə ona baş əyən təbəələrdir. Ölkədə bütün sosial institutlar formal quruma çevriliblər - parlament də, məhkəmə-hüquq sistemi də Putinin tapşırıqlarını icra edirlər.

Demokratiyanı öz mövcudluqları yolunda ən böyük təhlükə sayan rejimlər də məhz qorxu içində Putinin irəli sürdüyü şərtlərə boyun əyirlər. Heç biri ağalıq etdiyi ölkənin başı üstündə daha böyük bir ağanın dayanmağını istəmir. Heç kim də Rusiyanın siyasi şıltaqlıqlarının nə vaxt bitəcəyini bilmir. Növbəti addımın necə olacağından da xəbərsizdirlər...

Biz elə bir dövrdə yaşayırıq ki, hər bir ölkədə siyasətin xarakterini iqtisadiyyat müəyyən edir. Ayrıca mövcud olan siyasət yoxdur və bu, boş, mənasız əyləncədir. Aydın məsələdir ki, Avrasiya Birliyi məkanında dominantlıq edən valyuta pus rublu olacaq. Məhz Rusiya qiymətdən düşən rublun da, ölkədəki inflyasiyanın da bir payını Belorusun və Qazaxıstanın çiyninə yükləmək niyyətindədir. Kim könüllü olaraq özünü bu ağır yükün altına verəcək?

İndi dünya həyəcanla izləyir ki, Avrasiya Birliyi yeni imperiya yaratmağın başlanğıcı deyilmi? Birmənalı şəkildə demək olar ki, olsa-olsa, belə birlik yeni ziddiyyətlərin başlanğıc nöqtəsi olacaq. Rusiya indi o potensiala malik deyil. Bu 23 il ərzində dirçələn ölkələr də əldə etdikləri uğurlardan vaz keçməyəcəklər.

Nəhayət, Ermənistanın birlik üçün gərəkli olan şərtlərə malik olmadan yeni ittifaqa üzv qəbul edilməsi də xeyli suallar doğurur. Üzvlüyə qəbul olunandan sonra Ermənistan prezidenti də elə çox kədərli bir şəkildə bunu etiraf etdi, elə ilk addımdaca bu ölkələrdən kömək dilədi. Eyni birlikdə təmsil olunan ölkə hansı şərtlər əsasında fəaliyyət göstərən Gömrük İttifaqına üzv olacaq, vahid enerji şəbəkəsinə qoşulacaq. Kimsə onun hesabına bu binəva ölkənin yaşamasına razı olacaqmı?

Son aylar Rusiyanın hakim dairələri polis dəyənəyini arxasında gizlədib, üzləşdiyi ehtiyac labirintindən çıxmaq üçün yenidən süni bir gülüşlə döyüb-tapdadığı insanların qılığına girir. Daha bazarlarda tərəvəz məhsulları satanlar alçaldılıb, təhqir olunmurlar. Doğrudanmı rusların aşağıladığı insanlara münasibəti dəyişib, rus şovinizmi özü üçün yeni hədəflər müəyyən edib?

Əslində isə rus şovinizmi başqa səmtə - Ukraynaya yönəlib və usanmadan bu ölkənin üstünə istədiyi rəngi yaxır. Bizə qarşı isə qılıq siyasəti yürüdür. Azərbaycandakı rejim də təhlükədən yayınmaq üçün hər addımını ölçüb-biçir. Rusiyanın şərtləri qəbul edilməsə necə olacaq? Bütün hallarda Putin 2015-ci ilin yanvar ayının birini bir ultimatum kimi dönə-dönə dilə gətirib. Görünən dağın dibindəki uçurum bizə hansı aqibət vəd edir?

YENİ MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014



# Arıq bayraqdarın yaxalanması

**Samir SARI**

**Neçə vaxtdan bəri ölkədə ilk mitinq oldu, siyasi dustaqlara azadlıq tələb edildi, minlərlə şəkil çəkildi, yüz minlərlə söz danışıldı, hamısı bitdi, amma mitinqdə İŞİD bayrağı qaldırılması haqqında söhbət davam edir.**

Görəcək iş idi, o adam qaldırmaq istədiyi bayrağı doğru-dürüst açmamış cəbhəçilər tərəfindən danaboyun edilərək stadiondan çıxarılıb, polislərə təhvil verilib, amma hələ də "Müxalifətin mitinqində İŞİD bayrağı dalğalandırıldı" tipli başlıqlar qoyanlar, ciddi-ciddi bu olayı şərh edənlər var.

Məsələn, deputat Aydın Mirzəzadə bu hadisədən uzaq gedən (burdan təxminən Dəməşqə qədər) nəticələr çıxararaq deyib: "Milli Şuranın keçirdiyi mitinqdə AXCP fəalları tərəfindən "İraq-Şam İslam Dövləti" (İŞİD) terrorçu təşkilatının bayraqlarının qaldırılması onların çox şübhəli əlaqələrindən xəbər verir".

Anadolu türkləri belə yerdə adətən "vay bəəə" deyirlər, bu tərəflərin türkləri isə hiddətlərindən əvvəlcə nə deyəcəklərini bilmirlər, sonra cürbəcür qəzəbli cümlələr qururlar.

Amma iddiada məntiq çatışmazlığı göz önündədir. Əgər o "İŞİD bayraqdarı"nı və bayraqlarını meydana müxalifətçilər gətirmişdisə, nədən onu özləri tez-tələsik danaboyun edib stadiondan çıxarırdılar? Qoyardılar, adam heç olmasa beş-altı şəkil çəkdirərdi. İkincisi, adam cəbhəçiydisə, polis onu niyə bölməyə aparan kimi də azad edirdi, terror qruplaşmasının üzvü kimi torba tikib içəri basa bilməzdimi?

Çünki siyasi fəallları heç nə üstündə, quru-quru şər-böhtana salıb tutan hökumət, prinsipcə, belə bir fürsəti buraxmamalı idi, hətta onu axşam telekanallarda danışdırıb etiraf-zad almalıydı. Amma bunu etmədilər, Elman Türkoğlunun peşəsinə ortaq olmayan istəyən həvəskar bayraqdarı buraxdılar, o da gedib saytlara intervü verdi, dedi, guya bayrağı ona tanımadığı şəxs verib.

Ona görə də əlahəzrət məntiq deyir ki, başabəla bayraqdar təxribatçı olmağına təxribatçıdır, amma hökumətin göndərdiyi təxribatçıdır.

Müşahidə qabiliyyəti iti olan şəxslərdən biri deyir ki, o adam ştatda olan hal şahidlərindən biridir, işi-gücü onun-bunun üzünə durub işverənlik etməkdir.

Adamın narkotik maddə üstündə yatıb-çıxan, amma bir daha içəri düşmək istəməyən "barıqa"ya *(xırda çaplı narkotacir)* oxşadığını deyənlər də var.

Onun barəsində ən səviyyəli ifadə odur ki, adam hansısa tikintidə fəhlə işləyir, ondan artıq deyil.

Yenə saqqalı uzun, şalvarı gödək olsaydı, onu səmimi İŞİD-çi saymaq olardı.

Görünür, Milli Şuranın mitinqinə "İŞİD-çi bayraqdar" göndərilməsi ideyası son anda ağıla gəlib və lazımi profilaktik tədbirlər, hazırlıq işləri görə bilməyiblər. Məsələn, bir ay əvvəldən adamın saqqalını uzatmaq, şalvarını gödəltmək lazım idi ki, vətəndaş İŞİD-ə rəğbət bəsləyənlərə oxşasın.

Onda AzTV daha yaxşı reportajlar verə bilərdi. Yoxsa "bayraqdar" tutub aparan cəbhəçiləri göstərib deyirmiş, MTN-çilər İŞİD bayrağı qaldıran təxribatçını vaxtında zərərsizləşdirdilər. Gör ha, MTN-in zərərsizləşdirdiyi terrorçu-təxribatçı dünən az qala brifinq keçirirdi.

Bir də mitinqdə ciddi şəkildə qorxanlar olub. Bir nəfər yazmışdı ki, "İŞİD bayraqdarı"nın yaxalandığı vaxt hadisə yerinin yaxınlığında olub və eşidib ki, kimsə "onun əlindəkini alın" deyə qışqırır. Adamlar hesab ediblər ki, yəqin "bayraqdar"ın əlində qumbara, bomba var və indicə partladacaq. Ancaq məlum olub ki, söhbət onun əlindəki qara bayrağın alınmasından gedir.

Burdan da belə çıxır ki, bizim İŞİD-çimiz də, necə deyərlər, "kitayski"dir, üstündə bomba-filan gəzdirmir, siqaret və alışqandan başqa da bir şeyi yoxdur.

Beləcə, hökumət meydana arıq "bayraqdar" göndərməklə təkcə Milli Şuranın mitinqinə kölgə düşürmədi, həm də İŞİD-in məlum beynəlxalq reputasiyasına zərbə vurdu. İndi İŞİD-çilər məcburdur yeni başkəsmə videoları çəkib yaysınlar ki, öz qorxunc obrazlarını bərpa etsinlər və azərbaycanlı "İŞİD-çi"nin təpə-qapaz edilməsi kadrlarını görən region xalqları onları fağır hesab etməsinlər.

# Milli Şuranın mitinqi yeni qalmaqalın əsasını qoydu

## Müsavat və AXP rəhbərliyinə sayğısızlıq etirazlara səbəb oldu

**12 oktyabrda Milli Şura tərəfindən təşkil olunan və siyasi dustaqların müdafiəsinə həsr olunan "Azad et" mitinqində Müsavat Partiyasının rəhbərləri, sıravi üzvləri, həmçinin Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn də iştirak ediblər. Onlar Müsavat Partiyasının həbsdəki üzvlərinin portretlərini daşıyıblar. Əlamətdar haldır ki, Müsavat başqanı Arif Hacılı, sabiq başqan İsa Qəmbər də mitinqdə siyasi dustaqların portretlərini əllərində tutaraq, nümayiş etdiriblər.**

Lakin tribunada olan Milli Şura rəhbərləri zamanında ölkəyə rəhbərlik edən bu şəxsləri nəinki tribunaya dəvət etməyib, hətta mitinqçilər arasında olduqlarını belə çıxışlarında qeyd etməyiblər. Bu fakt cəmiyyətdə və adıçəkilən siyasi qüvvələr arasında kəskin tənqid olunub. Bəzi tanınmış müsavatçılar hətta mitinq təşkilatçılarının bu sayğısızlığını "siyasi tərbiyəsizlik" adlandırıb.

**Aksiyada iştirak edən Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn Milli Şuranın oktyabrın 12-də keçirdiyi mitinqə münasibət bildirərkən "Yeni Müsavat"a açıqlamasında dedi ki, aksiya uğurlu olub:** "Belə bir situasiyada çox ağır ittihamlarla həbs olunmuş şəxslərin müdafiəsi, onların azad olunması, repressiyalara son verilməsi tələblərinə dəstək olaraq xeyli insan aksiyaya gəldi. Bu baxımdan aksiyanı baş tutmuş hesab etmək olar".

**P.Hüseyn "Protokola görə ölkənin rəhbərləri olmuş tanınmış siyasi xadimlərin mitinqdə iştirakını görməzlikdən gəlmək doğrudurmu" sualını belə cavablandırdı:** "Bu, təşkilatçıların səlahiyyətində olan məsələdir. Əsas olan odur ki, tədbir alınıb. Qalan məsələlər təfərrüatlardır. Mitinqi necə aparmaq, kimlərə çıxış vermək, hansı şüarları səsləndirmək, kimlərinsə adını çəkib-çəkməmək təşkilatçıların hüququnda olan məsələdir. Şəxsən mən oraya nə çıxış eləmək, nə tribunada durmaq, nə də adımın çəkilməsi üçün yox, irəli sürülən tələblərə öz dəstəyimi ifadə etmək üçün getmişdim".

**"Müsavat Partiyası və AXP eyni tələb və şüarlarla mitinq keçirsə, Milli Şura rəhbərliyi mitinqə qatılsa, onların 12 oktyabr mitinqində sizlərə qarşı davranışını siz də onlara qarşı edəcəksinizmi" sualına P.Hüseyn belə cavab verdi:** "Bu artıq başqa mövzudur. Hər bir siyasi qüvvənin, siyasi liderin özünə xas ənənəsi var. Sizin dediyiniz aksiyalar güman edirəm ki, olacaq. O zaman suala da cavab alarsınız".

**AXP sədri Milli Şuranın mitinqində İŞİD bayrağının qaldırılmasına da münasibət bildirdi:** "Mən bunu birmənalı şəkildə hansısa məmurun istədadsız təxribatı hesab edirəm. Mediada həmin bayrağı qaldıran, saxlanılan və dərhal da azad edilən şəxsin izahatını oxudum. İnandırıcı görünmür".

**Müsavat Məclisinin sözügedən mitinqdə iştirak etmiş Məclis üzvü Alya Yaqublu isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, mitinqləri birlikdə də keçirmək olar, ayrı-ayrılıqda da. Təcrübə göstərir ki, bu, kəmiyyət fərqi yaratmır, hər mitinqə aşağı-yuxarı eyni sayda adam qatılır:** "Ona görə də bu tədbirləri ancaq keyfiyyət baxımından dəyərləndirmək olar - müxalifət öz mitinqlərində cəmiyyəti az-çox təsirləndirə biləcək şüarlar, tərəfdarlarının sayını artıra biləcək mesajlar səsləndirirmi?




Mən sonuncu mitinqi məhz bu baxımdan son dərəcə qüsurlu və hətta zərərli hesab eləyirəm. Milli Şura siyasi məhbuslara dəstək kimi önəmli bir məsələylə bağlı aksiya keçirir və o aksiyaya qatılan başqa siyasi təşkilatlara böyük sayğısızlıq nümayiş etdirir, onlarla orda heç yoxmuş kimi davranır. Bu, nəinki siyasətdən, hətta elementar etika qaydalarından uzaq bir davranışdır və bunun üzürü-izahı yoxdur. Müsavat Partiyasının mitinqə qatılmaqla bağlı qərarı yubandı deyə biz onların ora gəlməyini heçə saydıq deməK olarmı? Olmaz. Çünki İsa Qəmbər və Arif Hacılı da daxil, müsavatçılar, o cümlədən digər partiyaların nümayəndələri siyasi məhbuslara azadlıq tələb etmək üçün meydandadırlarsa, qərar-filan deyib bu dəstəkdən imtina eləmək seçicilərə söylənə biləcək arqument deyil. Sən seçiciyə deyə bilməzsən ki, mənə onların dəstəyi lazım deyildi, o gün mən özüm təşkil elədiyim mitinqin məhz mənim adıma yazılmasının dərdindəydim və ona görə də heç kimin adını çəkmədim, özümdən başqa heç kimi tribunaya qoymadım. Bu aksiyanın cəmiyyətə ötürdüyü mesaj budu. Çox qüsurlu və çox zərərli mesajdı. Düzü, bu qədər qaba və naşı siyasət nümunəsini mən ilk dəfəydi müşahidə eləyirdim. Ən yeni Azərbaycan tarixində siyasi korafəhimliyin ikinci belə biabırçı nümunəsi yoxdur".

**Tanınmış müstəqil jurnalist Seymur Verdizadə də Milli Şuranın sədri Cəmil Həsənlini və AXCP sədri Əli Kərimlini sözügedən davranışlarına görə tənqid edib:** "Milli Şuranın mitinqi daha çox uzun illər Azərbaycanın ən böyük müxalifət partiyasının rəhbəri olmuş sabiq Müsavat başqanı İsa Qəmbərə edilən hörmətsizliklə yadda qaldı. İsa Qəmbər və onu müşayiət edən partiya rəhbərliyi tribunanın cəmi beş addımlığında dayansalar da, Milli Şuranın sədri Cəmil Həsənli, AXCP lideri Əli Kərimli, o cümlədən mitinq iştirakçılarına yuxarıdan aşağı baxan digər natiqlər onları "görmədilər".

Məndə olan məlumata görə, Müsavat Partiyası mitinqin təşkilat komitəsinə qoşulmaq üçün Milli Şuranın rəhbərliyinə müraciət edib. Amma Cəmil Həsənli və Əli Kərimli buna razı olmayıblar. Bunun adı qısqanclıqdır. Siyasi məhbuslara azadlıq tələbi ilə keçirilən mitinqi bir partiyanın təbliğatına həsr etmək heç kimə başucalığı gətirmir. Çünki darda olan insanların adından istifadə edib, siyasi divident götürmək yaxşı əlamət deyil.

Aydın məsələdir ki, mitinqdə digər siyasi partiyaların təmsilçilərinin çıxış etməsinə Əli Kərimli imkan verməyib. Hətta Əli Kərimli razı olmayıb ki, mitinqin aparıcısı İsa Qəmbərin meydanda olduğunu dilə gətirsin. Başa düşürük, AXCP Müsavatla əvvəlki illərin haqq-hesabını "çürütmək" istəyir. Bəs Cəmil Həsənli? Cəmil bəy nədən öz qonaqlarına "xoş gəldin" eləmədi? Axı o, ev yiyəsidir. Bizim mentalitetimizdə qonağa bu cür hörmətsizlik varmı? Milli Şuranın rəhbərliyi Müsavat, KXCP, VHP və digər siyasi partiyaların üzvlərini bundan sonra mitinqlərə hansı üzlə çağıracaq? AXCP-nin adının ən azı 10 dəfə çəkildiyi bir meydanda digər siyasi partiyaların adlarının heç olmasa bir dəfə dilə gətirilməsi doğru olmazdımı? Hətta mən gözləyirdim ki, Cəmil Həsənli yenicə Müsavat başqanı seçilmiş Arif Hacılını təbrik edəcək. Ona görə yox ki, Cəmil Həsənli hakimiyyətin dəstəyi ilə deputat olanda Arif bəy türmədə çürüyürdü. Ona görə ki, siyasi mədəniyyət anlayışı bu cür davranmağı tələb edir. Bu davranışını ona yaraşdırmadım".

**YAP-çı deputat Aydın Mirzəzadə isə Milli Şuranın keçirdiyi mitinqə özünün facebook səhifəsində münasibət bildirib. A.Mirzəzadə yazıb ki, mitinq Azərbaycan radikal siyasi müxalifətinin iflasının daha bir göstəricisi oldu:** "Hər zaman böyük iddialarla çıxış edən, cəmiyyəti idarə etmək arzusunu daim önə çəkən "siyasətçilər" kiçik bir dəstə ilə sadəcə bir tədbir keçirməli oldular. Yəni bu tədbiri mitinq adlandırmaq qətiyyən olmazdı. Çıxışlarda şüarlar səsləndirilməsinə, bayraqların qaldırılmasına baxmayaraq, orada cəmi bir neçə yüz insanın toplanması on milyonluq ölkə üçün çox kiçik rəqəmdir.

Buradan belə bir təəssürat yaranır ki, onlarla siyasi partiyanın toplayacağı qüvvələr "Məhsul" stadionunun onda birini dolduracaq qədərdir. Həmçinin Azərbaycan müxalifətçiləri ümumən şəxsi texnologiyanı da mənimsəmədiklərinin fərqindədirlər. "Milli Şura"nın mitinqində nə təşkilatçılıq var idi, nə də bir sistemlilik nəzərə çarpırdı. Orada iştirak etməyən siyasi partiyaların bayraqlarının qaldırılması da, istənilən tədbirdə görünmək arzusundan başqa bir şey deyildi".

**YAP funksioneri aksiyada İŞİD bayraqlarının AXCP fəalları tərəfindən qaldırıldığını iddia edib:** "Ümumilikdə belə aksiyaların keçirilməsi Azərbaycanda radikal müxalifətin gücünü, vətəndaşların onlara inanmadığını, arxasınca getmədiyini və heç bir halda onlara dəstək olmayacağını ortaya qoyur. "Milli Şura"nın keçirdiyi mitinqdə AXCP fəalları tərəfindən "İraq Şam İslam Dövləti" (İŞİD) terrorçu təşkilatının bayraqlarının qaldırılması isə onların çox şübhəli əlaqələrindən xəbər verir".

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014

# Partiyada Bakı bələdiyyələrinə namizəd olacaq şəxslərlə görüş keçirilib




**Oktyabrın 11-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiya funksionerlərinin Bakı şəhər bələdiyyələrinə namizəd olacaq partiya fəalları ilə görüşü keçirilib. Görüşdə sədrin birinci müavini Ənvər Ağazadə, Ali Məclisin sədri Rəfail Tağızadə və İcra Aparatının rəhbəri Taleh Əliyev Seçki Məcəlləsi, partiyanın seçkilərə qatılmasının səbəbləri və əhəmiyyəti ilə bağlı məruzə ilə çıxış ediblər, seçkilərə hazırlığın vəziyyəti ilə maraqlanıblar, tədbir iştirakçılarının suallarını cavablandırıblar,**

Rayon şöbə sədrlərinin seçkilərə hazırlığın vəziyyəti ilə bağlı hesabatları dinlənilib.

Sonda partiya funksionerləri tədbir iştirakçılarına tapşırıq və tövsiyələrini veriblər.









# Ümid Partiyası Tovuzda konfrans və regional müşavirə keçirdi













**Oktyabrın 13-də Ümid Partiyasının Tovuz Rayon Şöbəsi növbəti konfransını keçirib. Konfransda Ümid Partiyası İcra Aparatının rəhbəri Taleh Əliyev və Təşkilat şöbəsinin müdiri Təbriz Dadaşov iştirak ediblər. Əvvəlcə Təşkilat komitəsinin hesabatı dinlənilib, təşkilati məsələyə baxılıb.**

Nağıyev Emin Şahvələd oğlu Tovuz Rayon Şöbəsinə sədr seçilib. Həmçinin NTK üzvləri seçilib və Nizamnaməyə uyğun olaraq 11 nəfər Məclis üzvləri təsdiqlənib. Konfransdan dərhal sonra Məclisi və Nəzarət Təftiş Komitəsi öz yığıncaqlarını keçirib və hər iki qurum özünə sədr seçib.

Həmin gün Tovuz Rayonunda partiya regional müşavirə də keçirib. Müşavirədə Gəncə, Samux, Daşkəsən, Şəmkir, Tovuz və Ağstafa rayon şöbə sədrləri iştirak ediblər. Bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti, qarşıda duran vəzifələr, Seçki Məcəlləsi və bir sıra digər məsələlər müzakirə olunub.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014

# Qara günün bayrağı



Zamin HACI
zaminhaci@gmail.com

**Bazar günü siyasi məhbuslara azadlıq tələbi mitinqində tanınmış jurnalistimiz, köhnə dostum Şahvələd Çobanoğlu ilə birgə dayanmışdıq. Qəfildən mitinq iştirakçıları kimisə tutub aparıb polisə təhvil verdilər. Soruşduq nə məsələdir, mitinqdəki yoldaşlar dedilər bu tip İŞİD-in - hazırda Yaxın Şərqdə bütün dünyanı terror eləməklə məşğul olan radikal qruplaşmanın bayrağını qaldırıbmış. Daha sonra bu hal bir-iki dəfə də təkrar olundu, yanılmıramsa müxalifətçilər azı 5 nəfər bu tip hərəkət cəhdinin qarşısını aldılar, o təxribatçıları aparıb polisə verdilər. Yəni aksiyaya bu yönlə qarışıqlıq və ləkə yaxmaq istəyən hakimiyyətin məqsədi əslində alınmadı - bayraq heç bir dəqiqə də meydanda görünmədi. Yalnız bir fotoda arıq, yetim şəxsin əlində o qara parça görünür, o da bunu bir neçə saniyəliyinə məhz mitinq sahəsindən qıraqda - polisin burnunun ucunda qaldırmışdı!**

İndi sizə yapistlərin bu karikatur "İŞİD" fəaliyyəti zamanı Şahvələd bəylə aramızda olan dialoqu yazım. Mən bəyə sual verdim: "Azərbaycan hakimiyyəti İŞİD-i terror təşkilatı kimi tanıyıbmı?" Çobanoğlunun cavabına ikimiz də ürəkdən güldük: "Bunlar dünyada heç kimi tanımırlar".

Doğrudan da bizim tragikomik bir "suverenlik, müstəqil siyasət" platformamız var, yapistlər ona minib respublika daxilində ora-bura gedirlər, ermənilərin işğal elədiyi hissəyə qədər lovğalanırlar, ona-buna xoruzlanırlar. Bayaq mən İŞİD plakatını hakimiyyətin təşkil elədiyini yazanda prinsipcə jurnalist etikasını pozdum, çünki bunu isbat edəcək birbaşa faktlarım yoxdur. Ancaq nəticələr göstərir ki, burda barmaq kimin barmağıdır. Ən azından, orda polisə təhvil verilən şəxslərin dərhal azadlığa buraxılması, şəhərdə sərbəst dolaşıb hələ jurnalistlərə qırmızı-qırmızı intervülər verməsi, yalan danışması bunda hakimiyyətin iştirakını sübut edir. Əks halda bir qorxunc terror təşkilatının təbliğatını aparan şəxsi niyə azad buraxıblar? Bəlkə onları elə Əl-Bağdadi (İŞİD şefi) göndərib? Bakıda bəlkə şəbəkələri var? Hüquq-mühafizə orqanları asayişin keşiyində belə dururlar?

Yeri gəlmişkən, hansısa terror təşkilatını, onun liderini Bakıda sərbəst reklam eləmək, təbliğatını aparmaq birinci hal sayılmaz. Dəfələrlə olub. Məsələn, PKK şefi Abdulla Öcalanın portretlərini bir zaman Bakıda fotostudiyada istehsal edirdilər.

İndi əksini düşünün. Dünya bir yana qalsın, elə Azərbaycanın özünə aid hansısa görkəmli tarixi şəxsiyyətin portretini, qurumun bayrağını ictimai yerlərdə qaldırmağa cəhd edin. İŞİD-ə söz deməyən polislər Rəsulzadənin şəkli çəkilən, "ADR" yazılan köynəklər geyindiklərinə görə dəfələrlə gənclərimizi döyüblər, 10-15 sutkalıq cəzalar veriblər.

Ən son bənzər hadisə Şəkidə olmuşdu. Keçən ay AXCP üzvləri orda hüquq müdafiəçisi Rəsul Cəfərovun həbsinə etiraz edərək əyinlərinə Cəfərovun şəkli olan köynək geyinib küçədə bir neçə dəqiqə dayanıb şəkil çəkdirmişdilər. Buna görə Şəki polisi görünməmiş qanunsuzluq elədi: həmin şəxslərin hamısına bir neçə sutkalıq cəzalar verdilər.

Müxalifətçilərin, AXCP üzvü olan gənclərin təxribatçıları dərhal zərərsizləşdirməsi də maraqlı detal idi. Bu həm də onun əlamətidir ki, Azərbaycan üçün hansısa xarici təhlükə olsa yenə öndə bu müxalifətçilər olacaq. Mitinqdə kiminsə zarafatla dediyi kimi, dünyanın bacarmadığı İŞİD-i bizim müxalifət iki dəqiqəyə "danaboyun elədi".

Ancaq zarafat öz yerində, hakimiyyətin bu qara İŞİD yumorunun pis alt qatı, ciddi tərəfi də var. Hesab eləsək ki, - hərçənd yuxarıda yazdım, mən buna inanmıram - bu bayraq aksiyasını doğrudan dini radikallar düzəldiblər, o zaman yapistlərin boğduğu, tapdaladığı, dustaq elədiyi sivil qurumların, Qərb dəyərlərinə söykənən media və QHT-lərin, siyasi partiyaların yerində kimlərin cücərdiyi artıq ortadadır. Özü də bunun "Məhsul" stadionunda ilk dəfə ortaya çıxması simvolikdir.

Buyurun, cənab yapistlər, əkib-becərdiyiniz məhsul İŞİD bayrağıdır. Üzünüz o bayraq kimi qara olsun...

# Abbas Abbasov nəqliyyat nazirini hara aparır?

# Məmmədovlar klanının susqunluğunun sensasion səbəbləri

## Ziya Məmmədov yolayrıcında; nazirin qardaşı biznesini Çeçenistana köçürür; onları Ramzan və Ramazanla birləşdirən nədir?

**Nəqliyyat naziri Ziya Məmmədov son günlər fəal deyil və efirdə də görünmür. Ötən ay ağır xəstələnməsi səbəbindən Türkiyədə müalicə aldığı barədə xəbərləri Nəqliyyat Nazirliyi rəsmən təkzib etsə də, həmin vaxt nazirin qardaş ölkədə olduğu aydınlaşdı. Qayıtdıqdan sonra da nazir yalnız bir dəfə prezidentin yanında görünüb.**



Qeyri-rəsmi məlumatlara görə, 9 ayın yekunları ilə bağlı prezidentin ötən həftə keçirdiyi müşavirədə nəqliyyat nazirinin də hesabatı dinlənilməliymiş. Lakin mənbəmizin iddiasına görə, hansısa səbəbdən nəqliyyat nazirinin çıxışı olmayıb. "Gələn il Bakıda keçiriləcək Avropa Yay Oyunlarına hazırlığın geniş müzakirə edildiyi tədbirdə maliyyə naziri, gənclər və idman naziri və ekologiya naziri çıxış etdi. Əslində burda əsas çıxışçı nəqliyyat naziri olmalı idi. Çünki bu cür mötəbər yarışın keçirilməsində, Bakının nəqliyyat infrastrukturunun yenilənməsində əsas ağırlıq Nəqliyyat Nazirliyinin üzərinə qoyulub. Amma hələ ki məlum olmayan səbəbdən Ziya Məmmədovun hesabatı təxirə salındı", - deyə, mənbə bildirib. **Qaynağımızın təkcə nazirin deyil, ümumiyyətlə, Məmmədovların son günlər müəmmalı şəkildə "kölgəyə çəkildiyinə" diqqət yetirir:** "Ziya Məmmədovla bərabər oğlu Anar Məmmədov da piar-fəaliyyətini dayandırıb. Nazirin deputat qardaşı da parlamentin ilk iclasında hakimiyyət üçün çox mühüm bir məsələdə - Avropa Parlamentinin Azərbaycanla bağlı *(oxu hakimiyyətlə)* sərt qərarının müzakirəsinə qoşulmadı. Məmmədovların müəmmalı susqunluğunun iki əsas səbəbi ola bilər. Birinci səbəb: Məmmədovlar hakimiyyətdən narazıdır və bu narazılığı bu cür "susaraq" ifadə edirlər. İkinci səbəb: Məmmədovları hakimiyyət susdurub".

Mənbəmizin hər iki iddiası düşünmək üçün daha ilginc mülahizələrə yol açır. Birinci səbəb barədə danışarkən qeyd edək ki, Məmmədovlar həqiqətən də son zamanlar hakimiyyətdən umduqları dəstəyi ala bilmirlər. Z.Məmmədov bir müddət bundan öncə qardaşı oğlunun adının jurnalistin döyülməsində hallanmasını onu istəməyən "müəyyən qüvvələrin" əməli kimi izah etmişdi. Nazir "müəyyən qüvvələr" dedikdə təbii ki, müxalifət qəzetlərini deyil, iqtidardakılara işarə etmişdi. Məmmədovların "həmin çətin günlərində" iqtidar həqiqətən də onları müdafiə etmədi. Yəni bu müdafiə KİV-lərdə görünmədi, əksinə, "Azərbaycan" qəzeti ad çəkməsə də, Bakıda nəqliyyatın vəziyyətinə dair məqalə dərc edərək Nəqliyyat Nazirliyini sərt tənqid etdi. Deputatlardan da yalnız bir-ikisi həmkarları Elton Məmmədovu ağızucu müdafiə etdi ki, bu da "selin qarşısında" gözə dəymədi. Anar Məmmədovun əsgərlərimizin cəbhədə şəhid olması günlərinə təsadüf edən Qubada qolf meydançasının açılışı da az qala onun əleyhinə kampaniyaya çevrildi...

Məmmədovlar qıcıqlarını iqtidarın beynəlxalq təzyiqlərə məruz qaldığı bir vaxtda ölkənin ən tirajlı müxalifət qəzeti olan "Yeni Müsavat"ın baş redaktoruna xüsusi ittiham qaydasında məhkəmə davası açmaqla da büruzə verdilər. Amma bu iddianın da geri qaytarılması Məmmədovların ən yüksək səviyyədə dəstəklərini itirməsini göstərdi. Burada artıq ikinci versiya ağırlıq qazanır. Yəni Məmmədovlara "susun" göstərişi gəlib...

***

İqtidara yaxın bir mənbə isə iddia edir ki, Məmmədovlar daxildə fəallıqlarını azaltsalar da, xaricdə işlərini etibarlı tutturlar. Məsələn, nazirin deputat qardaşı bir müddətdir ki, Çeçenistanda ciddi biznesə girişib və pullarını hörmətli Ziya müəllimin də razılığı ilə oraya yatırır. Doğrudur, bu xəbərlər yeni deyil. Məmmədovların Çeçenistan prezidenti Ramzan Kadırovla əlaqələri var və iddialara inansaq, bu dostluq onları Kremlə də çox yaxınlaşdırıb. Məlumdur ki, Kadırov Rusiya prezidenti Vladimir Putinə yaxın adamdır və ən əsası, ona birbaşa çıxışı var. Amma Məmmədovları Kreml rəhbərinə "tapşıran" təkcə Kadırov deyil. Qaynağımız deyir ki, bu işdə Dağıstan prezidenti Ramazan Abdulatipov da fəal köməkçidir. Abdulatipovun dövriyyəyə girməsinə isə Məmmədovlara hakimiyyətin inamını sarsıdan adam - sabiq vitse-primyer Abbas Abbasov vasitəçilik edib.

Məmmədovların son aylar Dağıstanda da bizneslərini genişləndirdikləri deyilir. Bakı Beynəlxalq Avtovağzalının qeyri-rəsmi sahibi olan E.Məmmədovun şəxsi sərnişin avtobusları Dağıstan sərhədində hətta xüsusi yoxlanılmır da...

Burada xüsusi məqam A.Abbasovla Məmmədovların bağlılığıdır. Deyilənlərə görə, iqtidar daxilində xeyli sıxışdırılan Z.Məmmədov "dışlandığını" hiss edərək A.Abbasovla daha da yaxınlaşıb. 2013 prezident seçkisi ərəfəsi Rusiyada "Milyarderlər İttifaqı" yaradaraq Azərbaycanda hətta hakimiyyətin dəyişə biləcəyini anons edən A.Abbasovla Z.Məmmədovun telefon danışıqlarının deşifrə olunması barədə xəbər mətbuatda yayılandan sonra nazir bu barədə heç bir açıqlama vermədi. Xəbəri A.Abbasov da təkzib etmədi. Xəbərlərin nə dərəcədə həqiqət olduğunu bilməsək də, Məmmədovların birdən-birə bu cür zəifləmişi, onlara inamın itməsi üçün ciddi səbəblər olmalıdır. Çünki prezident seçkisindən sonra baş nazirin dəyişdiriləcəyi halda bu posta ən iddialılardan biri olan Z.Məmmədovun ətrafında indi başqa proseslər cərəyan edir. Seçkidən keçən bir il müddətində nazir və ətrafı zəiflədilir. Amma Z.Məmmədov zəifləldilsə də, hələ ki vəzifəsini qoruyur.

"Niyə və nə zamanadək" sualı ətrafında da bir neçə versiya irəli sürmək olar. Məsələn, uzun illərdir nəqliyyat sektoruna rəhbərlik edən Məmmədovların vəzifədə qalması hakimiyyətdaxili dartışmada balansı qoruduğu üçün bir müddət də lazımlı ola bilər. Ya da Məmmədovlar tam zərərsizləşdirildikdən sonra onların hakimiyyətdən uzaqlaşdırılacağı mümkündür. Amma daha bir iddianı da gözardı etmək olmaz.

Ehtimal var ki, Məmmədovlar Abbas Abbasovun vasitəsilə Rusiya iqtidarında müəyyən mövqe qazanıblar və onlar Bakıdakı "Ağ ev"dən uzaqlaşaraq, Kremlə yaxınlaşıblar, bəlkə də qoruma altına alınıblar. Qərbin təhdidlərinin artdığı indiki həssas məqamda isə nəinki Məmmədovlar, heç Bakıya buraxılmayan "Kremlin adamı" A. Abbasovla da *(son vaxtlar onun adını iqtidar məmurları və onu hədəfə alan qəzetləri nədənsə, yada salmır)* haqq-hesab çəkmək hələ ki uyğun zaman deyil...

Amma nə vaxtadək?

❑ Analitik şöbə

# Minsk sammitinin pərdəarxası: Qarabağla bağlı sensasion açıqlamalar

## **Zəfər Quliyev:** "Azərbaycanı şirnikləndirmək istəyirlər ki, Avrasiya İqtisadi İttifaqına daxil olanda 7 rayonun qaytarılması məsələsi asanlaşa bilər"

## Məlumatlı mənbə: "Faktiki olaraq müstəqilliklə bağlı oyun artıq qırmızı xətlərin üstündə gedir"

**Ermənistanın Putinin "yeni SSRİ" layihəsi olan Avrasiya İttifaqına Dağlıq Qarabağsız qəbul edilməsi bəzi dairələrdə Azərbaycanın diplomatik uğuru kimi qəbul və təqdim olunur.**
**Hesab edilir ki, rəsmi Bakının sonadək prinsipial mövqe nümayiş etdirməsi və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bir neçə ay öncə Azərbaycanın torpaq bütünlüyünə sayğılı davranışı nəticəsində Sərkisyan Avrasiya İttifaqına işğal altında saxladığı Qarabağsız daxil ola bildi.**

Qeyd edək ki, prezident İlham Əliyev Belarusun paytaxtı Minsk şəhərində MDB Dövlət Başçıları Şurasının son iclasında iştirak və çıxış edərək postsovet ölkələri ilə əməkdaşlığın perspektivi barədə Azərbaycanın rəsmi mövqeyini bir daha iştirakçıların diqqətinə çatdırmışdı.

Rusiya İctimai Palatasının üzvü, Dövlət Dumasının keçmiş üzvü, **politoloq Sergey Markov** deyib ki, Ermənistan Avrasiya İttifaqına qoşulduqdan sonra Azərbaycan və Türkiyə tərəfindən düşdüyü blokadadan çıxmaq üçün 7 rayonu qaytarmalıdır. Onun fikrincə, proseslər fonunda tədricən böyük güzəştlər üçün rahat siyasi vəziyyət yaradılır: "Ermənistan Avrasiya layihələrinə qoşulur, bunun üçün ona blokadadan çıxmaq lazımdır". Rusiya Dövlət Dumasının deputatı, maliyyə bazarı üzrə komitənin sədr müavini, Rusiya Liberal-Demokrat Partiyasının parlament fraksiyasının üzvü Dmitri Savelyev isə bildirib ki, bir il ərzində Qarabağətrafı rayonlar, üç ilə isə Dağlıq Qarabağ azad olunmalıdır". ("Bakı xəbər" qəzeti).

Bu arada Rusiya-Azərbaycan münasibətlərində yeni mərhələ müşahidə olunur, qarşılıqlı səfərlər intensivləşib. Moskvadan Bakıya sonuncu səfər edən Rusiya müdafiə naziri Şoyqudur ki, onun gəlişi təsadüfə oxşamır.

**Politoloq Zəfər Quliyev Minsk sammitinin nəticələrinə fərqli yanaşmaların olduğunu təsdiqlədi:** "Əslində Ermənistanın Avrasiya İttifaqına daxil olması gözlənilməz addım deyildi. Ona görə də bunu hansısa bir əlavə müdaxilənin, Azərbaycanın mövqeyinin uğurlu nəticəsi saymaq düzgün deyil. Çünki əvvəlcədən bəlli idi və neçə vaxtdır müzakirə gedirdi ki, Ermənistanı heç vaxt Qarabağla birgə bura qəbul etmək mümkün deyil. Hətta sabah Ermənistan Avropa İttifaqına da daxil olmaq fikrinə düşsə, aydın məsələdir ki, ora da Qarabağsız, yəni BMT-də tanındığı sərhədləri ilə daxil olmalıdır. Ona görə də bu məsələdə Qarabağı spekulyasiya obyektinə çevirmək düzgün deyil. Bunu mən uğur saymazdım. Uğur o vaxt olardı ki, hansısa bir gözlənilməz nəticə əldə edilsin". **Z.Quliyev eyni zamanda bu mənzərənin Azərbaycan üçün nə verdiyi barədə suala da aydınlıq gətirməyin vacibliyini qeyd etdi:** "Deyək ki, Ermənistan Gömrük İttifaqına və Avrasiya İttifaqına daxil oldu. Elə fikirlər var ki, artıq Ermənistanla Qarabağ arasında gömrük münasibətləri qurulacaq, bu, Qarabağı "miatsum" ideyasından uzaqlaşdırır, Ermənistanın iddialarını azaldır, yəni Azərbaycanın xeyrinədir. Lakin məsələnin digər tərəfini nədənsə vurğulamırlar. Axı Qarabağ özünü "müstəqil" elan etsə də, dünyada suveren dövlət kimi tanınmayıb. Eyni zamanda Qarabağın özü ilə Ermənistan arasında "gömrük" nöqtələri olacaqsa - bunun formal, ya ciddi işləyəcəyi məsələnin ikinci tərəfidir - yenə də bu, tanınmayan "DQR"-in səviyyəsini, statusunu bir az da qaldırır. Bu baxımdan mən hesab etmirəm ki, vəziyyət Azərbaycanın xeyrinədir. 20 ildir Qarabağ separatçıları öz beynəlxalq statusunu genişləndirməyə çalışır və bu da növbəti bir addımıdır".

**Politoloq İrəvanın Avrasiya Birliyinə daxil olmasının Ermənistandakı rezonansına da diqqət çəkdi:** "Bu, bir tərəfdən Ermənistanın özündə ciddi bir narazılıqla qəbul olunur, ölkənin müstəqilliyinin itirilməsi istiqamətində növbəti addım sayılır. Onsuz da Ermənistan siyasi-iqtisadi cəhətdən Moskvadan asılı idi. Lakin bu addımdan sonra Ermənistan tamamilə müstəqilliyini itirir". **Ancaq Z.Quliyevin fikrincə, eyni zamanda Azərbaycan çox ciddi bir sınaq, seçim qarşısında qalır:** "Azərbaycana bu istiqamətdə təzyiqlər artır. Yenə də Qarabağ məsələsində spekulyasiya edərək açıq formada Azərbaycanı şirnikləndirmək istəyirlər ki, Avrasiya İqtisadi İttifaqına daxil olanda 7 rayonun qaytarılması məsələsi ola, münaqişənin həlli kifayət qədər asanlaşa bilər. Yəni bu iki ölkə artıq Avrasiya İttifaqı daxilində birbaşa Moskvanın arbitrajından asılı olacaqlar, Rusiyanı arbitr kimi qəbul edərək. Moskva da işarə edir ki, mən bu məsələni özüm həll edəcəyəm. Şirnikləndirici arqumentlər kifayət qədərdir. Lakin aydın məsələdir ki, Rusiya hansısa təhlükələr haqqında danışmır, gərək bu barədə biz danışaq. Əslində Azərbaycan bura daxil olandan sonra həm müstəqilliyini itirir, həm də Qarabağın, ümumilikdə ölkənin taleyini Moskvaya tapşırmış olur. Yaxın və uzaq keçmişimiz də göstərir ki, bu, bizim üçün hansı nəticələr verə bilər. Müstəqillikdən imtina və Moskvanın ssenarisi ilə hərəkət etmək rəsmi Bakının da maraqlarına da uyğun deyil. Çox təhlükəli və məsuliyyətli bir dövrdür. Yaxın aylarda bir çox məsələlər aydınlaşa bilər".

**Adının çəkilməsini istəməyən mənbə isə əməkdaşımıza hazırda maraqlı proseslərin getdiyini söylədi:** "Bu proseslərdən biri odur ki, Ermənistanda birdən-birə Rusiya sülhməramlılarının münaqişə bölgəsində yerləşdirilməsinə ciddi - o cümlədən rəsmi səviyyədə - etirazların olması barədə informasiyalar yayıldı. Çünki bu sülhməramlıların yerləşdirilməsindən öncə irəli sürülən təklif 7 rayonun azad olunmasıdır. Rusiya bu halda Azərbaycan Silahlı Qüvvələrinin Dağlıq Qarabağa müdaxilə imkanının qarşısının alınması və Dağlıq Qarabağın Ermənistanla əlaqəsinə qarantiya verməklə kifayətlənir. Eyni zamanda Azərbaycan rəsmi dairələri ilə Rusiya siyasətçilərinin apardığı müzakirələrin predmetinin də əsasən bundan ibarət olduğu bildirilir. Yəni 7 rayon azad olunursa, o halda Azərbaycan münaqişə bölgəsində Rusiya sülhməramlılarının yerləşdirilməsinə razılıq verir. İkinci, Ermənistan rəsmiləri tərəfindən irəli sürülən məsələ budur ki, onlar çox cidd-cəhdlə Minsk Qrupunun qorunub-saxlanılması və prosesin Minsk Qrupunun çərçivəsindən kənara çıxmasına qarşı çıxış etməyə başlayıb. O cümlədən Rusiyanın bu sahədəki təşəbbüslərini Minsk Qrupunun statusunun şübhə altına alınması kimi dəyərləndirirlər. Bu, son dövrdə baş verən maraqlı proseslərdəndir". **Mənbə xatırlatdı ki, Ermənistanda Rusiyanın ilhaqını açıq şəkildə qəbul edən qüvvələr da var:** "Bunların içərisində 1992-93-cü illər müharibəsində ciddi rol oynamış general Qriqoryanın - indi Rusiyada yaşayır, vaxtilə Ermənistan Silahlı Qüvvələrinin rəisi olub - bəyanatı xatırladılır. O demişdi ki, Ermənistanın müstəqilliyi mənasız bir şeydir, Rusiyaya birləşmək lazımdır. Son günlərdə Ermənistanda maraqlı bir tezis yayılmağa başlayıb. Belə çıxışlar edilməyə başlayıb ki, artıq Avrasiya İttifaqının yaranması ilə milli sərhədlər öz əhəmiyyətini itirib, ona görə də Qarabağın ya müstəqilliyi, ya Ermənistana birləşməsi məsələsi üzərində xüsusi olaraq dayanmağa və təkid etməyə bəlkə də ehtiyac qalmayacaq. Nəticədə çox maraqlı bir dəyişiklik baş verib. Bu vaxta qədər Avrointeqrasiya ilə bağlı olan qüvvələr Qarabağ məsələsində Sərkisyan hökumətindən daha radikal çıxışlar etməyə başlayıb". **Ekspert deyir ki, MDB-nin son sammitinin Azərbaycanın qələbəsi kimi dəyərləndirilməsini düzgün saymır:** "Bu, məlumatsız, avam kütlə üçün hesablanmış təbliğatdır. Aydındır ki, Ermənistanın Avrasiya İttifaqına qəbul olunması Rusiyanın təzyiqləri nəticəsində baş verdi. Azərbaycan mümkün qədər bu prosesi ləngitməyə çalışır. Əslində bəzi ümidlər də var idi ki, Ermənistan Avrasiya İttifaqına girərkən Qarabağ məsələsində güzəştə gedə bilər. Amma belə görünür ki, bu təzyiqlərin də bir limiti olub və nəticədə Putin Nazarbayev və Lukaşenkonu bu məsələdə geri çəkilməyə məcbur edib. Çox ciddi, təhlükəli bir mərhələ başlayıb. Xüsusən Azərbaycanda bəzi deputatların açıq-aydın Azərbaycanın müstəqilliyinə zidd olan bəyanatlar səsləndirməsi də çox narahatlıqla izlənilir. Faktiki olaraq müstəqilliklə bağlı oyun artıq qırmızı xətlərin üstündə gedir".

❑ **Cavid TURAN**





Sergey Şoyqu

# Rusiya və Azərbaycan ortaq hərbi qurum... yaradır

## Bu barədə müdafiə naziri Sergey Şoyqunun Bakı səfəri zamanı məlum olub; ölkə prezidenti səviyyəsində qəbul edilən qonaq ölkəmizə İŞİD təhlükəsindən danışıb, Azərbaycanı "strateji tərəfdaş" adlandırıb...

**Rusiya müdafiə naziri Sergey Şoyqu Bakıda səfərdədir. Dünən o, prezident İlham Əliyevlə və müdafiə naziri Zakir Həsənovla görüşərək danışıqlar aparıb.**

Azərbaycan prezidenti nazirlə görüş zamanı iki ölkə arasında əməkdaşlığın dinamik inkişaf etdiyini söyləyib. Ölkə başçısının sözlərinə görə, Azərbaycan və Rusiya arasında bütün səviyyələrdə əməkdaşlıq var və hərbi sahə də daxil olmaqla, əlaqələr dinamik inkişafdadır.

Öz növbəsində S.Şoyqu Azərbaycanla Rusiyanın müxtəlif sahələr üzrə əməkdaşlığının çox əhəmiyyətli olduğunu vurğulayıb: "İki ölkənin hərbi-texniki əməkdaşlığı, onun qiymətləndirilməsi, müasir silah satışı üzrə göstəricilərdə həqiqətən də dinamika mövcuddur və bu, gələcəkdə də davam etdiriləcək".

Virtualaz.org-un Rusiya qaynağına istinadən verdiyi xəbərə görə, səfərin yekunlarına əsasən Rusiya ilə Azərbaycan Xəzərdə kollektiv təhlükəsizlik sistemi formalaşdıracaq. Bu yeni strukturun elementlərindən biri Xəzəryanı ölkələrin hərbi-dəniz qüvvələrinin komandanlarının Şurası olacaq. Bildirilir ki, bu razılaşma Sergey Şoyqunun Bakıya səfərinin əsas yekunlarından biridir.

Müdafiə naziri Z.Həsənovla görüşdə Şoyqu Azərbaycanı Rusiyanın strateji tərəfdaş adlandırıb. "Bizim regional səviyyədə stabilliyin və təhlükəsizliyin təmin olunmasında birgə maraqlarımız az deyil. Hazırda Yaxın Şərqdə, İraq və Suriya ərazisində baş verənlər həm Azərbaycan, həm Rusiya üçün terror təhdidinə çevrilə bilər. Biz sıx əməkdaşlığa, Rusiya-Azərbaycan əməkdaşlığının inkişafı üçün birgə səyləri artırmağa hazırıq. Bunun üçün hüquqi baza artıq formalaşıb" - Şoyqu qeyd edib.

**Azərbaycan rəhbərliyi ilə danışıqları başa vurandan sonra jurnalistlərə danışan Şoyqu deyib ki, əsas nəticələrdən biri Xəzər dənizində birgə hərbi əməkdaşlıqdır.** "Bu məqsədlə biz Xəzərdə kollektiv təhlükəsizlik sistemi yaratmaq perspektivlərini müzakirə etdik, həmçinin birgə döyüş və əməliyyat hazırlığı tədbirləri haqda danışdıq. 2015-ci ildə Xəzərdə bir sıra birgə hərbi təlimlər nəzərdə tutulur", - deyə o bildirib.

Rusiya müdafiə nazirinin Bakı səfəri bir neçə aspektdən diqqət çəkir. Birincisi, səfər Rusiya-Qərb qarşıdurmasının getdikcə daha da dərinləşməsi və Yaxın Şərqdə cərəyan edən proseslər. Hər iki məsələdə rəsmi Moskva sırf öz maraqlarından çıxış edərək Qərbdən fərqli yanaşma sərgiləyir, Azərbaycan isə bu məsələlərdə neytrallıq saxlamağa çalışır. Eyni zamanda qardaş Türkiyənin yanında olacağını bəyan edir. Moskva isə Bakını öz siyasi-hərbi təsir zonasına, o sırada Avrasiya layihələrinə cəlb eləməyə çalışır.

Onu da əlavə edək ki, Şoyqunu ölkəmizə səfəri ilə eyni gündə Rusiya Ermənistanda geniş miqyaslı hərbi təlimlərə start verib. Oktyabrın 13-dən 19-na kimi Ermənistanda Rusiyanın cənub hərbi dairəsinin hərbi bazasına aid bütün hərbi hissələrin qatılacağı taktiki təlimlər başlayıb. Təlimlərdə 3 minə yaxın hərbi qulluqçunun, 500-ə yaxın hərbi və xüsusi texnika vahidinin və İrəvan yaxınlığındakı Erebuni məntəqəsində dislokasiya edilmiş Rusiya aviasiya birləşməsinə məxsus "MiQ-29" qırıcılarının iştirakı gözlənilir.

❑ **Siyasət şöbəsi**




# Müsavatdan istefa verən Əhliman Abbasın seçkidəki rəqibi danışdı

**Rüfət Hacıbəyli:** “Mən uduzdurulduğum təqdirdə belə, partiyadan getməmişəm...”

**Müsavat Gənclər Təşkilatının (MGT) sədri Əhliman Abbas istefa verib. Bu barədə, o, özünün facebook səhifəsində məlumat verib. Əhliman Abbas istefasına səbəb kimi, qurultaydan sonra partiya daxilində hegemonluğun baş alıb getdiyini, fəaliyyət göstərməyin mümkünsüz olduğunu göstərib.**

Qeyd edək ki, Əhliman Abbas 2013-cü ilin noyabrında Gənclər Təşkilatının sədri seçilib. Onun seçkilərdə alternativ vaxtilə təşkilatda sədr müavini, vicdan məhbusu, Müsavat başqanının müşaviri olmuş Rüfət Hacıbəyli idi. Uzun müddət narazılıqlarla yadda qalan seçki nəticəsində Ə.Abbas sədr seçilmişdi. Məhz bu seçkidən sonra onun rəhbərliyini qəbul etməyən gənclər ya təşkilatdan istefa vermiş, ya da çıxarılmışdılar.

**Rüfət Hacıbəylinin** keçmiş rəqibinin istefa qərarına münasibətini öyrəndik. Onun qənaətincə, istefa onun başqanlığa namizədliyini dəstəklədiyi şəxsin qalib gəlməməsi kontekstində baş verib: “Tam səbəbini bilmirəm. Amma subyektiv fikirlərim var. Bunları söyləmək qərəzli olduğum anlamına gələr. Bu baxımdan sözlərim özümdə qalsın. Mən Əhliman bəyə uduzmadım. Bu, o zaman qurultay kontekstində baş verən hadisələr idi. Cavid Hacıbəylinin qələbəsinin ləğv edilməsi, mənim uduzdurulmağım qurultayа hesablanmış addımlar idi. Hamı bilirdi ki, mən Tural Abbaslının yanındayam. Onu dəstəkləyirəm. Qurultaya hazırlaşan qüvvələr kardinal şəkildə hazırlaşırdılar. Biz isə təkləndik. Üzərimizə açıq şəkildə gəldilər. Nəticədə xoşagəlməyən müxtəlif hadisələr baş verdi”.

**Həmsöhbətimiz istefa verən MGT sədrinin bir ilə yaxın fəaliyyətinə qiymət bildirməyi düzgün saymadığını dedi:** “Onun bir illik fəaliyyətini ona səs verən tərəfdarları sosial şəbəkələrdə qiymətləndiriblər. Ən yaxşı fikirlər bunlardır. Düşünürəm ki, ona inanıb səs verən insanların verdikləri qiymətlə kifayətlənmək olar”.

**Rüfət Hacıbəyli uduzdurulduğu təqdirdə belə partiyadan istefa vermədiyinə diqqət yönəltdi:** “Bunu etməmişəm. Heç zaman da passiv olmamışam. Partiyanın Məclis üzvü, başqanın müşaviri olmuşam. İndi də qurultaydan sonra yenidən partiyanın Məclis üzvü seçilmişəm. Partiyamızın üzvləri hansı vəzifəni bizə münasib biliblərsə, şərəf bilmişik. Partiya rəhbərliyində belə istənilən vəzifəni sevə-sevə icra etməyə hazırıq. Sıravi üzvlüyü belə şərəf bilirik. Fəaliyyətim göz qabağındadır. İstər Azərbaycan cəmiyyəti, istərsə də partiya daxilində”.

**Hacıbəyli keçiriləcək MGT sədrliyinə seçkilərdə yenidən namizədliyinizi verib-verməyəcəyi məsələsinə belə cavab verdi:** “Biz gənclərin əksəriyyəti gənclər təşkilatının məktəbindən çıxmışıq. Təşkilatımıza daim öz doğma evimiz kimi baxmışıq. Son baş verən prosesləri ürək ağrısı ilə müşahidə edirəm. Mənə ağır təsir bağışladı. Çünki gənclər təşkilatının qurulması, gücləndirilməsində böyük əziyyətlər çəkmişik. Bununla belə, baş verən proseslərə biganə qalmaq istəmirik. İstər İsa bəy, istərsə də Arif bəylə məsləhətləşib birgə qərar verəcəyik”.

❑ Cavanşir ABBASLI

---

**Milli Şuranın “Məhsul” stadionunda keçirdiyi icazəli mitinqdə siyasi və vicdan məhbuslarına azadlıq şüarları ilə yanaşı Azərbaycan, Avropa Birliyinin və “İraq Şam İslam Dövləti”nin (İŞİD) terrorçu təşkilatının bayrağının qaldırılması ilə yadda qaldı. Mitinqdə terrorçu təşkilatının 4 bayrağı görünüb.**

# İŞİD bayrağı Azərbaycan müxalifətini ləkələdimi?

Osman Kazımov “İŞİD bayraqdarı”nın üzəduran olduğunu deyir; **Razi Nurullayev:** “Bu təxribat Azərbaycan hakimiyyətinin mahiyyətini göstərdi, müxalifətə isə ziyan vurmadı”

Mitinq öncəsi belə məlumatlar vardı ki, təxribat törədilməsi planlaşdırılır. Və bu oldu; İraqı qana bələyən İŞİD-çıların bayrağı qaldırıldı. AzadlıqRadiosunun mitinqdən hazırladığı videoreportajdan görünür ki, həmin bayrağı qaldıran şəxslərdən birini polis saxlasa da, bir neçə dəqiqə sonra elə stadionun qapısı önündəcə azad edir. Mitinqə qatılan və ümumilikdə 5 nəfər olan İŞİD bayraqdarlarından biri aznews.az-a danışıb. Adının Ramil, soyadının Quliyev olduğunu deyən həmin şəxs mitinqə dostunun dəvəti ilə gəldiyini bildirib: “Dostum mənə dedi ki, şəhərdə icazəli mitinq var. Mən onunla birgə mitinqə qatıldım. Stadionda durub mitinqi izləyən zaman tanımadığım bir şəxs mənə bir bayraq verdi və dedi ki, bunu dalğalandır. Mən heç nə başa düşmədim və bayrağı açanda üstümə hücum çəkildiyini gördüm. Bir neçə nəfər məni stadiondan kənarlaşdırdı. Daha sonra isə ərazidə olan polislər məni Yasamal Rayon Polis İdarəsinə apardı. Şəxsiyyət vəsiqəm üstümdə idi, "Samsung"da kreditim var, banka gedib pul ödəməliydim. Polislərə şəxsiyyət vəsiqəmi təqdim etdikdən sonra məni bölmədən buraxdılar".

**Tanınmış vəkil Osman Kazımov facebookda həmin 5 nəfərdən birinin “dejurnı şahid”lərdən olduğunu yazıb:** “Bu gün *(oktyabrın 12-də-E.M.)* mitinqə İŞİD bayrağını gətirən şəxsi hansı isə işdə hal şahidi kimi görmüşəm. O, üzədurandır”.


Osman Kazımov

“Milli Şuranın dünənki mitinqində bayraq haqqında detallar var, o bayraq necə istehsal olunub, necə yaranıb? Bütün bunlar hamısı ipucudur”.

Bunu hafta.az-a açıqlamasında Milli Şuranın mitinqində İŞİD bayrağının qaldırılmasına münasibət bildirərkən **Təhlükəsizlik Araşdırmaları Mərkəzinin (TAM) rəhbəri, Milli Təhlükəsizlik Nazirliyinin sabiq polkovniki İlham İsmayıl** deyib. TAM rəhbərinin sözlərinə görə, bu məsələyə hüquq-mühafizə orqanları tərəfindən təcili aydınlıq gətirilməlidir: “Bunlara aydınlıq gətirilməyənə, susqunluğa qədər təxribat kimi dəyərləndirilməlidir. Həm də medianın buna haqqı var”.

İlham İsmayıl İŞİD qruplaşması üzvlərinin paytaxtın mərkəzində rahat şəkildə bayraq qaldırmasının ölkənin ciddi milli təhlükəsizlik məsələsi olduğunu deyib.

**O bildirib ki, bu məsələnin üstünə o zaman düşmək olar ki, həmin şəxslər şübhəli şəxslər olsun:** “Çünki MTN yenicə 26 nəfəri İŞİD-lə əməkdaşlıqda şübhəli bilərək həbs edib. İndi birinci onu dəqiqləşdirmək lazımdır ki, bunlar həqiqətən də İŞİD-çilər idimi? Hər bayraq qaldıran İŞİD-çi olmur. Ondan sonra danışmaq olar ki, hüquq-mühafizə orqanları onun qarşısını ala bilər, ya yox”.

**TAM rəhbəri QAT-ın yaşlı qazilərindən birinin mitinqdə İŞİD bayrağının qaldırılmasının mediada işıqlandırılmasının guya milli təhlükəsizliyimizə zərbə olması ilə bağlı fikrinə də münasibət bildirib:** “Azərbaycan mətbuatı əlbəttə ki, bu xəbəri verməli idi. Çünki mətbuat elə bir şeydir ki, hər nə baş verirsə versin, dövlət sirri olmayan bir hadisəni mütləq ictimaiyyətə ötürməlidir. Dövlət sirri jurnalistlərin əlinə düşəndə də jurnalisti maraqlandırmır o dövlət sirridir, ya yox. Media müəyyən çərçivədə informasiya yaya bilər. Tutaq ki, Mətbuat Şurası deyirsə ki, filan hərbi hissə və s. haqda məsələlər ictimaiyyətdə xəbər mövzusu kimi işlənməməlidir. Bu başqa məsələ, çünki bu, dövlətin təhlükəsizlik sirridir. İŞİD bayrağının Bakıda hər hansısa bir mitinqdə qalxması ilə bağlı məsələyə mətbuat susa bilməz. QAT-dan səsləndirilən fikirlərə isə mətbuat yox, məsələni araşdıran hüquq-mühafizə orqanları cavab verməlidir”.

**AXCP sədrinin müavini Razi Nurullayev isə “Yeni Müsavat”a deyib ki, mitinqdə törədilən təxribat onu planlaşdıranlara qarşı çevrilib:** “O adamların fizionomiyası, yerişi, geyimi göstərir ki, bunlar bir neçə manat pul müqabilində tutulub ora gətirilən bədbəxt insanlardır. Bu təxribat heç bir halda müxalifətin ziyanına işləmədi, əksinə, göstərdi ki, Azərbaycanda müxalifətin fəaliyyəti üçün o qədər də elverişli şərait yoxdur. Bu təxribat Azərbaycan hakimiyyətinin mahiyyətini göstərdi, müxalifətə isə ziyan vurmadı”.

❑ E.MƏMMƏDƏLİYEV

---

# Yeddi rayonun əvəzində Avrasiya İttifaqına üzvlük?

**“Yeddi rayonun qaytarılması təklif kimi səslənir. Rusiyalı politoloqlar tərəfindən belə fikirlər eşidirik. Ancaq Kremldən ciddi şəkildə hər hansı şərt irəli sürülməyib. Bu yeddi rayonun hansı formada qaytarılması müzakirə predmeti ola bilər. Amma ilk növbədə detallar açıqlanmalıdır, konkret şərtlər irəli sürülməlidir ki, müzakirə aparılsın, birmənalı fikir söyləmək olsun. Hələlik Rusiyadan belə bir təklif olmayıb”.**

**Bu sözləri deputat - politoloq Rasim Musabəyov** “Yeni Müsavat”a son günlər işğal olunmuş yeddi rayonun Azərbaycana qaytarılması ilə bağlı məsələnin yenidən gündəmə gəlməsinə münasibət bildirərkən dedi. Politoloqun fikrincə, bu barədə əvvəlcədən bir söz demək çətindir:

“Bu, Rusiya tərəfindən bir şərt kimi qoyulsaydı, onu müzakirə etmək olardı. Bunun qarşılığında Azərbaycanın Avrasiya İttifaqına üzvlüyü şərt kimi qoyulmayıb. Azərbaycan iqtisadiyyatda Belarusu üstələyib. Ermənistan isə cılızdır.



**Rasim Musabəyov:** “Rusiyadan şirnikləndirici təklif ola bilər”



**Ərəstun Oruclu:** “Bu, alver predmetidir”

Onun Avrasiya İttifaqına qoşulması Rusiya üçün o qədər də mühüm hadisə deyil. Azərbaycan isə bu ittifaqa fayda verə bilər. Hərçənd ki, bizim bu ittifaqa qoşulmağımız özümüzə xeyir gətirməyəcək. Rusiya tərəfindən şirnikləndirici təklif kimi yeddi rayon məsələsi gündəmə gətirilə bilər. Amma reallaşacağını demək mümkün deyil".

**Politoloq Ərəstun Oruclu isə hafta.az-a açıqlamasında deyib ki, yeddi rayonun qaytarılması əslində alver predmetidir. Onun fikrincə, Rusiyanın rəsmi dairələri deyə bilmədiklərini politoloqlarına hər hansı bir yazı ilə söylədirlər:** “Təxminən 2-3 ay əvvəl ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş yeddi rayonun qaytarılması məsələsini gündəmə gətirdi. Sonradan Vaşinqton bunu Dövlət Departamenti səviyyəsində təsdiq etdi.

Ən yüngül formada desək, bu alver predmetidir. Yeddi rayonun qaytarılması, mübahisəli Dağlıq Qarabağ ərazilərinə sülhməramlı yerləşdirmək deməkdir. Həmçinin Rusiyanın niyyəti bu məsələni yenidən gündəmə gətirməklə, Azərbaycanı Gömrük İttifaqına aparmaqdır.

Bundan başqa, Kremlin yeddi rayonun qaytarılması israrışının arxasında Moskvanın Xəzərin Azərbaycan sektorunda möhkəmlənmək niyyəti dayanır. Düşünürəm ki, istənilən halda Azərbaycan bunların heç birini qəbul etməməlidir".

Xatırladaq ki, son bir həftə ərzində Rusiya mediasında ard-arda rus politoloqları təzliklə Azərbaycanın işğal altında olan yeddi rayonunun qaytarılması məsələsini gündəmə gətirib. Onlar bu məsələnin qarşılıqlı razılaşma əsasında mümkün olduğunu bildirib.

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev isə Azərbaycanın mövqeyinin birmənalı olduğunu bildirib:** “Azərbaycanın ərazi bütövlüyü heç bir halda danışıqlar mövzusu ola bilməz”.

❑ E.SALAMOĞLU

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014



# "Qarabağı qaytarmağın ən zəmanətli yolu..."

## Ukraynalı ekspert Bakıya ildırımsürətli plan təklif edir; "Azərbaycana heç kim kömək etməyəcək - nə ATƏT və BMT, nə də Avropa Birliyi və NATO, yalnız özü..."

**Bu ayın sonunda, oktyabrın 27-də Parisdə Fransa prezidenti Fransua Ollandın təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçiriləcək. Məlumatlara görə, Fransa və ABŞ səfirlikləri bu görüşün təşkili və məhsuldar olması üçün hazırlıq işlərini gücləndirib. ATƏT-in Minsk Qrupunun bu həftə bölgəyə planlaşdırılan səfərində də əsas məqsədin prezidentlər səviyyəsində təmasın uğurlu alınmasına hesablandığı bildirilir.**

Lakin analitiklər bu qəbildən hazırlıqların pozitiv nəticə verəcəyinə, Paris görüşünün əvvəlki nəticəsiz görüşlərdən fərqlənəcəyinə elə də inanmırlar. Belə təxminlərin isə əsasları ciddidir. Başlıca maneə ondan ibarətdir ki, münaqişə tərəfləri arasında hələ də minimal səviyyədə belə etimad atmosferi yaranmayıb və tərəflər məsələyə yanaşmada diametral ziddi mövqelərin daşıyıcısıdır.

İkinci mühüm faktor odur ki, konfliktin sülh yolu ilə həllinə görəvlənmiş Minsk Qrupu 20 ildən çox müddətdə Azərbaycan və Ermənistanın mövqeyini yaxınlaşdıracaq real fəaliyyətdə bulunmayıb. Bunun da başlıca səbəbi təbii ki, prosesə cəlb edilən qlobal güclərin - Rusiya və Qərbin regionda toqquşan maraqlarıdır.

Bu ziddiyyətlər qaldıqca, üstəlik, Rusiya-Qərb qarşıdurması ilə daha da dərinləşdikcə nə prezidentlər səviyyəsində, nə də ümumən Minsk Qrupu çərçivəsində görüş və təmaslardan, sülh danışıqlarından yaxın perspektivdə əhəmiyyətli dönüş gözləməyə dəymir.

***

Ukraynalı politoloq Mixail Qonçar da hazırkı formatda - Minsk Qrupu çərçivəsində nizamlama prosesinin nikbin perspektivini görmür *(vesti.az)*. Onun sözlərinə görə, buna sübut 20 ildən çoxdur aparılan və heç bir nəticəyə gətirməyən danışıqlardır: "**Ancaq konfliktin həll yolu var: bu da ondan ibarətdir ki, bütün işğal edilən ərazilərə status-kvo qaytarılmalıdır**".

Ancaq ekspert bunun Rusiyanın moderatorluğu ilə həyata keçəcəyini real saymır: "**Çünki Kreml bu problemin yoluna qoyulmasında maraqlı deyil. Əksinə, ixtilafın daha da uzanmasında maraqlıdır ki, həm Azərbaycanı, həm də Ermənistanı daha etibarlı şəkildə öz təsir zonasında saxlasın**".

Moskvanın Azərbaycanı Avrasiya layihələrində görmək istəyi və bu istəyin qarşılığında Bakıya hansısa Qarabağ güzəşti edə biləcəyinin mümkünlüyünə gəlincə, təhlilçi bu yöndə də nikbin görünmür: "**Tutaq ki, Azərbaycan Gömrük İttifaqının üzvü oldu. Nə verəcək bu ona? Heç nə. Rusiya Azərbaycana nəzarəti bir az da gücləndirmiş olacaq. Ermənistan üzərində isə Kremlin çoxdan total kontrolu mövcuddur. Ola bilsin, Moskvanın təzyiqi ilə İrəvan Azərbaycanın Dağlıq Qarabağa bitişik bir neçə düzən rayonu azad eləsin, ancaq "Laçın dəhlizi" Ermənistanın nəzarətində saxlanacaq**".




Bəs yaranmış vəziyyətdə Azərbaycanın problemi həll eləməsi baxımından hansı perspektiv görünür?

Politoloqa görə, variantlar bir neçə ola bilər: "**Birinci variant - hər şey olduğu kimi qalır *(Kipr məsələsi kimi)*. İkinci: Azərbaycan Dağlıq Qarabağı "unudur" və işğal altındakı digər ərazilərin qaytarılması ilə kifayətlənir. Üçüncü variant: Azərbaycan 1995-ci ilin avqustunda Xorvatiyanın keçirdiyi "Tufan" əməliyyatı kimi ildırımsürətli əməliyyat keçirib işğal edilmiş bütün əraziləri geri qaytarır. Sadəcə, məqamı düzgün seçmək lazımdır. Bir şey dəqiqdir ki, sizə heç kim kömək etməyəcək - nə ATƏT, nə BMT, nə Avropa Birliyi, nə də NATO. Heç kim. Yalnız özünüz özünüzə kömək ola bilərsiniz**".

Ekspert Azərbaycanın energetik əhəmiyyətinə də toxunub: "**Nəzərə almaq lazımdır ki, Rusiyaya Avropada Azərbaycan qazı lazım deyil, çünki o, Rusiya qazının rəqibidir. Rusiya isə Şərqdən Avropa Birliyinə qaz satışında monopoliyanı əldə saxlamaq istəyir. Moskvaya uğurlu və güclü Azərbaycan gərək deyil. Azərbaycan isə belə bir dövlətə çevrilməkdədir**".

Bu və digər səbəbdən analitik hesab edir ki, Azərbaycan gec-tez ya Rusiya tərəfindən *(Gömrük və ya Avrasiya ittifaqları, yaxud Kremlin düşünüb tapacağı hansısa başqa vasitə ilə)* "udulma obyekti" olacaq, ya da Rusiyanın birbaşa təcavüz obyektinə çevriləcək: "**Xüsusən də o vaxt ki, böyük həcmdə qaz satışından söhbət gedəcək**".

Politoloq habelə təhlükəsizlik məsələsində də Azərbaycana heç kimə qulaq asmamağı tövsiyə edir: "**Ukrayna nümunəsi bütün ciddiliyi ilə ortadadır. 1994-cü ildə biz aparıcı nüvə dövlətlərinin Ukraynaya təhlükəsizlik zəmanəti qarşılığında dünyada üçüncü nüvə dövləti olmaqdan imtina elədik. 20 il sonra isə əmin olduq ki, Rusiya, ABŞ və Böyük Britaniyanın verdikləri zəmanət qol çəkdikləri kağızın dəyərindən artıq dəyər daşımır. Bu "qarant" dövlətlərdən biri - Rusiya işğalçı oldu və beynəlxalq hüququn bütün normalarını ayaqaltı elədi, digərləri isə seyrçi mövqedə qaldılar. İndi biz sadə bir həqiqətin dərkinin dəhşətli bir bədəlini ödəyirik: yalnız özümüz öz təhlükəsizliyimizin qarantı ola bilərik**".

***

Ukraynalı analitikin bu xəbərdarlığında əlbəttə ki, ciddi həqiqət payı yatır. Demək, Rusiyanın Avrasiya layihələri çərçivəsində Azərbaycana verəcəyi Qarabağ vədlərini də - bu vədlər yazılı şəkildə olsa belə - 100 faizlik etibarlı saymaq olmaz, günün birində onlar da Ukraynaya verilən zəmanət kimi fiksiyaya çevrilər. Həmçinin də, Qərbin qarantiyalarına çox da arxayın olmağa dəymir. Unutmayaq ki, Qarabağ münaqişəsinin həllində ərazi bütövlüyü prinsipi ilə yanaşı, öz müqəddəratını təyinetmə hüququnu da ortaya atıb baza prinsipi kimi bizə təqdim etməyə çalışan ən birinci elə Qərbin özüdür.

Belə qeyr-müəyyən, sürüşkən perspektiv vəd edən vəziyyətdə Azərbaycan üçün ən etibarlı yol yenə də özünün iqtisadi-hərbi qüdrətini durmadan artırmaq, daxili siyasəti düzgün qurub dünyanın sayılıb-seçilən demokratik ölkələri sırasında qərar tutmaq ola bilərdi. Buna ölkəmizin və cəmiyyətimizin potensialı tam yetərlidir.

# "Erməni xalqı öz hakimiyyətinin apardığı siyasətin əsiridir"

**Rusiyalı deputat:** "Üç ilə Ermənistan Qarabağı və ətraf rayonları azad etməlidir..."



Dmitriy Savelyev

**"Bir il ərzində Qarabağətrafı rayonlar, üç ilə isə Dağlıq Qarabağ azad olunmalıdır". Bunu salamnews-un Moskva müxbirinə eksklüziv müsahibəsində Rusiya federasiyasının Dövlət Dumasının deputatı, maliyyə bazarı üzrə Komitənin sədr müavini, Rusiya Liberal-Demokrat Partiyasının parlament fraksiyasının üzvü Dmitriy Savelyev deyib.**

Münaqişənin tənzimlənməsinin perspektivlərinə dair sualı cavablandıran deputat həll prosesində Rusiyanın vasitəçiliyinin perspektivlərinə şübhə etmir: "Hesab edirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın rolu başqa cür olmalıdır. Mən əminəm ki, münaqişə Ermənistan xalqı üçün də sərfəli deyil. İstərdik ki, bir il ərzində Qarabağdan əlavə, Ermənistan tərəfindən zəbt edilmiş rayonların azad olunması məsələsi tənzimlənsin, üç ilə isə Dağlıq Qarabağ azad olunmalıdır. Erməni xalqı öz hakimiyyətinin apardığı siyasətin əsiridir. Nəticə etibarı ilə Ermənistanda biz nə görürük? Tam şəkildə səfalət. Orada həm mədəniyyət, həm də təhsil sahələrində problemlər mövcuddur. Azərbaycanın bütün sahələrdəki göstəriciləri hara, Ermənistanın hara. Çox böyük fərqdir. Axı hər şey iqtisadiyyat əsasında qurulur. Orada, əlbəttə ki, Sovet İttifaqı dövründə əsası qoyulmuş potensialın davamlılığının müəyyən ehtiyatı hələlik mövcuddur, lakin hər şeyin sonu var. Bu dəstəklənməsə, inkişaf etdirilməsə, hər şey baxımsızlığa düçar olacaq. Və hazırda Ermənistanda müşahidə olunan da budur".

**Deputat işğalçı ölkədəki səfalət və başqa sosial-iqtisadi problemlərə xüsusi toxunub:** "Baxın, Ermənistanda nə qədər erməni yaşayır, nə qədər erməni isə ölkəsindən kənarda? Onlar mahiyyətcə ayaqları ilə səs verirlər. Onlar kütləvi şəkildə oranı tərk edirlər. Orada hazırda vur-tut 2 milyona qədər əhali qalıb. İnsanlar bu ərazini tərk edir, hər şey deqradasiyaya uğrayır. Onlar üçün də bu, problemdir, onlara da bu münaqişəni həll etmək lazımdır. Və Azərbaycana, əlbəttə ki, ilk növbədə bu münaqişəni tənzimləmək zəruridir, bu ölkənin və xalqın ağrılı bir nöqtəsidir və prezident Əliyev görüşdə bəyan edib ki, məsələ həll olunmalıdır. Mən onunla tamamilə razıyam. Bu münaqişəni həqiqətən də həll etmək lazımdır, özü də ən qısa bir zamanda, onilliklərlə yox. Mən sülh yolu ilə nizamlama yoluna inanıram, çünki bilirəm ki, heç də hər şey müharibə ilə həll olunmur. Və bu mənada Rusiyanın rolu həlledici olmalıdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

## Səhiyyə Nazirliyi ana ölümlərinin qarşısının alınmasında israrlıdır




**Ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Səhiyyə nazirinin diqqət və nəzarətdə saxladığı bu sahəyə yönəlmiş daim bir sıra işlər görülür, müxtəlif layihələr həyata keçirilir.**

Səhiyyə Nazirliyi mətbuat xidmətinin məlumatına görə, belə addımlardan biri də səhiyyə naziri Oqtay Şirəliyevin iyun ayının 20-də Balakən rayonunda keçirdiyi qəbul zamanı olub. Belə ki, müraciət edən 5 aylıq hamilə, Qax rayon sakini Məmmədova Ülviyyə Çingiz qızı bugünlərdə həkimlərimizin tükənməz səyləri sayəsində yenidən dünyaya qayıdıb. Balakən rayonunda keçirilən qəbul zamanı nazirə müraciət etmiş xanım bildirib ki, İran İslam Respublikasında ona anadangəlmə kəskin ürək qüsuru olduğuna görə hamiləliyin ilk aylarından sonuna kimi xəstəxanada qalmağı məsləhət görüblər. Təklifin maddi imkanları xaricində olması, habelə psixoloji cəhətdən xarici ölkədə belə bir riskli doğuşun icra olunması təhlükəsi ilə üzləşən gənc ailənin son ümid yeri səhiyyə nazirinin qəbuluna gəlmək olub. Müraciətdən dərhal sonra nazirin xüsusi tapşırığına əsasən Ü.Məmmədova Respublika Perinatal Mərkəzinə yerləşdirilib. Hamiləliyinin son üç ayını Perinatal Mərkəzin və akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin kardioloqlarının ciddi nəzarəti altında saxlanılıb və oktyabrın 1-də qeysəriyyə əməliyyatına alınıb. Əməliyyat Respublika Perinatal Mərkəzin baş həkimi S. Məmmədova və akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin baş həkimi Y.Əliyevin başçılığı altında icra olunub. Əməliyyat uğurla sona yetirilib, hazırda xanım və yeni doğulmuş körpə tam sağlamdır.

Səhiyyə Nazirliyi Ülviyyə xanım kimi yüzlərlə ana olmaq arzusunda olan xanımlara yardım etməyə hazırdır. Lakin onlardan da tələb olunan məqamlar var ki, bu da onların vaxtında həkimə müraciət etmələri, daim həkim nəzarəti altında olmalarıdır.

## Masallıda etiraz aksiyası

### İskəndərli sakinlərinin yol dərdini eşidən yoxdur...




**Oktyabrın 13-də Masallının İskəndərli ərazisinin sakinləri İ.Zülalov adına orta məktəbin qarşısında etiraz aksiyası keçirib. Cenubnes-un məlumatına görə, 70-ə yaxın sakinin etirazına səbəb kanalizasiya və evlərə çəkilən su qovşaqlarından sonra yolların bərbad hala düşməsi olub.**

Narazı sakinlərin söylədiklərindən: "Dərdimizi kimə deyək, bilmirik. Bu işgəncə nə vaxtadək davam edəcək? İskəndərlinin mərkəzi yolu istisna olmaqla, heç bir küçəsində faktiki olaraq asfalt örtüyü yoxdur. Yağmurlu günlərdə göllənən yollar keçilməz olur, quraq vaxtlarda isə toz dumanı ərşə qalxır. Övladlarımız məktəbə gedib gələ bilmir. Evin önündən məktəbə qədər uşaqlar palçıq içində məktəbə gedirlər. Hər gün aldığımız geyimlər evə gələrkən palçıq olur. Ayda bir neçə dəfə ayaqqabı almaq məcburiyyətindəyik. Hər dəfə söz verirlər, iki maşın çınqıl tökürlər, vəssalam. Əgər yaxın günlərdə tələbimiz yerinə yetirilməsə, prezident İlham Əliyevə müraciət edəcəyik".

Bir qədər keçmiş kanalizasiya və su qovşaqlarına rəhbərlik edən şəxslər əraziyə baş çəkiblər. Öncə onlardan Xudayar Həsənov adlı nümayəndə əhaliyə hədə-qorxu gəlib. Yerli sakinlər etirazını bildirən zaman X. Həsənov onlara cavabında deyib ki, "gedin prezidentə yazmırsız, kimə yazırsız yazın. Təkcə siz deyilsiz ki, hər yer belədir".

Həsənovun bu sözləri əhalidə etiraz doğurub. Aradakı mübahisəni görən icra başçısının müavini Seymur Nuriyev sakinləri sakitləşdirməyə çalışaraq deyib ki, "narahat olmayın, təkcə bu ərazi deyil, rayonun Digah, Seybətin, Dadva və yeni salınan adsız yaşayış yerlərinin küçələri də eyni vəziyyətdədir".

Rəsmilər yolların yaxın zamanlarda düzəldiləcəyi barədə növbəti dəfə vəd verərək ərazidən uzaqlaşıblar. Narazı sakinlər isə əgər iki gün ərzində vəd tamama yetməsə, təzədən aksiyaya başlayacaqlarına söz veriblər.

❑ NURLAN

## Xaləddin İsgəndərov torpaqları yenidən köhnə sahibinə satır

### Binəqədinin icra başçısı xələflərinin dövründə satılan torpaqların təftişinə göstəriş verib; sabiq vergi işçisi olan yeni başçı iş adamlarından müxtəlif adlar altında xərac yığmaqla məşğuldur

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov əvvəlki icra başçılarının dövründə satılan torpaqların təftişinə göstəriş verib. Artıq həmin torpaqlarda məskunlaşan sakinlər və iş adamları üçün ciddi problemlər yaranıb; üstəlik, həmin torpaqlarda evlər və obyektlər tikilib.**

Ancaq X.İsgəndərov həmin torpaqların bir hissəsini geri almaq, bir hissəsini isə yenidən köhnə sahibinə satmaq niyyətindədir. Bu barədə "Yeni Müsavat"a Binəqədidə fəaliyyət göstərən iş adamlarından biri məlumat verib.

Mənbənin sözlərinə görə, X.İsgəndərov torpaqları yenidən köhnə sahibinə satmaqla yanaşı, yeni ev və ya obyekt tikməyə başlayanlardan da xərac toplayır. Bu barədə yuxarı instansiyalara saysız-hesabsız şikayətlər edilsə də, icra başçısı "xərac" yığımından nəinki əl çəkmir, əksinə, getdikcə "xəracların" səviyyəsi artır. Binəqədi rayon ərazisində istənilən tikinti işini görmək üçün konkret "məzənnə" müəyyənləşib. Təkcə hasarın çəkilməsi üçün 2000 manat pul tələb olunur. Evlərin tikilməsi üçün isə qiymətlər əraziyə uyğun olaraq dəyişir. Xocəhəsəndə bu qiymətlər 1000-1500 manat, Biləcəridə 1500-2000 manat, Rəsulzadə qəsəbəsində 2000-3000 manat civarındadır.

**Mənbə icra başçısının "xərac" yığanlarının adlarını da açıqlayıb:** "Xocahəsən, Sulutəpə ərazisində Mirpaşa, Rövşən və Çingiz, Biləcəridə Nicat, Rəsulzadə qəsəbəsində isə Rəfael adlı şəxslər "xərac" toplamaqla məşğuldur. Nicatın X.İsgəndərovun xalası oğlu olduğu bildirilir və bu şəxsin özbaşınalıqları artıq hədd tanımır. Adları çəkilən şəxslər X.İsgəndərovun adından açıq-aşkar "bazarlıq" edirlər. Vətəndaşların obyektlərini və evlərini sökən bu şəxslər açıq şəkildə bildirirlər ki, onlara bu tapşırıqları kimsə yox, birbaşa olaraq icra başçısı Xaləddin İsgəndərov özü verir. Açıq şəkildə onlardan pul tələb edən icra hakimiyyətinin nümayəndələri onların qarşısına şərt qoyur. Ya inşaat yarımçıq qalacaq, ya da tikilən evlər söküləcək".


Xaləddin İsgəndərov

**Mənbə onu da bildirir ki, rayonun iş adamlarından "xərac" yığılması artıq ənənə halını alıb:** "Rayon İcra hakimiyyətinin büdcəsi hesabına gerçəkləşməli olan layihələr faktiki olaraq "xəraclar" hesabına həyata keçirilir. Büdcə vəsaitləri isə silinib şəxsi ciblərə axır. Xərac yığımı ilə bağlı dəfələrlə iş adamları yuxarı instansiyalara, o cümlədən də Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət ediblər. Ancaq nəticəsi olmayıb. Sanki X.İsgəndərovun missiyası elə xərac yığmaq imiş".

Mənbənin iddiasına görə, X.İsgəndərovun "xərac" yığanları hər axşam Sumqayıt yolunun üstündə olan "Neapol" restoranına yığışır, başçıya hesabat verirlər. Bəzi məlumatlara görə, restoran elə X.İsgəndərova məxsusdur.

1962-ci il təvəllüdlü X.İsgəndərov Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu *(indiki İqtisad Universitetini)* bitirib. Qubadlı rayonu İstehlak Cəmiyyətində, Abşeron rayonu təsərrüfat hesablı univermaqda, Xızı rayonu İstehlak Cəmiyyətində, "Azər" təsərrüfat hesablı müəssisədə çalışıb.

2001-2003-cü illərdə Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin böyük referenti vəzifəsində, 2003-2012-ci illərdə Vergilər Nazirliyinin 11 saylı və 14 saylı Ərazi Vergi İdarələrində, Bakı Şəhəri Vergilər Departamentində, Vergilər Nazirliyi yanında Xüsusi rejimli Vergi Xidməti Departamentində müxtəlif rəhbər vəzifələrdə işləyib. 2012-ci ilin aprelində Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

X.İsgəndərov vergilər naziri, son vaxtlar hakim elitanın önəmli simalarından birinə çevrilmiş Fazil Məmmədovun yaxın qohumudur. Binəqədidə yığılan "xərac"ların vergilər nazirinin göstərişi ilə yığılması barədə də məlumatlar dolaşır.

❑ İqtisadiyyat şöbəsi

## Nəqliyyat nazirinin obyekti yanan həmkəndlisi yoxa çıxıb

### Ticarətçilər "Karvan"ın sahibi Ağamirzə Əhədovu axtarır

**Ötən həftə Sumqayıtda "Karvan" Ticarət Mərkəzində növbəti dəfə yanğın hadisəsi baş verdi. Bu, ticarət mərkəzində baş verən ilk yanğın deyildi, bir il öncə - oktyabrın 19-da ticarət mərkəzində güclü yanğın olmuşdu. Hadisə nəticəsində "Karvan"da icarəçi olan obyekt sahiblərinə küllü miqdarda ziyan dəymişdi.**

Bu dəfə baş verən yanğın isə ticarət mərkəzinin əks tərəfində qeydə alınıb. Burada daha çox ayaqqabı satılan mağazalara ziyan dəyib. Yanğın binanın aşağı hissəsində yerləşən "Garda" və "Ustop" mağazalarında başlayıb və 4-cü mərtəbəyədək yüksəlib. Hadisə zamanı 1 nəfər ölüb, 6 nəfər isə yaralanıb. Azvision.az-ın məlumatına görə, ikinci yanğın zamanı 15 sahibkara maddi ziyan dəyib. Bəziləri 50 min manata yaxın malının yandığını iddia edir. Ticarət mərkəzinə dəyən ziyanla bağlı hələ ki rəsmi məlumat açıqlanmayıb. Yanğından sonra ziyan çəkən şəxslər siyahıya alınıb. Onlara kompensasiya veriləcəyi bildirilib. Sahibkarlar isə bu vədlərə inanmadıqlarını deyirlər. Belə ki, "Karvan" Ticarət Mərkəzinin 19 oktyabr 2013-cü ildə yanan hissəsində maddi ziyan çəkənlərə heç bir kompensasiya ödənilməyib. Onlar yalnız 1 il müddətinə yer pulundan azad olunublar.




Bu dəfə necə, mağazası yananlara yardım ediləcəkmi?

Məsələ ilə bağlı Sumqayıt Şəhər İcra Hakimiyyətindən məlumat almaq istədik. İcra hakimiyyətindən bununla bağlı açıqlama vermək istəmədilər. Bildirilib ki, belə yanğın hallarında insanlara dəyən maddi ziyanı sığorta şirkətləri ödəyir. Amma bu ticarət mərkəzində çalışanların əksəriyyəti öz satdığı malları sığorta etməyib. Bu baxımdan onların ümidi buranın rəhbərliyinə qalır. Amma onlarında kiməsə yardım edəcəyini, yalnız ümid etmək olar.

Xatırladaq ki, növbəti dəfə yanan "Karvan" Ticarət Mərkəzi Ağamirzə Əhədova məxsusdur. Ucar rayonundan olan Ağamirzə Əhədov nəqliyyat naziri Ziya Məmmədovun həmkəndlisidir. Yayılan məlumatlara görə, iş adamı hadisə baş verəndən sonra ticarət mərkəzinə bir dəfə də olsa baş çəkməyib. Sahibkarlar onunla görüşmək istəsələr belə Ağamirzə Əhədovu gördüm deyən olmayıb. Hazırda onun harada olduğu dəqiq bilinmir.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014

**Azərbaycanda siyasi etika qaydalarına nadir hallarda əməl edilib. Normal ölkələrdə iqtidar-müxalifət münasibətləri insani ünsiyyətə heç zaman əngəl olmur. Bir-birilərinin siyasi düşüncələrini bölüşməyən siyasətçilər öz rəqiblərinin çətin və ya xoş günlərində bir-birilərinə dayaq olurlar. Yaxın qonşumuz Türkiyədə tribunalardan bir-birlərinə nifrət püskürən siyasilərdən kimsə xəstələnərsə, rəqibi mütləq ona baş çəkərək, "keçmiş olsun" deməyi özünə borc bilir.**

Azər RƏŞİDOĞLU



# Stadionda qoyulan "ölü nöqtə"

Vahid maraqlar naminə isə onların birlikdə olması bir normaya çevrilib. Türkiyədə sabiq prezidentlərə "hörmətli prezidentim" müraciəti indi də elementar etika qaydası kimi qəbul olunur. ABŞ və digər demokratik ölkələrdə də eyni tendensiya müşahidə edilməkdədir.

Azərbaycanda isə bunun tam əksi müşahidə edilməkdədir. Hakimiyyətdən devrilən simalar birmənalı şəkildə sürgün həyatı yaşamalı və yaxud həbsə girməli olur. Ən acınacaqlısı isə odur ki, eyni düşərgədə olan insanlar bir-birilərinə nifrət edirlər.

Bunun bariz nümunəsi 12 oktyabrda Milli Şuranın keçirdiyi mitinqdə yaşandı. Aksiyaya sıravi iştirakçı kimi qatılan Azərbaycan siyasətinin önəmli simaları - İsa Qəmbər, Arif Hacılı, Pənah Hüseyn və digərlərinin tribunaya dəvət edilməməsi, onların adının belə qeyd olunmaması heç bir etik normadan cavab vermirdi. Bu isə qıcıq yaratdı, nəticədə aksiyanın tələbləri unuduldu və ən çox müzakirə edilən elə bu hadisə oldu.

Bu hadisə müxalifətin qeyri-səmimiliyinin göstəricilərindən biridir.

Eyni elektorata malik və eyni hədəfləri olan təşkilatların biri-birilərinə nifrətinin, qəzəbinin səbəbini anlamaq xeyli çətindir. Kənardan belə bir təəssürat yaranır ki, müxalifət iqtidardan daha çox bir-biri ilə mübarizə aparır. Ən azı ictimai rəydə belə bir görüntü mövcuddur və bu son dərəcə zərərli tendensiyadan xəbər verir.

Bu gün özlərindən başqa hamını inkar edən, buna rəğmən birlikdən danışaraq müxalifəti parçalamaq planını həyata keçirən "ştatlı çuğulçular ordusu" son günlər daha sərt fəaliyyətə başlayıblar.

İqtidar mətbəxində hazırlanan reseptləri ictimai rəyə təlqin eləyənlər bunu görmək istəmirlər və yaxud şüurlu şəkildə ictimai rəyi çaşdırırlar.

Bir sözlə, köhnə tamaşalar yenidən aktuallıq kəsb etməyə başlayıb. Müxalifət yenidən parçalanır və hər şey yenidən "ölü nöqtə"yə qayıdır. Müxalifət bu dərəcədə tragikomik mənzərə yaşamaq istəmirsə, düşərgə daxili savaşa son qoymalıdır.

Eyni sosial bazaya və elektorata, eyni siyasi məfkurəyə malik insanların 12 oktyabrda yaşadıqları müxalifət düşərgəsinə növbəti zərbəsini vurdu. Bu hadisədə hakimiyyətin "arxa baxça"dan uzadılan əlin işarəsi açıq-aydın sezilirdi.

Mövcud siyasi müstəvidə olan liderlər bir-birləri ilə əməkdaşlıqda maraqlı olmalıdırlar. Yaxın zaman ərzində, Azərbaycanda sosial baza, maliyyə vasitələrinin məhdudluğu, supergüclərin neqativ münasibətinə görə nə qatı millətçi, nə də ki radikal dinçi liderin yetişəcəyi proqnozlaşdırılmır.

Ölkənin, bölgənin düzənini, dəngələrini dəyişə biləcək liderlərin formalaşması uzun prosesdir və yerli, xarici təzyiqlər, hazırkı reallıq hələ ki buna imkan vermir.

Lakin bütün bunlara baxmayaraq, 12 oktyabr mitinqi də sübut etdi ki, müxalifətin "təzə qana" ehtiyacı var. Yeni, daha intellektual simaların, yüksək təhsilli gənclərin partiyaların yerli və mərkəzi strukturlarına gətirilməsi son dərəcə mühümdür.

Savadlı, rabitə texnologiyalarını gözəl bilən, dünyadakı prosesləri təhlil edən gənclərə "yaşıl işıq" yandırmağın zamanı çatıb.

Bu gün Azərbaycanda yüz minlərlə, milyonlarla insan var ki, tamamilə fərqli düşünür, nə iqtidarın, nə müxalifətin, nə də ki özünü yeni siyasi qüvvə kimi təqdim etmək istəyən gənclərin fikirlərini bölüşmür və onları müdafiə etmir.

Liderlərin bütləşdirilməsi, onların dediklərinin doqmalar kimi qəbul edilməsi, dürüstlük dərəcəsinin aşağı olması qapalı dairədən kənarda qalan milyonlarla insana hakim elita ilə əks elita arasında heç bir fərqin olmadığı fikrini aşılayır. 12 oktyabr mitinqində öz müxalifətçi silahdaşlarını aşağılayanlar bunu əyani şəkildə sübuta yetirdilər...

# İŞİD-in internet xətası ona baha başa gəldi

## Türkiyə hərbi bazaları İŞİD-ə qarşı savaş açdı - ABŞ məmnundur; ABŞ hökuməti isə deyir ki, Türkiyədən quru əməliyyatları keçirməyi tələb etməyib; Kürdlər Türkiyə hökumətindən silah yardımları alıblar, amma...

**Türkiyə hökuməti ölkə ərazisindəki bəzi hərbi bazalardan İŞİD-ə qarşı istifadə olunmasına icazə verib. Yerli mətbuatın yazdığına görə, bu barədə ABŞ Müdafiə Nazirliyinin bəzi rəsmiləri "Associated Press" xəbər agentliyinin əməkdaşına bildiriblər. Bazalardan birinin "İncirlik" olduğu qeyd edilsə də, digərlərinin adları açıqlanmır.**



Qeyd edək ki, bir neçə gün əvvəl ABŞ müdafiə naziri bildirmişdi ki, "İncirlik"dən istifadəyə icazə verilsə bu, koalisiya gücləri üçün böyük dəstək ola bilər. Bu arada Misirdə səfərdə olan ABŞ dövlət katibi Con Kerri Kobanidəki olaylardan narahat olduqlarını, eyni zamanda beynəlxalq koalisiyanın toparlana bilməsi üçün müəyyən zamana ehtiyacın olduğunu qeyd edib.

Bazar günü davam edən döyüşlər zamanı Kobanidə 25 İŞİD döyüşçüsü öldürülüb. İraqın Ənbar vilayətində davam edən şiddətli döyüşlərdə və bombardmanlarda 115 nəfər öldürülüb. Ənbar vilayətində baş verən terror aktı zamanı 60 nəfər dünyasını dəyişib. Oktyabrın 13-də günorta saatlarında "Reuters" Agentliyi İŞİD-in Kobaninin 2 kilometr şimalında bomba yüklü avtomobilin partlatdığı haqda xəbər yayıb. Məlumatı yerli kürd rəsmiləri də təsdiqləyib. Tələfat haqda məlumat verilmir.

### Kürdlər Türkiyə hökumətindən narazı qalıb

Bu günə qədər müəyyən məqamlarda səssizliyini qoruyub saxlayan İraq regional kürd administrasiyasının rəhbəri Məsud Bərzani ərəb mediasına müsahibəsində deyib ki, İŞİD-in hücumları zamanı Şimali İraqa yardım edilməsi mövzusunda Türkiyə hökumətinin təmkinli davrandığını müşahidə ediblər. "Türkiyədən daha güclü bir mövqe gözləyirdik. Ancaq Türkiyə daha qəti və kəskin qərar vermək mövzusunda təmkinli idi", - deyə Bərzani qeyd edib.

Bərzani həmin vaxt 46 Türkiyə diplomatının İŞİD-in girovluğunda olması faktını qəbul etdiklərini etiraf etsə də, Ankaradan daha qətiyyətli olmasını gözlədiklərini deyib. Bərzani Kobaniyə hərbi yardım edilməsi üçün əsas yolun Türkiyə olduğunu deyib.

Lakin eyni zamanda Bərzani Türkiyədən silah yardımı aldıqlarını, ancaq Ankaranın tövsiyəsi ilə bunu açıqlamadıqlarını deyib. Sitat: **"Doğruları demək lazımdır. İŞİD-in hücumuna məruz qalanda birinci gecə iranlılar bizə iki təyyarə dolu silah yolladılar. Bu, o an üçün böyük yardım idi. Daha sonra başqa dövlətlərdən də silah yardımları gəldi. Amma ilk gələn silah yardımı İrandan oldu. Türkiyədən də gözləyirdik, Türkiyə daha sonra göndərdi, amma daxili siyasi səbəblərdən bizdən bunu açıqlamamamağımızı istədilər. O zaman prezident seçkiləri idi və İŞİD-in əlində türk girovlar vardı".**

### İŞİD-n xətası

Artıq 1 aya yaxındır sərhəd şəhəri Kobaniyə hücum edən İŞİD qüvvələri bazar günü şəhərin 30 faizinə qədərini işğal edib. Ancaq İŞİD-in daha da irəliləməsinin qarşısını koalisiya aviasiyası alıb. Hətta bundan sonra toparlanan kürd yaraqlıları İŞİD mövqelərinə hücuma keçiblər. Bu isə son həftələrdə ilk hadisədir. Türkiyə mətbuatı isə İŞİD-in ağır zərbə almasının ilginc səbəbini yazıb.

Belə ki, İŞİD qüvvələri şənbə günü böyük irəliləyiş edərək Kobaninin 30 faizini ələ keçirib, hətta şəhər məhkəməsi və polis binasını tutublar. Daha sonra isə İŞİD mediası Kobanidə ələ keçirdikləri nöqtələrin xəritəsini və son fotoları internetə yerləşdirib. Bu isə ABŞ hava qüvvələri üçün əsl "bələdçi" rolunu oynayıb. Bundan sonra Kobanidəki İŞİD-in əlində olan bölgələrə bu günə qədər görünməmiş ağır bombardman həyata keçirilib. Səhər saatlarında həyata keçirilən bombardman nəticəsində İŞİD-in ələ keçirdiyi 4 nöqtə tamamilə dağıdılıb. Bundan sonra kürd yaraqlıları İŞİD-ə hücuma keçiblər. Həm bombardmanlar, həm də kürdlərin hücumundan sonra İŞİD-in böyük sayda itkilər verdiyi haqda xəbərlər gəlib.

Bundan başqa, koalisiya gücləri Suriyanın Rəkka və İraqın Hit bölgəsində İŞİD-in bir sıra mövqelərini, hərbi maşınlarını vurub. Ənbar vilayətinin Ramadi şəhərində isə qırıcılar İŞİD-in silahlı döyüşçülərini daşıyan avtomobili məhv edilib. O da məlum olub ki, Suriya ərazisindəki hava zərbələrini ABŞ ordusu ilə yanaşı Səudiyyə Ərəbistanı və BƏƏ hərbi təyyarələri, İraqda isə yenə ABŞ və Britaniya təyyarələri həyata keçirib.

### ABŞ: Türkiyənin Suriyaya ordu göndərməsini istəməmişik

Amerika prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Süzan Rays isə bildirib ki, Vaşinqton Suriyaya quru qoşunları göndərməsini Türkiyədən tələb etməyib. Eyni zamanda o, İraq hökumətinin də bölgəyə əsgər göndərilməsini istəmədiyini qeyd edib: **"Bu bir kampaniya deyil, Amerika hərbçilərinin bölgədə döyüşməsindən bir mənfəətimiz yoxdur. İraq baş naziri də açıq şəkildə bildirdi ki, Amerika əsgərlərinin İraqda döyüşməsini istəmirlər".**

Rays eyni zamanda təsdiqləyib ki, Ankara ölkə ərazisindəki bazalardan İŞİD-ə qarşı istifadəyə razılıq verib.

❑ Kənan RÖVŞƏNOĞLU

# Azərbaycan Ermənistanı nədə üstələdi?

Hüseynbala SƏLİMOV



**Siyasət özəlliyini yenə də büruzə verdi. Siyasətdə nəyin və nə vaxt baş verəcəyini irəlidən demək olduqca çətindir. Bir günün içində məlum oldu ki, digər iki Qafqaz ölkəsindən bütün parametrlər üzrə geridə olan Ermənistan ən azı bir parametrə görə irəlidədir - bu ölkənin müxalifəti lazım olanda on minlərlə insanı meydanlara çıxara bilir.**

Sonuncu etiraz aksiyasına gəldikdə, bu, həqiqətən də möhtəşəm tədbir idi.

Ermənistanın Avrasiya İqtisadi Birliyinə qəbul edilməsi ilə eyni vaxta təsadüf edən aksiyada hətta "Çiçəklənən Ermənistan" partiyasının liderinin prezidentliyə namizədliyini elə aksiyanın gedişində irəli sürəcəyi gözlənilirdi.

Bəs nədən son aylarda nisbi siyasi sakitlik içində bulunan Ermənistanda birdən-birə belə böyük etiraz dalğası başladı?

Etirazlar ölkənin Avrasiya İqtisadi Birliyinə qəbul edilməsindən sonra başlaması onları elə bu hadisə ilə bağlamağa təhrik edir, hərçənd ki, elə digər səbəblər də az deyil - ölkə dərin iqtisadi böhran içindədir, güzəran ağırdır, hakimiyyət ölkəni az qala yarımilitarist qaydalarla idarə edir...

Etirazçılar Avrasiya Birliyinə qəbula, özü də adi qəbula deyil, bir növ aşağılayıcı şərtlərlə qəbula etiraz etdilər. Avrasiya İqtisadi Birliyinin təsisçisi olan üç ölkə - Rusiya, Qazaxıstan və Belarus Ermənistanın da bu Birliyə həmin statusla qəbul olmasına imkan vermədilər.

Üstəlik, Qazaxıstan prezidentinin təkidi ilə Ermənistan Birliyə Dağlıq Qarabağsız qəbul olundu. Görünür, etirazçıları ən çox qeyzləndirən də elə bu amillərdir...

Ermənistanın Avrasiya İqtisadi Birliyinin təsisçilərinin heç biri ilə sərhədi yoxdur. Üstəlik, digər iki ölkə - Qazaxıstan və Belarusla onun iqtisadi əlaqələri minimum səviyyədədir. Ona görə də sonuncu iki ölkə Ermənistanın Birliyə daxil olmasına bir o qədər də önəm vermir...

Burada bir amili - Azərbaycanın da rolunu qeyd etmək lazımdır. Etiraf etmək gərəkir ki, Azərbaycan MDB liderləri ilə çox möhkəm, mükəmməl əlaqələr və etimad bazisi qura biliblər.

Belarus və Qazaxıstan prezidentləri Azərbaycana çox müsbət yanaşır. Xüsusən də Belarus prezidentini qeyd etmək lazım gəlir. Belarus prezidenti dəfələrlə Azərbaycanı minnətdarlıqla qeyd edib və bildirib ki, Azərbaycan heç vaxt onun ölkəsini darda qoymayıb...

Bu mənada Azərbaycan diplomatiyasının işinə önəm vermək lazım gəlir. Baxmayaraq ki, bu ölkə MDB ilə dərin inteqrasiyaya meylli deyil. Sammitin gedişində Azərbaycan prezidenti onun ölkəsi üçün ikitərəfli əlaqələrin daha çox önəm kəsb etdiyini dedi...

İlham Əliyev sammitdə həm də onu dedi ki, MDB-nin potensialı hələ tükənməyib. Diplomatik leksikada buna mədəni şəkildə "yox" deyirlər. Məsələ bundadır ki, bununla Azərbaycan Rusiyanın MDB-ni daha "effektiv" bir qurumla əvəz etmək istəyinə bir növ "yox" dedi...

Ermənistanın prezidenti isə sammitdə çox pərt görünürdü. Bunu hətta ekrandan da sezmək mümkün idi. Görünür, bu Ermənistanda da hiss edilmiş və etirazların güclənməsində bir amil olmuşdu...

Amma etirazlardan uzağa gedən nəticələr çıxarmağın da əleyhinəyik. Məsələ bundadır ki, Ermənistandakı indiki hakimiyyətdən fərqli olaraq müxalifət bu vaxta qədər Dağlıq Qarabağın tanınmasını təkid edirdi...

Həm də Ermənistanın bütün siyasi spektrində Rusiyaya bağlılıq böyükdür, bu ölkənin siyasətçiləri həmişə birinci növbədə Rusiyanın xeyir-duasını almağa çalışırlar. Rusiya üçün isə indiki hakimiyyət daha sərfedicidir.

Ermənistan müxalifətinin və erməni lobbisinin fəallaşmasının bir səbəbi də budur ki, qarşıdan 2015-ci il, dırnaqarası genosidin guya ki, yüz illiyi gəlir və onlar öz hakimiyyətlərini bu hadisənin tanınması üçün daha qəti addımlara təhrik etməyə çalışırlar...

Ona görə də bu küləyin hara əsməsini indidən demək olduqca çətindir. Rusiya üçün bir az əvvəldə qeyd etdiyimiz kimi, heç indiki hakimiyyət də pis deyil və onlar güman ki, axıra qədər ona dəstək verəcəklər.

Məsələ bundadır ki, müxalif qüvvələr də Rusiya amilinə yüksək önəm versələr də Qərblə də inteqrasiyanı dərinləşdirmək əzmindədir. Bu isə təbii ki, Rusiyaya xoş getməz.

İndi aydın olan budur ki, artıq Ermənistanda başa düşürlər ki, nə qədər ki, siyasətdə "Qarabağ klanı" liderlik edəcək ölkə elə belə də yaşamaqda davam edəcək...

Ona görə də bir az gözləmək lazım gələcək. Etirazlar davamlı olsa və tələblərə aydınlıq gəlsə onda prosesin hara getdiyini demək mümkün olacaq.

YENİ MÜSAVAT
N 253 (5962) 14 oktyabr 2014

# Bakı metrosu necə qorunur?

İctimai nəqliyyatın bu növünün istifadəçiləri arasında metronun yaxşı mühafizə edildiyini deyən də var, bunun əksini düşünən də

**Təyyarə ilə Bakıya gələn hər kəs Heydər Əliyev adına Hava Limanında bir neçə mərhələli yoxlama prosesindən keçirilir. Gömrükçülər Azərbaycan vətəndaşları və əcnəbilər arasında fərq qoymadan ölkəyə girən hər kəsi təpədən-dırnağa, kəmərlərinin, ayaqqabılarının içərisinə qədər yoxlayır. Bir çoxları bu dərəcədə dərindən yoxlamanın yersiz olduğunu düşünsə də, bunun əksini düşünənlər də var.**



Maraqlıdır, insanların daha çox istifadə etdiyi metro stansiyaları necə qorunur?

Bakı Metropoliteninin rəsmiləri metroda təhlükəsizliyin ciddi qorunduğunu deyirlər. Xatırladaq ki, bir neçə il öncə Neft Akademiyasında 12 nəfərin ölümü, 13 nəfərin yaralanması ilə nəticələnən terror hadisəsini törədən Gürcüstan vətəndaşı Fərda Qədirov qətli törətməzdən əvvəl iki dəfə metrodan istifadə etmişdi.

Hazırda metronun necə qorunduğunu, metroda nə dərəcədə güvəndə olduğumuzu öyrənmək üçün bir neçə stansiyaya baş çəkib müşahidə apardıq. **İlk baş çəkdiyimiz məkan metronun "Neftçilər" stansiyası oldu.** Polis əllərində böyük çantası olan hər kəsi dedektorla yoxlayırdı. Buradakı polislər olduqca diqqətli görünürdü. Daha sonra metronun "Nərimanov" stansiyasına baş çəkdik. Burada başı söhbətə qarışan polislərin qarşısından əlimizdə böyük çanta ilə rahatca keçdik. Bizi saxlayıb çantanın içərisində nə olduğunu soruşan belə olmadı. Qayıdıb polisə niyə çantamızı yoxlamadığını soruşduqda o, "siz şübhəli birinə bənzəmirsiniz" cavabını verdi. Daha sonra jurnalist olduğumuzu bildirib bir az söhbət etməyə çalışdıq. Adlarını demək istəməsələr də, polislər işlərinə həssaslıqla yanaşdıqlarını bildirdilər: "Biz əlində böyük çantası olan, şübhəli bildiyimiz hər kəsi dedektorla yoxlayırıq. Hətta lazım gəldiyində o adama çantasını belə açdırıb içinə baxırıq. Düzdür, buna etiraz edib bizimlə dalaşanlar da olur. Amma insanlar başa düşməlidir ki, biz bunu onların təhlükəsizliyi üçün edirik".

Digər baş çəkdiyimiz metro stansiyası isə "28 May" oldu. Bu stansiyanın təzə açılan girişindən az adam istifadə etdiyindən orada elə də sıxlıq yox idi və bir nəfər polis işçisi vardı.

Daha sonra daha çox istifadə edilən Cəfər Cabbarlı keçidinə üz tutduq. Burada olduqca çox sərnişin vardı. Polislər metroya daxil olan şəxsləri diqqətlə yoxlayırdı. Hətta bir yaşlı qadınla polis işçisinin mübahisəsinə də qulaq müsafiri olduq. Polis qadından əlindəki torbaları açmasını tələb edirdi. Qadın isə bundan imtina edərək əlindəki torbaların içində onun şəxsi əşyaları olduğunu deyirdi. Bir müddət davam edən mübahisədən sonra qadın çantasını açdı, bundan sonra o, qatara minmək üçün buraxıldı.

**Polisdən bu tip sərnişinlərlə rastlaşanda nə etdiyini soruşduq. O, çantasını açmadığı təqdirdə həmin sərnişinin metrodan kənarlaşdırıldığını bildirdi:** "Biz əvvəlcə dedektorla yoxlayırıq. Dedektor siqnal verdiyi halda sərnişindən əlində olan bağlamanı və ya çantanı açmağı xahiş edirik. Rədd etdikdə həmin şəxsə bunu təhlükəsizlik üçün etdiyimizi başa salmağa çalışırıq. Yox, əgər yenə də anlamasa və mübahisə etməyə davam etsə, metronu tərk etməsini tələb edirik. Biz hava limanındakı kimi dərindən yoxlama apara bilmərik. Bu mümkün də deyil. Metroya o qədər adam girir ki, onları bir-bir dərindən yoxlamaq həm vaxt itkisi olar, həm də metro istifadəçilərinin özləri də buna razı olmazlar".





**Hər gün metronun xidmətindən istifadə edən sərnişinlərin də mövzu ilə bağlı fikrini öyrəndik. Metro istifadəçiləri metronun yaxşı qorunduğunu desələr də, müəyyən boşluqların olduğunu bildirdilər. Hər gün metro ilə işə gedib-gəldiyini dəyən Səma Quliyeva polislərin işini lazımınca yerinə yetirmədiyini düşünür:** "Polislər hərdən metroya ciddi nəzarət etsələr də, bəzən kimin əlində nə tutaraq metroya daxil olduğuna belə fikir vermirlər. Başları ya bir-biri ilə söhbət etməyə qarışır, ya da ki, telefonla oynamağa qarışır".

**Təqaüdçü olduğunu deyən Abbas Məmmədov isə metronun lazımınca qorumadığını düşünür:** "Metro yaxşı qorunmur. Mən özüm dəfələrlə əlimdə yüklə rahatca daxil olmuşam. Belə vəziyyətdə kim nə istəsə keçirə bilər".

**Digər sərnişin Sərxan Allahverdiyev isə metroya nəzarətin güclü olduğunu dedi:** "Mən özümü metroda güvəndə hesab edirəm. Polislər şübhələndikləri şəxsləri və ya əllərində böyük bağlaması, çantası olanları saxlayıb yoxlayır".

Xatırladaq ki, bu vaxta qədər Bakı metrosunda iki qanlı terror aktı törədilib. Bunlardan biri 1994-cü il martın 19-da "20 Yanvar" stansiyasında baş verən partlayışdır. Bu partlayışda 14 nəfər həlak olub, 49 nəfər isə yaralanmışdı. Digər terror aktı isə elə həmin il iyulun 3-də "Gənclik" stansiyasında baş vermiş və hadisə zamanı 13 nəfər həlak olmuşdu.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



# "Nar Mobile" mobil operatoru "Bakı Taksi" MMC ilə əməkdaşlıq edəcək

## Tərəflər əməkdaşlıq haqqında anlaşma memorandumu imzalayıblar

**"Nar Mobile" ticarət nişanı ilə fəaliyyət göstərən "Azerfon" şirkəti və "Bakı Taksi" MMC arasında anlaşma memorandumu imzalanıb. 2 oktyabr 2014-cü il tarixdə imzalanmış razılaşmaya əsasən, "Azerfon" şirkəti" mövcud telekommunikasiya bazarı şəraitini, həmçinin gələcək tərəfdaşlıq perspektivlərini nəzərə alaraq, "Bakı Taksi" MMC-nin əməkdaşlarını GSM mobil rabitə xidməti, "mi-fi" mobil İnternet xidməti və müştərək marketinq xidməti ilə təmin edəcək. Razılaşmaya görə, müştəriyönümlü yardım təmin etməklə, "Azerfon" şirkəti "Bakı Taksi" üçün ilkin məsləhətçi, eləcə də etibarlı və strateji tərəfdaş şəklində çıxış edəcək, mobil texnologiyalara, bu sahədə innovasiya və yeniliklərə dair öz məsləhət xidmətini göstərəcək.**

**Azərbaycan paytaxtının yeni simvollarından birinə çevrilmiş "Bakı Taksi" ilə imzalanmış bu razılaşmadan məmnun qalan "Azerfon" şirkətinin baş icraçı direktoru Kent Maknili, şəhər sakinləri və qonaqları keyfiyyətli taksi xidməti ilə təmin edən "Bakı Taksi" MMC-nin fəaliyyətini yüksək qiymətləndirmiş, gələcəkdə müxtəlif sahələrdəki geniş əməkdaşlığın təməlinin məhz bu gün qoyulduğunu xüsusi qeyd etmişdir.**

**"Bakı Taksi" MMC-nin baş direktoru Səid Hüseynov isə, öz növbəsində, qısa müddətdə inkişaf etmış, abunəçilərin rəğbətini qazanmış və yerli bazarda özünəməxsus yer tutmuş "Nar Mobile" ilə əməkdaşlıqdan məmnunluğunu ifadə etmişdir.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile", 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



# Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**








# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 252 (5961) 13 oktyabr 2014

**İstəsək də, istəməsək də onlar artıq həyatımıza giriblər. Bir də görürsən, dəstə halında, qrup halında hücuma keçdilər və sənin həyatın zindana döndü. Ünvan stabil deyil... Saytlara, bankların hesabına... hər yerə. Hakerləri çox vaxt xərçəng, SPİD-lə müqayisə edirlər. Təbii ki, onların ilk növbədə törətdiyi əməlləri...**



# Dünyanı barmağına dolayanlar

## Hakerlər hər an istənilən şəxsin həyatını qaralda bilər; 21-ci əsrin bu bəlası barədə bilmədiklərimiz...

### Hakerlər pislik üçün yaranıb, ya...?

Öncə sözün etimologiyası barədə. Haker proqramlaşdırmanı çox gözəl bilən, kompüterlər üçün yeni proqramlar yaradan və ya onları dəyişdirən, kompüter texnologiyalarının təhlükəsiz fəaliyyətini təmin edə bilən insanlara deyilir. Hakerlər həmçinin o şəxslərdir ki, onlar məişət texnologiyalarına, məsələn, radioqəbuledicilərə, printerlərə və ya çiləyici sistemlərə müdaxilə edirlər ki, onların fəaliyyətində maksimum rahatlıq əldə etmək mümkün olsun. Haker sözü XX əsrin 60-cı illərində informasiya texnologiyalarının inkişafı nəticəsində əmələ gəlib.

Onları xarakterizə edən cəhətlərə gəlincə. Nəzərə almaq lazımdır ki, hakerlər əksərən adi istifadəçilərdən fərqli olaraq proqramları detallarına kimi tədqiq etməkdən həzz alır, onların imkanlarını genişləndirməyə çalışır. Bundan başqa, proqramlaşdırmanı çox həvəslə, şövqlə aparır və ya proqramlaşdırmanı nəzəriyyədən daha çox real şəkildə aparmağı xoşlayırlar. Sürətli proqramlaşdırmanı bacarırlar. Onları xarakterizə edən başqa bir cəhət isə kompüterlər üçün zərərli proqramları-virusları hazırlayıb, onları yaymaq və antivirus proqramları satıb pul qazanmaqla həyatlarını qazanmağa çalışırlar.

Bir məqamı da qeyd edək ki, hakerlər ancaq pis məqsədlər uğrunda çalışmırlar. Belə ki, bu sahədə yüksək ixtisaslı proqramçılar da var. O zaman biz haker sözünü daha çox pozitiv mənada, proqramlaşdırmanı yüksək dərəcədə aparan bir şəxs kimi başa düşürük. Bu cür hakerlər daha çox hörmətə layiq görülürlər və onlar əvvəlcədən heç bir hazırlıq görmədən çətin həll olunan problemin həll olunmasına nail olurlar. Şəbəkə miqyasında isə haker o şəxsdir ki, şəbəkənin elementlərinə və kompüterin girişinə nəzarət edir, lazım gəldikdə onları məhdudlaşdırır. Bu şəxslər fərdi şəkildə şəbəkələrin normal fəaliyyətini nizamlayırlar. Bu cür hakerlər həmçinin internet vasitəsilə açılmaz kodları sındırmaqla və internet müharibələrinin iştirakçısı kimi də iştirak edir. Hakerlərin bu cür fəaliyyətləri cəmiyyətdə digər fəaliyyətlərə nisbətən daha dərin iz buraxır. KİV-lərdə əksərən bu cür hakerlərdən danışırlar. Hakerlərin bu fəaliyyəti əksərən neqativ qarşılansa da pozitiv fəaliyyət göstərən hakerlər da mövcuddur.

### Hakerlər üç cür olurlar: ağ, qara və boz kepkalılar

Ən maraqlı məqam isə heç şübhəsiz ki, hakerlərin bölündüyü kateqoriyadır. Mütəxəssislər onları üç kateqoriyaya bölür:

1. **"Qara kepkalılar"** ***(Black hat)***
2. **"Ağ kepkalılar"**
3. **"Boz kepkalılar"** ***(Grey hat)***

"Qara kepkalı" hakerlər əsasən illeqal - özlərinə aid olmayan və səlahiyyətlərində olmayan sistemlərə daxil olub müxtəlif çaplı zərərverici məqsədli - işlərlə məşğul olduqları halda "ağ kepkalı" hakerlər bunun tərsinə olaraq bu zərərlərin qarşısını almaq və sistemin özünün müdafiə qabiliyyətini artırmaqla məşğul olurlar. "Boz kepkalı" hakerlar isə digər iki növə tam aid edilə bilməyən, yəni həm illeqal, həm də leqal fəaliyyətlərlə məşğul olan şəxslərdir. Hakerların illeqal fəaliyyətlərinin arxasında duran səbəblərdən biri də özünü özünə və ya aid olduğu "yeraltı" cəmiyyətə "sübut etmə" və bəzən də sadəcə olaraq "zövq alma" istəyidir. Bu tip davranışlar daha çox "Boz kepkalılar"da müşahidə olunur. Onu da qeyd etmək lazımdır ki, əvvəllər ümumiyyətlə, haker fəaliyyətlərinə qeyri-ciddi yanaşan iri proqram təminatı və kompüter şəbəkəsi avadanlıqları istehsalçıları sonradan bir çox "qara kepkalı" hakerlərlə əlaqəyə keçmiş və öz şirkətlərində işlə təmin edərək onların "ağ kepkalı" hakerlər cərgəsinə keçmələrinə səbəb olmuşdur. Bundan əlavə, axtarış mühərriklərinin internetdə böyük əhəmiyyət qazanması ilə Axtarış Mühərriki Optimizasiyası(SEO) metodları meydana çıxmışdır. Bu cür metodlar da məhz "Qara Kepka" və "Ağ Kepka" metodları olaraq kateqoriyalaşdırılır.

### Rusiyalı hakerlər Qərbin qorxulu düşmənləridir

"New York Times" qəzeti yazır ki, Rusiya hakerləri mütəmadi olaraq Qərbin yüzlərlə neft və qaz şirkətinin kompüterlərinə hücum edirlər. Belə hücuma məruz qalan şirkətlər arasında enerji investisiyaları şirkətləri də var. Bu hücumların arxasında nə durur? Ekspertlərin fikrincə, iqtisadi casusluq. Ancaq Rusiya hakerlərinin hücumları təkcə kompüter sistemlərini yarıb, burdan nəsə öyrənmək deyil. Onlar həmin sənayelərə nəzarəti ələ keçirirlər. Bu təxminən ABŞ və İsrailin Stuxnet kompüter proqramı vasitəsilə 2009-cu ildə İranın nüvə proqramı kompüter sistemi üzərində nəzarəti ələ keçirməsinə və İranın nüvə təchizatının 20 fazini məhv etməsinə oxşayır. Rusiya hakerləri 84 ölkədə 1000-dən çox şirkətə haker hücumu edib. Bunu ilk dəfə 2012-ci ilin avqustunda Kalifortniyada qərarlaşan "CrowdStrike" təhlükəsizlik şirkəti ortaya çıxartdı. Şirkət bildirir ki, Rusiya haker qruplarının enerji şirkətlərinə hücumları həddən artıq yüksək texnologiyalı və aqressivdir. İyunun 30-da Kaliforniyadakı Symantec şirkəti hesabat yaydı ki, Rusiya hakerləri Stuxnet növlü proqramlara oxşar proqramdan istifadə edirlər.

### Məşhur hakerlər və onlara verilən cəzalar

İndi isə tarixdə səs-küy yaratmış hakerlərə keçək.

Bunlardan birincisi **Adrian Lamodur.** "Evsiz haker" ləqəbi ilə tanınan Lamonun ən çox səs gətirən əməliyyatı "New York Times" və Microsoft un sistemlərinə girmiş olması idi. Eyni zamanda yahoo, "Bank of America", Citigroup və Cingular sistemlərinə də girmiş ola biləcəyi təxmin edilir. Ona 65,000 dollarlıq cərimə, altı ay ev həbsi və 2 il kompüterə toxunmama hökmü verildi. Cəzasını çəkdi, hazırda sərbəstdir.

Şişirdildiyini deyən haker Mitnick ədalət nazirliyi tərəfindən ABŞ tarixində ən çox axtarılan kompüter günahkarı olaraq tanınır. Haqqında iki film çəkilib. "Freedom Downtime" və "Takedown". Ən məşhur fəaliyyəti: telefon sistemlərinə, kompüter şəbəkəsinə girib proqram oğurlamaq. Beş il həbs, arxasından 8 ay kompüterə toxunmama cəzası aldı. Cəzasını çəkib, hazırda azadlıqdadır.

**Kevin Poulsen** - Kod adı Dark Dante olan Poulsenin ən məşhur fəaliyyəti LA radio evinin KIIS-FM telefon xətlərinə girərək özünə çəkilişlə bir "Porsche" və başqa bir sıra mükafat qazandırması oldu. Federal verilənlər bazasına girmək istəyərkən tutuldu. Beş il həbs cəzası alıb. Hazırda azadlıqdadır və jurnalist olaraq işləyir.

**Robert Tappan Morris** - Dünyanın ilk soxulcan proqramı olan Morris soxulcanının istehsalçısı olan Robert Tappan Morris bu proqramı əslində "internetin nə qədər böyük olduğunu test etmək üçün" yazdığını iddia etməkdə olsa da proqramını çox böyük sayda kompüterə yayıb, şəbəkələri çalışmaz hala gətirməsi nəticəsində tutulub. Üç il cəza alıb, 10.500 USD cərimə ödəyib.

**Jonathan James** - Haker günahlandırması ilə həbs olunan, mühakimə olunan və hökm alan ilk 18 yaşdan kiçik kompüter istifadəçisi olan Ceyms 16 yaşında həbs olundu. Ən məşhur fəaliyyəti: ABŞ Müdafiə Nazirliyindəki kompüterlərdən birinə bir arxa qapı (backdoor) proqramı yerləşdirib, NASA kompüterlərindən 1.7 milyon dollarlıq proqram oğurlayıb. 10 il cəzalandırılıb, cəzası 6 aya qədər endirilib. Hazırda azadlıqdadır, amma kompüterlərə toxunması qadağan edilib.

Amma tarixdə tanınmış hakerlər qismində Tim Berners-Lee, Linus Torvalds, Larri Uold, Rasmus Lerdorf, Riçard Stollmen, Ceff Raskin, Con MakKarti, Erik Reymond, Robert Morris, Kevin Mitnik, Dennis Riçç və Ken Tompsonun adı çəkilir.

Tarixin ilk hakeri kimi isə Kevin Mitnikin adı hallanır. O, 6 avqust 1963-cü ildə Los Ancelesdə anadan olub. İlk kompüter hakerlərindən olub və onların ən məşhurudur. 15 fevral 1995-ci ildə FBI tərəfindən tutulub. Fujitsu, Motorolla, Nokia və Sun Microsystems kimi şirkətlərin kompüterlərinə icazəsiz olaraq girdiyinə görə 5 il həbs cəzası alıb. Hətta məhkəmə vaxtı hakimə qəhvə hazırlayan maşını belə proqramlaşdıra biləcəyini söyləyən Mitnik, həbsxanada qəhvə hazırlayan maşına yaxınlaşmaq qadağası almış hüquq tarixinin yeganə məhkumudur. Belə cəza almağının bir çox səbəbləri var. Həbsə girməsinə səbəb olan hakim və müstəntiqlərin başlarına oyunlar açmaq və s. Məsələn, telefon öyrənmə sistemini hakimin nömrəsinə yönləndirmiş, başqasının telefonuna bir neçə min dollarlıq danışıq borcu göndərmiş və başqa sevmədiyi birinin telefonunu aylarla bağlatdırmışdı.

Ləqəbi "Kondor"dur.

70-ci illərdə frikinqlə - "telefon xuliqanlığı" ilə məşğul imiş.

### Onların gəlirləri xərclərindən 20 dəfə çoxdur

Yaxşı, bəs bunlar bu işdən nə qədər qazanırlar? Kaspersky Lab ekspertləri hakerlərin hücum təşkil etməklə və haker alətlərinin yaradılması ilə nə qədər pul qazandıqlarını hesablayıb. Hesablamalara görə, kiber cinayətkarların əldə etdikləri gəlir xərclərindən 20 qat çoxdur. Məsələn, hər hansı təşkilat və yaxud sosial şəbəkənin saxta səhifəsinin yaradılması fırıldaqçılara 150 dollara başa gəlir. Lakin onların tələsinə təqribən 100 insan düşərsə, bu fırıldaqçılar bundan 10 000 dollar qazana bilər.

Blok edən mobil troyan virusunun proqramının yaradılması və yayılması hazırda hakerlər üçün əhəmiyyətli dərəcədə baha başa gəlir. Təqribən 1000 dollar. Lakin hakerlərin buradan da əldə etdikləri qazanc itkilərindən çoxdur. Fırıldaqçıların smartfonun blokunu açmaq üçün təyin etdikləri məbləğ isə 10 dollardan 200 dollara qədər dəyişə bilər. Bu da o deməkdir ki, 100 potensial zərərçəkmişdən fırıldaqçılar 20 000 dollar qazana bilər.

Bank troyan virusunun işə düşməsi halında birbaşa olaraq istifadəçilərin pullarına "ova çıxmış" hakerlər əhəmiyyətli gəlir əldə edə bilirlər. Sözügedən virusun əldə edilməsinə və lazımi spam-keçidlərə 3000 dollar xərcləməklə kiber cinayətkarlar 72 000 dollar qazanmaq şansı əldə edirlər. Bu halda 1 zərərçəkmiş istifadəçinin itirdiyi orta məbləğ 722 dollar təşkil edəcək.

### ABŞ ordusunun saytı da onlar üçün toxunulmaz deyil

Oktyabr ayında yayılmış bir məlumatda deyilir ki, ABŞ Ədliyyə Departamentinin saytında yerləşdirilmiş xəbərə görə, uç nəfər amerikalı və bir nəfər kanadalı haker ABŞ ordusuna məxsus olan saytı yararaq oradan dəyərli məlumatlar oğurlayıb. Haker dəstəsinin digər şirkətlərin saytlarından da gizli məlumatları oğurladığı üzə çıxıb.

İttiham olunanlar beynəlxalq haker qrupuna daxildirlər. Onlar intellektual mülkiyyətin oğurluğu ilə məşğul olublar. Onların etdiyi oğurluğun dəyəri 100 milyon dollar məbləğində dəyərləndirilib. İstintaq zamanı dörd nəfərdən ikisi öz günahlarını etiraf edib.

Xəbərdə deyilir ki, bu hakerlər 2011-ci ildən 2014-cü ilə qədər kiber hücumlar təşkil ediblər. Microsoft, "Epic Games", "Valve Corporation" və "Zombie Studios" kimi şirkətlər zərərçəkmişlər sırasındadır. "Apache" hücum helikopterlərinə məxsus proqramların oğurlanması da bu haker qrupunun törətdiyi qeyri-qanuni əməllərdən biridir.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 253 (5962) 14 oktyabr 2014

# Google, məni unut!

Google şirkətinin "unudulma haqqı"ndan istifadə etmək istəyən on minlərlə insan şirkətə müraciət edib. Son olaraq müraciət edənlərin sayı 145 min nəfərdir. "Unudulma haqqı" əslində insanların google nəticələrindən adlarının silinməsi tələbini ehtiva edir. Google bu günə qədər daxil olan tələblərin 41,8 faizini həyata keçirib. Müraciət edənlərin ümumi statistikası göstərir ki, bu sahədə Fransa birinci yerdədir (29 min 10 nəfər). İkinci sırada isə 25 min 78 tələblə Almaniya dayanır. "Unudulma haqqı"nın detallarına gəlincə, insanlar özləri barədə məlumatları ancaq google-ın axtarış nəticələrindən sildirə bilirlər, ümumən həmin səhifələri sildirə bilmirlər. Türkiyə və Azərbaycan Avropa Birliyi üzvü olmadığı üçün bu xidmətdən faydalana bilməz.



## Ya pul ver, ya da soyunacam...



Türkiyənin Antalya şəhərində svetaforda qırmızı işıqda gözləyən iki sürücünü "bütün pulunu ver, yoxsa soyunaram" deyə təhdid edərək soyan 37 yaşlı Edebiran Çobanoğlu adlı qadın 20 illiyə azadlıqdan məhrum edilib. İddialara görə, ilk hadisə 15 sentyabr 2012-ci ildə baş verib. E.Çobanoğlu həmin tarixdə svetaforda qırmızı işıqda gözləyən bir sürücünün maşınının qapısını açaraq, əlindəki böyük daşı göstərib: "Əgər cibindəki pulları verməsən, daşla maşının şüşələrini qıracam". Sürücünün verdiyi xırda pullarla kifayətlənməyən Çobanoğlu əlini Mehmet K.nin şalvar cibinə salıb, 800 lira(400 manatı) alıb. Bu hadisədən 2 gün sonra Çobanoğlu Antalyadan İzmirə gedən və qırmızı işıqda dayan başqa bir maşının qapısını açaraq onu fərqli formada təhdid edib. "Cibindəki bütün pulları verməsən, soyunacam" deyən qadın bu dəfə də məqsədinə çatıb. Polisin əməliyyatı nəticəsində həbs edilən Çobanoğlu məhkəməyə əqli pozğunluğunun olması ilə bağlı sənəd təqdim edib. Hətta məhkəmədə tez-tez soyunacağı ilə bağlı hakimi də təhdid edib. Bununla belə, məhkəmə onun daha öncə bir neçə cinayətə imza atdığını təsdiqləyərək, 20 il müddətinə həbsinə qərar verib.

# Bu kənd 800 min dollara satılır



Amerikann Konnektik ştatında yerləşən Consovill kəndi hərraca çıxarılıb. Bu barədə lenta.ru saytı xəbər verir. Kəndin ilkin satış qiyməti 800 min dollardır. Bu məbləğə bir neçə ev, mağaza, körpü, bəzi obyektlər daxildir. Kəndin ümumi sahəsi 25 hektar təşkil edir. Online auksiondakı alver 28 oktyabrda başlanacaq və iki gün boyunca davam edəcək. Kəndin sahibləri elanda qeyd ediblər ki, onu satın alanlar 19-cu əsrin qədimliyi ilə 21-ci əsrin müasirliyini birləşdirə biləcəklər.

## "Arvadları çiyində daşımaq" çempionatı keçirildi

ABŞ-ın Men ştatındakı Nyuri şəhərində "Arvadları çiyində daşımaq" üzrə hər il keçirilən çempionat baş tutub. Cütlüklərə 278 metrlik məsafəni minimal müddətdə keçmək təklif olunub. Qaçış zamanı onlar bir neçə maneəni dəf etməli olublar. Müsabiqənin qalibləri Cessi Voll və Kristina Arselault adlı cütlük olub. Lenta.ru saytının xəbərinə görə, onlar 2015-ci ilin iyununda toy etmək istəyirlər. Buna baxmayaraq, təşkilatçılar onlara bu qaçışda iştiraka icazə veriblər. Qaliblər gələn il İsveçdə keçiriləcək çempionatda iştirak etməyi planlaşdırır. Nyuridə keçirilən 13-cü çempionata hər il Cənubi Amerikadan qatılırlar. Kişilər mükafat olaraq pivə, qadınlar isə çəkilərindəki hər kiloya görə 11 dollar qazanır.



## Banan gələcəyin kartofu olacaq

BMT-nin Ərzaq Təhlükəsizliyi Komitəsi yeni bir araşdırmanın nəticələrini ortaya qoyub. Nəticələrə görə, yaxın illərdə milyonlarla insanın əsas qida maddəsi banan olacaq və bununla da kartofun yerini tutacaq. Ən rahat soyuq iqlimlərdə yetişən kartofun istehsalı sırf qlobal istiləşməyə görə zərbə alacaq. Mütəxəssislər bu səbəbdən düşünür ki, iqlimdəki bu dəyişikliklər sayəsində hazırda kartof yetişdirən ölkələr bundan sonra kartofa keçəcək. Sənədi hazırlayan professorlardan Filip Thornton BBC-yə açıqlamasında deyib ki, "Bu, sehirli bir çıxış yolu deyil. Amma temperaturun yüksəldiyi bölgələrdə banan yetişdirmək yaxşı çıxış yoludur". Bundan başqa, ən kalorili üç dənəli bitkinin - darı, un və buğdanın istehsalı da gələcəkdə azalacaq.




QOÇ - Qətiyyət göstərin, haqqınızı tələb etməyi bacarın. Belə olarsa, Göy qübbəsi digər işlərdə sizə yardımçı olacaq. Təkəbbürlü insanlarla iş görməyin. Günün ikinci yarısında maraqlı görüşlər var.

BUĞA - Qapalılığı bir kənara atın, insanlarla açıq şəkildə, səmimiyyətlə davranın. Yalnız bu halda qarşınızda duran günün bəhrəsini görəcəksiniz. Axşam saatlarında özünüzü soyuqdəymədən qoruyun.

ƏKİZLƏR - Sizdən tələb olunan vəzifələri layiqincə həyata keçirməyi bacarsanız, həm nüfuzunuz artacaq, həm də mövcud problemlərinizin həlli sürətlənəcək. Elə saat 11-dən bu istiqamətdə hərəkətə keçin.

XƏRÇƏNG - Səhər saatlarından başlayaraq nüfuz dairəniz genişlənəcək. Hətta yuxarı dairələrlə əlaqələriniz də dərinləşə bilər. Bununla yanaşı, ailə-sevgi münasibətlərinə də ciddi yanaşın, xətrə dəyməyin.

ŞİR - Siyasi-iqtisadi sahədə bürcünüz üçün gərginlik var. Bu səbəbdən hər hansı addımı atmazdan əvvəl kəşfiyyat xarakterli manevrlər edin. Çalışın ki, sizə inam bəsləyənlərin sayı artsın. Məsuliyyətsiz danışmayın.

QIZ - Maraqlı hadisələr yolunuzu gözləyir. Ruhunuzu sıxan bir çox məsələlərə aydınlıq gələcək. Gün ərzində arzuladığınız adamların əksəriyyətini görəcəksiniz. Təmir-tikinti işləri də effektli ola bilər.

TƏRƏZİ - Bütün proseslər xeyrinizə cərəyan edəcək. Yalnız saat 14-16 aralığı bir qədər mürəkkəb ola bilər. Həmin saatlarda münaqişədən uzaq durmalı, vaxtınızı qapalı yerdə keçirməlisiniz. Spirtli içkidən uzaq olun.

ƏQRƏB - Bu günün xarakterinə uyğun olaraq, daha çox istirahətinizi, qeyri-işgüzar görüşlərinizi, səfərlərinizi təmin etməlisiniz. Saat 17-dən sonra xoş bir hadisənin şahidi olacaqsınız.

OXATAN - İxtiyarınızda olan bu təqvim karyeranıza ucalıq vəd edir. Amma bu, heç də aldığınız təkliflərə gözüyumulu razılıq verməyinizi tövsiyə etmir. Çünki çətin adamlarla baş-başa qala bilərsiniz.

OĞLAQ - Yeni əlaqələrə başlamaq üçün konkret addımlar atmağa dəyər. Amma hansısa məsələyə görə ciddi məbləğdə xərc çəkməyə lüzum yoxdur. Rəhbərliklə münasibətləri mülayimləşdirin. Yalan danışmayın.

SUTÖKƏN - Gözlənilməz təsadüf nəticəsində mövcud problemləriniz aradan qalxmağa başlayacaq. Bu yöndə ümid bəslədiyiniz insanların köməyini də görəcəksiniz. Gün boyu daxili inamınızı bərpa edin.

BALIQLAR - Rastlaşdığınız hər bir olaya yaradıcı eşqlə yanaşın. Bu halda fəaliyyətiniz və maddi durumunuz da qənaətbəxş olacaq. Ulduzlar başqalarının əşyasından istifadə etməyi və borc götürməyi məsləhət görmür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Tiramisu" çinlilərə satılır



İtaliya mətbəxinin məşhur şirniyyatı olan "Tiramisu" da iqtisadi böhran qarşısında məğlub olaraq çinlilərə satılır. "Tiramisu" şirniyyatı ilk dəfə 60 il öncə Cənubi İtaliyanın Treviso şəhərindəki Alle Becherie kafesində satışa çıxarılıb. Daha sonra Romadakı şirniyyat dükanı olan "Pompi" tərəfindən haqları alınıb və bu günə qədər "Həqiqi Tiramisu" adı altında istehsalı davam edib. Pompi şirniyyat evinin sahibi Roberto Pompi 1971-ci ildən bu günə qədər "Başqa şöbəmiz yoxdur" deyərək xidmət göstərir və son iki ildir ziyanla işlədiyini açıqlayır: "Pompi"yi öncə ruslar almaq istədi. Amma qiymətdə razılaşa bilmədik. İndi isə çinlilər çox yaxından maraqlanır. İlin sonuna qədər anlaşma ola bilər".

Bununla da bir italyan əfsanəsi olan "Tiramisu" "Çin əsarəti"nin altına keçir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565